RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 65 (10085) 17 aprel 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezident İlham Əliyev Türkiyəyə işgüzar səfərə gedib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gedib.**

**AZƏRTAC xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.**

## "Uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik"

### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Kahramanmaraşda yerləşən məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması xəbərini dərin sarsıntı və kədər hissi ilə qarşıladıq.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir diləyir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2026-cı il*

## Azərbaycanın qlobal diplomatiyada çəkisi artır

### Prezident İlham Əliyev müstəqil və çoxvektorlu xarici siyasət strategiyasını uğurla həyata keçirir



Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunda Çin istiqaməti qlobal iqtisadiyyata inteqrasiya və çoxqütblü dünya nizamında balansın qorunması baxımından mühüm yer tutur. Azərbaycan Çinin irəli sürdüyü qlobal logistika təşəbbüsünə dəstək verən ilk ölkələrdən biridir. Çin Azərbaycanı bu layihənin tərkib hissəsi olan Orta dəhlizin mərkəzi halqası hesab edir. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çin mallarının Avropaya ən qısa və təhlükəsiz daşınmasını təmin edən strateji qovşaqdır. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərin yüksəksəviyyəli siyasi etimada söykəndiyini göstərir. Pekin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini ardıcıl şəkildə dəstəkləyir, Bakı isə öz növbəsində vahid Çin siyasətinə sadiqliyini nümayiş etdirir. Azərbaycanın ŞƏT-lə dialoq tərəfdaşı statusu və bu qurumla genişlənən əlaqələri rəsmi Bakının Avrasiya təhlükəsizlik və iqtisadi sistemindəki mövqeyini möhkəmləndirir.

7

## Azərbaycan Qoşulmama Hərəkatının institusional mərkəzinə çevrilir

Azərbaycan Prezidentinin təşəbbüsü ilə təsis edilən Parlament Şəbəkəsi və Gənclər Təşkilatı Qoşulmama Hərəkatını siyasi məsləhətləşmə platformasından çıxararaq, daha çevik və təsirli beynəlxalq instituta çevirib.

Xatırladaq ki, QH-nin Bakıda keçirilmiş 18-ci sammitində dövlət və hökumət başçıları Qoşulmama Hərəkatının parlamentariləri arasında qarşılıqlı fəaliyyəti, əməkdaşlığı genişləndirməyi və dərinləşdirməyi qərara alıblar. 2021-ci ilin noyabrında Madriddə Azərbaycan Prezidentinin təşəbbüsünə uyğun olaraq Parlamentlərarası İttifaqın 143-cü assambleyası çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edilib.

Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olub. 120 ölkəni birləşdirən QH-yə üzv olduğu ilk gündən etibarən ölkəmiz bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir və hərəkatın bütün təşəbbüslərinə çox fəal cəlb olunub.

5

## Azərbaycanın Mərkəzi Asiya istiqamətində sülh və təhlükəsizlik modeli

Azərbaycan Prezidentinin xarici siyasət kursu mükəmməl sistem xarakterlidir. Onun istiqamətləri arasında yüksək məntiqi, məzmun və məqsəd bağlılığı mövcuddur. Həmin aspektdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Böhran içində çoxtərəflilik: Qlobal əməkdaşlığa yenidən baxış" mövzusunda panel iclasında səsləndirdiyi "Azərbaycan sülh və təhlükəsizlik sahəsində özünəməxsus model ortaya qoymuşdur" fikri təsadüfi deyildir. Bu, Azərbaycanın dövlət başçısının ardıcıl və davamlı xarici siyasətinin mahiyyətindən irəli gələn nəticələrdən biridir.

Son illərdə aparılan müxtəlif tədqiqatlar da bu tezisi təsdiqləyir. Politoloji təhlillər əsasında əldə olunan nəticələr bu qənaətlərə gəlməyə əsas verir.



7

# H.B.Məmmədovun"Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Hikmət Baba oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2026-cı il*

# "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Vector Ltd arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 101** **Bakı şəhəri, 15 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 sentyabr tarixli 734 nömrəli Sərəncamına əsasən 2025-ci il 17 dekabr tarixində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Hungarian Oil and Gas Public Limited Company arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Hungarian Oil and Gas Public Limited Company arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nin 5-ci əlavəsində qeyd olunmuş "Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 102** **Bakı şəhəri, 15 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı şəhəri Sabunçu rayonu, Nardaran qəsəbəsinin şimal hissəsində "Sea Breeze Resort" istirahət zonası üçün yaşayış və qeyri-yaşayış binalarının tikintisi ilə əlaqədar Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında 9,08 hektar və su akvatoriyasında 46,0 hektar olmaqla, sahilboyu zolağa bitişik biri düzbucaqlı və digəri gəmi formasında olan iki süni torpaq sahəsinin yaradılması məqsədilə ümumilikdə 55,08 hektar su fondu torpaq sahəsi ayrılsın (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini əks etdirən yerquruluşu planı əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsinə əsasən yaradılması nəzərdə tutulan süni torpaq sahəsində tikintisi başa çatmış tikinti obyektlərinin istismarına icazə verildikdən sonra həmin torpaq sahəsi yaşayış məntəqələrinin torpaqları kateqoriyasına aid edilsin.

3. Dövlət və bələdiyyə orqanlarının öz səlahiyyətlərini müvafiq inzibati ərazi vahidi hüdudlarında həyata keçirməsi üçün bu Qərarın 1-ci hissəsinə əsasən yaradılması nəzərdə tutulan süni torpaq sahəsi Nardaran qəsəbəsinin hüdudları çərçivəsində olmaqla Bakı şəhəri Sabunçu rayonunun inzibati ərazisinə aid edilsin.

4. Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə ayrılmış 55,08 hektar su fondu torpaq sahəsi üzərində yaranmış icarə hüququnun dövlət qeydiyyatına alınması üçün icarə hüququ yaranmış sifarişçi qismində "Nardaran İnvest" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə torpaq icarəsi müqaviləsinin bağlanılmasını təmin etsin.

5. Bu Qərar qüvvəyə mindiyi tarixdən süni torpaq sahəsinin yaradılması və həmin 55,08 hektar torpaq sahəsində tikinti obyektlərinin inşası üçün tikintiyə icazə "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

6. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 5-ci hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Bakı Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

8. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"ndə dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 103** **Bakı şəhəri, 15 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 oktyabr tarixli 736 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 50 (Cild I); 2024, № 5 (II kitab), maddə 579, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nə aşağıdakı məzmunda 2.1.9-cu yarımbənd əlavə edilsin:

"2.1.9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada 1,5-3 dəfə artım əmsalları tətbiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 104** **Bakı şəhəri, 15 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1279 (Cild I); 2024, № 12 (I kitab), maddə 1323; 2025, № 12 (II kitab), maddə 1222) 1-ci hissəsində "Budaqov Tahir Yaqub oğlu" sözləri "Mursaqulov Azər İsmayıl oğlu" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 105** **Bakı şəhəri, 16 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 262 (Cild I); 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın "59. Siyasi elmlər" bölməsinin "Elm sahələri və ixtisaslar" sütununda "Davamlı inkişafın idarə edilməsi" sözləri "Davamlı inkişaf" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Zəngilanda Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclası keçirilib









Aprelin 16-da Zəngilan şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirinin müavini Şahin Mustafayev və Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda komissiyanın Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev çıxış edərək azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Ş.Mustafayev bildirib ki, işğal dövründə tamamilə dağıdılmış infrastruktur hazırda müasir standartlara uyğun şəkildə bərpa olunur, yollar, körpülər, tunellər, inşa edilir, yaşayış və sosial obyektlər yaradılır.

Baş nazirin müavini bildirib ki, Azərbaycan Rusiya ilə münasibətdə mehriban qonşuluq, qarşılıqlı anlaşma və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Qeyd olunub ki, ikitərəfli əməkdaşlığın ardıcıl və dinamik inkişafı prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən həyata keçirilən siyasi iradə və strateji kursla müəyyən olunur. Xüsusilə 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin ikitərəfli münasibətlərə mühüm təkan verdiyi vurğulanıb.

Şahin Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin ötən ilin oktyabrında Düşənbədə keçirilmiş görüşünün ikitərəfli əməkdaşlıqla yeni mərhələnin əsasını qoyduğunu, mart ayında Bakıda baş tutmuş yüksəksəviyyəli təmasların isə praktik nəticələr verdiyini bildirib. O, mürəkkəb regional şəraitə baxmayaraq, əməkdaşlığın davamlı inkişaf etdiyini xüsusi qeyd edib.

O, Azərbaycanın regional sabitliyə və humanitar əməkdaşlığa verdiyi töhfələrə toxunaraq, İran ərazisindən Rusiya vətəndaşlarının təxliyəsində göstərilən operativ dəstək, eləcə də Rusiya humanitar yardımının Azərbaycan ərazisindən tranziti üçün yaradılan şəraiti vurğulayıb. Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi mövcud mürəkkəb geosiyasi şəraitdə də etibarlı və fasiləsiz fəaliyyət göstərərək öz rəqabət qabiliyyətini sübut edib.

İqtisadi məsələlərə toxunan Ş.Mustafayev qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan ərazisindən müxtəlif istiqamətlərdən, o cümlədən Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması regionda etimadın möhkəmləndirilməsinə və nəqliyyat-logistika əməkdaşlığının genişlənməsinə xidmət edir. Hazırda Azərbaycan ərazisindən tranzitlə Ermənistana təxminən 26 min ton yük daşınıb.

Kənd təsərrüfatı məhsulları üzrə ticarətin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd edilib ki, Rusiya bazarı Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qalır.

Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. Onun sözlərinə görə, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,9 milyard ABŞ dollarına çatıb. Çıxışda investisiya əməkdaşlığının müsbət dinamikası xüsusi qeyd edilib. Bildirilib ki, Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard ABŞ dollarını, o cümlədən qeyri-neft sektorunda 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqelərinin möhkəmləndiyi, sanatoriya, sənaye və istehsal layihələrinin uğurla icra olunduğu bildirilib.

Baş nazirin müavini nəqliyyat-logistika sahəsini əməkdaşlığın prioritet istiqamətlərindən biri kimi dəyərləndirib. Xüsusilə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının strateji əhəmiyyəti vurğulanıb, dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırmanın yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artıracağı qeyd olunub. Bildirilib ki, 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacaq.

O, Araz vadisi iqtisadi zonasında "KamAZ" servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisini yüksək qiymətləndirib və Rusiya tərəfinə təşəkkür edib.

Rusiya tərəfdən çıxış edən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakter daşıdığını deyib. O, nəqliyyat-logistika, sənaye və aqrar sahələrinin əsas prioritetlər olduğunu bildirib, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynadığını vurğulayıb. Overçuk Zəngilanda aparılan bərpa işlərini yüksək qiymətləndirərək, bu ərazilərin birgə layihələr üçün yeni imkanlar yaratdığını qeyd edib.

İclas zamanı tərəflər ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələr üzrə əməkdaşlığın mövcud vəziyyətini və perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlər üzrə koordinasiyanın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

A.Overçuk Rusiya Federasiyası tərəfindən İran İslam Respublikasına göndərilimiş humanitar yardımın Azərbaycan ərazisindən keçərək ünvana çatdırılmasında göstərdiyi yardıma görə təşəkkürünü bildirib.

Sonda Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiriləcəyi, əldə olunmuş razılaşmaların ardıcıl şəkildə icrasının davam etdiriləcəyi vurğulanıb.

İclasın yekunlarına dair Ş.Mustafayev və A.Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 24-cü iclasının Protokolunu imzalayıblar.

Zəngilan səfəri çərçivəsində Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasının iştirakçıları Zəngilan şəhərində, Ağalı kəndində olub, Ağbənd avtomobil körpüsü, Horadiz-Ağbənd dəmir yolu layihəsi, habelə sərhəd-keçid məntəqəsinin infrastrukturunun tikintisi ilə tanış olublar. Qeyd edilib ki, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yeni qolunun əsas komponenti, Horadiz-Ağbənd dəmir yolu Zəngəzur dəhlizinin mühüm halqasını formalaşdıracaq.

# Aleksey Overçuk regionda nəqliyyat-logistika infrastrukturunun inkişafını yüksək qiymətləndirib

Azərbaycan-Rusiya münasibətləri çox sıx və çoxşaxəlidir. Dövlət başçıları səviyyəsində davamlı təmaslar mövcuddur və hökumətlərarası komissiya çərçivəsində konkret tapşırıqlar icra olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk deyib.

"Bizim əməkdaşlığımız, həqiqətən də, hərtərəflidir. Azərbaycan tərəfi Rusiya ilə münasibətlərin inkişafına böyük maraq göstərir", - deyə o vurğulayıb. A.Overçuk qeyd edib ki, Zəngilanda keçirilən iclasda aidiyyəti qurumlara ticarət strukturunun təhlili və dövriyyənin artırılması üzrə tapşırıqlar verilib.

"Bu, ölkələrimizdə yeni iş yerlərinin yaradılması və birgə inkişaf üçün vacibdir", - deyə Overçuk bildirib.

Rusiya rəsmisi həmçinin regionda nəqliyyat-logistika infrastrukturunun inkişafını yüksək qiymətləndirib. Onun sözlərinə görə, avtomobil yolları şəbəkəsi artıq formalaşıb, həmçinin Ermənistanın Mehri istiqamətinə gedən dəmir yolu xətti də xeyli dərəcədə hazırdır.

"Biz beynəlxalq keçid məntəqəsindəyik və burada həm "Şimal-Cənub", həm də "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin tərkib hissəsi olan yeni körpünü görürük. Rusiya Federasiyası bu infrastrukturun tezliklə işlək vəziyyətə gətirilməsində maraqlıdır", - deyə o qeyd edib.

Overçuk əlavə edib ki, yaradılan müasir logistika infrastrukturu gələcəkdə Rusiya, İran, Azərbaycan, Naxçıvan və Türkiyə istiqamətlərində yükdaşımaların daha səmərəli həyata keçirilməsinə imkan verəcək.




"Bu layihə bütün ölkələrimiz üçün birgə fayda yaradacaq", - deyə o fikrini tamamlayıb. A.Overçuk əlavə edib ki, Rəşt-Astara dəmir yolunun tikintisinin beynəlxalq "Şimal-Cənub" nəqliyyat dəhlizinin formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu layihə İran limanlarını Rusiya limanları, o cümlədən Baltik dənizi istiqamətində və Moskva ilə birləşdirən mühüm logistika xəttidir.

"Biz Rəşt-Astara dəmir yolunun çatışmayan hissəsinin tikintisi prosesindəyik. Hesab edirik ki, bu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşdırılmasının mühüm elementidir. Buna görə də biz bu layihəyə çox böyük maraq göstəririk", - deyə Overçuk bildirib.

Onun sözlərinə görə, müharibə başlamazdan əvvəl layihə üzrə dəmir yolu üçün torpaq sahələrinin alınması prosesi aktiv şəkildə həyata keçirilib və İran tərəfi ilə əldə edilmiş razılaşmalara uyğun olaraq böyük hissə artıq satın alınıb.

Baş nazirin müavini əlavə edib ki, Rusiya şirkətləri artıq topoqrafik-geodeziya işlərinə başlayıb və faktiki olaraq tikinti üçün geodeziya şəbəkəsi formalaşdırılıb.

"Yəni faktiki tikinti işləri artıq başlamışdı. Şərait imkan verən kimi biz bu işi bərpa edəcəyik", - deyə o qeyd edib.

# Azərbaycan Respublikası Milli Məclisi ilə Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatası arasında Anlaşma Memorandumu imzalanıb




Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının sədri Mohamed Ould Erraşid ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Mərakeş arasında mövcud əlaqələrin səviyyəsi yüksək qiymətləndirilib, siyasi dialoqun inkişafından, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəylikdən məmnunluq ifadə olunub.

Görüşdə parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafında mühüm alət olduğu qeyd edilib. Bu baxımdan parlament komitələri və dostluq qrupları arasında təmasların genişləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Tərəflər həmçinin parlamentlərarası əməkdaşlıq baxımından Parlamentlərarası İttifaq və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi kimi platformaların rolunu vurğulayaraq, bu çərçivədə qarşılıqlı fəaliyyətin və koordinasiyanın gücləndirilməsinin əhəmiyyətindən bəhs ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova Mohamed Ould Erraşidin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirakını və çıxışını yüksək qiymətləndirib.

Görüşdən sonra Azərbaycan Respublikası Milli Məclisi ilə Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

Spiker Sahibə Qafarova deyib ki, Anlaşma Memorandumu parlamentlərarası institusional əməkdaşlığın genişləndirilməsinə, o cümlədən komitələr və dostluq qrupları arasında əlaqələrin gücləndirilməsinə, beynəlxalq platformalarda fəaliyyətin daha səmərəli əlaqələndirilməsinə imkan verəcək.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri ilə görüşüb



Aprelin 16-da Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova PAİ və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi (QHPŞ) kimi beynəlxalq platformaların əhəmiyyətini vurğulayıb.

Milli Məclisin Sədri iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb, parlamentlərarası əlaqələrin rolundan danışıb. O bildirib ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub və parlamentarilərimiz həm ikitərəfli tədbirlərdə fəal iştirak edirlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində müsbət qarşılıqlı fəaliyyət göstərirlər. Eyni zamanda MDB PA çərçivəsində fəaliyyət də mühüm istiqamətdir. Burada bir çox mühüm məsələlərlə bağlı birgə əməkdaşlıq həyata keçirilir. Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyası da parlamentlərarası əlaqələrimizdə mühüm rol oynayır.

Rusiya və Azərbaycan xarici işlər nazirliklərinin Azərbaycan təyyarəsinin 2024-cü il dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğraması barədə birgə bəyanatına toxunan Valentina Matviyenko baş vermiş bədbəxt hadisənin nəticələrinin tənzimlənməsinin əhəmiyyətini qeyd edib və bir daha başsağlığını çatdırıb. Federal Şuranın Sədri İrandakı müharibə fonunda Rusiya vətəndaşlarının İrandan təhlükəsiz şəkildə çıxarılması üçün Azərbaycanın göstərdiyi yardıma görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyevlə və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayan Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko bu görüşlər barədə təəssüratlarını bölüşüb. Ölkələrimiz arasında münasibətlərin səviyyəsindən razılıq ifadə olunub, qarşılıqlı əlaqələrin inkişafında iki ölkənin dövlət başçılarının mühüm rolu qeyd edilib.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova iki ölkənin xarici işlər nazirliklərinin sonuncu bəyanatının əhəmiyyətini vurğulayıb.

Görüşdə xalqlarımız arasında mədəni, humanitar əməkdaşlığa da toxunulub, qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyindən danışılıb.

Söhbətdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Ali Məclisi Senatının Sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) İstanbulda keçirilən 152-ci Assambleyası çərçivəsində Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı iki qardaş ölkə arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə edilib. Eyni zamanda parlamentlərin də bu əməkdaşlığa verdiyi töhfə xüsusi vurğulanıb.

Söhbətdə parlamentlər arasında həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətinə toxunulub. Tərəflər parlament təşkilatları çərçivəsində həmrəylikdən və qarşılıqlı dəstəkdən məmnunluqlarını ifadə ediblər. Bu çərçivədə PAİ-nin mühüm platforma olduğu diqqətə çatdırılıb, eyni zamanda qeyd edilib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi də iki ölkə parlamentinin əməkdaşlığı üçün mühüm önəm daşıyır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Spiker Sahibə Qafarova Parlamentlərarası İttifaqın 152-ci Assambleyasının açılış mərasimində iştirak edib





Türkiyənin İstanbul şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyasının açılış mərasimində iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, PAİ-nin prezidenti Tulia Akson, PAİ-nin Baş katibi Martin Çunqonq və BMT-nin koordinatoru Babatunde Ahonsi çıxış edərək keçiriləcək müzakirələrin aktuallığı barədə fikirlərini bildiriblər, tədbirin işinə uğurlar arzulayıblar.

"Gələcək nəsillər naminə ümidin gücləndirilməsi, sülhün təmin edilməsi və ədalətin qorunması" mövzusuna həsr olunan assambleyada parlamentlərin bu istiqamətdə fəaliyyətinin daha da gücləndirilməsinə yönəlmiş təşəbbüslər müzakirə olunub, bu sahədə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 152-ci Assambleyasının iclasında çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 152-ci Assambleyasının iclasında çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikeri çıxışında bu gün dünyada artan qeyri-müəyyənlik dövründə münaqişələrin davam etdiyini, gərginliyin artdığını, böhranların dərinləşdiyini və bərabərsizliklərin genişlənməkdə davam etdiyini bildirib. Onun sözlərinə görə, bu meyillər sülhün və ədalətin təməllərini sarsıtmaq riski yaradır. O cümlədən Sahibə Qafarova iqlim dəyişikliyinin artıq real olduğunu və təcili tədbirlər tələb etdiyini vurğulayıb. Bu şəraitdə Assambleyanın mövzusunun həm vaxtında, həm də son dərəcə aktual olduğunu söyləyən Milli Məclisin Sədri deyib ki, bu, kollektiv və məsuliyyətli şəkildə hərəkət etməyə çağırır.

Mövcud çatışmazlıqlar fonunda çoxtərəfliliyin vacib rolunu diqqətə çatdıran spiker Sahibə Qafarova bu məqamda beynəlxalq hüquqa hörmətin, onunla bağlı daha güclü öhdəliklərin götürülməsinin tələb olunduğunu bildirib. Onun sözlərinə görə, parlament üzvləri sülhü təşviq etməli, ədaləti qorumalı və gələcək nəsillərin maraqlarının qərarlarda əks olunmasını təmin etməlidir. Milli Məclisin Sədri bu kontekstdə Parlamentlərarası İttifaqın rolunu xüsusilə vurğulayıb. Bildirilib ki, Parlamentlərarası İttifaq qlobal idarəetmədə səslərimizin daha güclü eşidilməsində böyük rol oynayır. Ortaq ideallara sarsılmaz sədaqət nümayiş etdirən Parlamentlərarası İttifaq parlamentləri irəli aparan məqsəd və arzuların həyata keçirilməsi üçün parlamentariləri bir araya gətirir.



Çıxışında Assambleyanın gənclərə yönəlmiş diqqətini xüsusi qeyd və təqdir edən Sahibə Qafarova deyib ki, bu, həm vaxtında, həm də olduqca vacibdir. Çünki gənclər yalnız siyasətdən faydalanmırlar, onlar həm də dəyişikliklərin fəal iştirakçılarıdır. Parlament üzvlərinin məsuliyyəti onların səslərinin eşidilməsini, potensiallarının reallaşmasını və iştiraklarının effektiv olmasını təmin etməkdir. O, bu baxımdan 2024-cü ildə qəbul edilmiş Birləşmiş Millətlər Təşkilatının Gələcək nəsillər haqqında Bəyannaməsinin xüsusi əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, bu sənəd inklüziv və irəliyə yönəlmiş, davamlı inkişafa xidmət edən siyasətlərin həyata keçirilməsinə çağırır.

Milli Məclisin Sədri çıxışında tədbir iştirakçılarına Azərbaycanda həyata keçirilən gənclər siyasətinin uğurlu nəticələri barədə də məlumat verib. O, bu sahənin ölkəmizdə prioritet təşkil etdiyini qeyd edərək deyib ki, bu məqsədlə Azərbaycan parlamenti tərəfindən "Gənclər siyasəti haqqında" qanun da daxil olmaqla, geniş qanunvericilik və institusional çərçivə yaradılıb. O cümlədən bildirilib ki, ölkəmizdə gəncləri dəstəkləmək üçün xaricdə təhsili asanlaşdıran təşəbbüslər, məşğulluğun təşviqi və gənclərin dövlət idarəçiliyində iştirakının gücləndirilməsi istiqamətində çoxsaylı dövlət proqramları uğurla həyata keçirilib. "Yüksəliş" proqramı kimi təşəbbüslər gənclərin motivasiyası və səlahiyyətləndirilməsi baxımından xüsusilə effektiv olub. Azərbaycan həmçinin Gənclər Forumu, Könüllülər Forumu kimi platformalar vasitəsilə gənclər arasında beynəlxalq əməkdaşlığı fəal şəkildə təşviq edir, həmrəyliyi gücləndirir və qlobal çağırışlara töhfə verməyə çalışır.

Bununla yanaşı qeyd olunub ki, Azərbaycan Qoşulmama Hərəkatının Gənclər Təşkilatı kimi təşəbbüslər, eləcə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən Qlobal Bakı Forumu çərçivəsində təşkil olunan "Gənclər danışsın, biz dinləyək" paneli kimi innovativ platformalar vasitəsilə qlobal gənclər gündəliyinə töhfə verir. Milli Məclisin üzvləri Parlamentlərarası İttifaqın Gənc Parlamentarilər Forumu və Türk Dövlətləri Parlament Assambleyasının Gənc Parlamentarilər Qrupu çərçivəsində beynəlxalq əməkdaşlıqda fəal iştirak edirlər.

Milli Məclisin Sədri çıxışında belə bir inamı ifadə edib ki, gənclərin səlahiyyətləndirilməsi, dayanıqlığın, innovasiyanın və sülhün möhkəmləndirilməsi deməkdir və bu, gələcək nəsillər üçün ən mühüm mirasdır. Bu kontekstdə o qeyd edib ki, Cənubi Qafqaz transformasiya dövrünə qədəm qoyur. Azərbaycan və Ermənistan arasında dialoqda əldə olunan irəliləyiş göstərir ki, hətta uzunmüddətli münaqişələr belə siyasi iradə və beynəlxalq hüquqa hörmət vasitəsilə həll oluna bilər. Bu çərçivədə parlament diplomatiyası da etimadın qurulmasında mühüm rol oynayır.

Sonda spiker Sahibə Qafarova bir daha qeyd edib ki, səylərimiz əməkdaşlıq, dialoq və çoxtərəflilik prinsipləri ilə istiqamətləndirilməlidir. Yalnız birgə fəaliyyət vasitəsilə daha sülhsevər və ədalətli dünya qurmaq mümkündür.

*"Azərbaycan"*

# "Mən, Lalə, bir də Şerlok Holms 2" filminin ikinci mövsümü ictimaiyyətə təqdim olunub



Aprelin 15-də Nizami Kino Mərkəzində İctimai Televiziya və Radio Yayımları Şirkəti ilə Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü əsasında hazırlanan "Mən, Lalə, bir də Şerlok Holms 2" çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib.






AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva, mədəniyyət naziri Adil Kərimli, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. Nazir İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətini yüksək qiymətləndirərək, son illər televiziya məkanında keyfiyyətli məzmunun təqdim olunmasının, xüsusilə təhsilyönümlü layihələrə göstərilən diqqətin təqdirəlayiq olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu kimi layihələr uşaqların maariflənməsinə, dünyagörüşünün formalaşmasına mühüm töhfə verir.

Layihənin ideya müəllifi Tural Sevdimalı çıxışında bildirib ki, layihənin əsas məqsədi uşaqlara düzgün dəyərləri aşılamaqdır. "Biz istəyirik ki, uşaqlar dostluğu düzgün seçməyi, doğru qəhrəmanları tanımağı və ən əsası, güvənə biləcəkləri insanları ayırd etməyi öyrənsinlər", - deyə o vurğulayıb.

Tural Sevdimalı gələcək planlarla bağlı məlumat verərək qeyd edib ki, artıq Kino Agentliyi ilə əməkdaşlıq formalaşıb. Onun sözlərinə görə, layihə "pitching" mərhələsini uğurla keçib və yaxın zamanda "Mən, Lalə, bir də Şerlok Holms" filminin tammetrajlı versiyasının çəkilişi planlaşdırılır. Filmin gələcəkdə kinoteatrlarda nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, layihənin ideya müəllifi Tural Sevdimalı, ssenari müəllifləri isə Tural Sevdimalı və Vüqar Hüseynovdur. Ailəvi, detektiv və komediya janrlarını özündə birləşdirən serial hər biri 50 dəqiqə olmaqla 12 seriyadan ibarətdir.

Serialın birinci mövsümündə hadisələr Muradın yay tətilini keçirdiyi kənddə cərəyan edir. Onun kitablarla tanışlığı, xüsusilə Artur Konan Doylun əsərləri vasitəsilə Şerlok Holms obrazının təxəyyülündə canlanması süjetin əsas xəttini təşkil edir. Layihənin başlıca məqsədi mütaliənin insan həyatındakı rolunu ön plana çıxarmaqdır. Eyni zamanda Muradın zəngin təxəyyülü vasitəsilə müxtəlif tarixi və mədəni şəxsiyyətlər canlandırılır ki, bu da seriala maarifləndirici məzmun qazandırır. Layihədə uşaqlara dürüstlük, məsuliyyət, böyüklərə hörmət, ətraf mühitə qayğı və ictimai davranış qaydaları kimi dəyərlər aşılanır. Yeni mövsümdə hadisələr 11 yaşlı Muradın ətrafında inkişaf edir. O, "Əlaçı" bilik yarışmasının qalibi olmağı arzulasa da, qaydalara əsasən, yarışmada iştirak hüququnu itirir. Buna baxmayaraq, Murad Lalənin öz kəndlərini təqdim etməsi üçün ona dəstək olur və hazırlıq prosesində fəal iştirak edir. Süjet xəttində uşaqlar arasında rəqabət, dostluq münasibətləri və seçim qarşısında qalmaq kimi mövzular ön plana çıxır. Muradın xəyali dostu olan məşhur detektiv Şerlok Holms bu mövsümdə də ona dəstəyini davam etdirir.

"Mən, Lalə, bir də Şerlok Holms 2" serialı aprelin 19-dan etibarən İctimai Televiziya və Radio Yayımları Şirkətinin efirində tamaşaçılara təqdim olunacaq.

# "İrəvan: tarixin və itirilmiş irsin əks-sədası" kitabının təqdimatı keçirilib

Aprelin 15-də Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində filologiya elmləri doktoru, professor Fəridə Səfiyevanın Leyla Əliyevanın dəstəyi ilə Azərbaycan, rus, ingilis və fransız dillərində çap olunmuş "İrəvan: tarixin və itirilmiş irsin əks-sədası" kitabının təqdimatı keçirilib.





AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Tədbirdən əvvəl Azərbaycanın görkəmli oftalmoloq-alimi, akademik və ictimai xadim Zərifə Əliyevanın anım günü ilə əlaqədar xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova çıxış edərək, təqdim olunan kitabın maraqlı və əhəmiyyətli olduğunu vurğulayıb, onun məhz bu məkanda təqdim olunmasından məmnunluğunu ifadə edib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud İçərişəhərin yalnız turizm deyil, eyni zamanda incəsənət, yaradıcılıq və intellektual mərkəz kimi mühüm əhəmiyyətə malik olduğunu deyib, bu cür tədbirlərin keçirilməsinin həmin funksiyanın təzahürü olduğunu bildirib.

AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin rəhbəri, kitabın redaktoru Cəbi Bəhramov layihənin həm tarixi, həm də hüquqi baxımdan mühüm əhəmiyyət daşıdığını xatırladıb, İrəvanın qədim tarixə malik olduğunu və bölgədəki toponimlərin mənşəyinin çox qədim dövrlərə təsadüf etdiyini vurğulayıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva isə çıxışında belə kitabların hazırlanmasının və ictimaiyyətə təqdim olunmasının vacibliyini xüsusi qeyd edib.

Kitabın müəllifi Fəridə Səfiyeva irəvanlı olduğunu xüsusi vurğulayaraq, bu əsəri yazmağın onun üçün, sadəcə, elmi fəaliyyət deyil, həm də mənəvi məsuliyyət və borc olduğunu deyib. O qeyd edib ki, doğma yurdunun tarixi, mədəni irsi və yaddaşı ilə bağlı həqiqətlərin qorunub gələcək nəsillərə çatdırılması hər bir irəvanlının üzərinə düşən mühüm vəzifədir.

Tədbir bədii hissə ilə davam edib, iştirakçılara maraqlı və zəngin mədəni proqram təqdim olunub.

Qeyd edək ki, kitab İrəvan şəhərinin Azərbaycan xalqına məxsus qədim sivilizasiya və mədəniyyət mərkəzi olduğunu elmi əsaslarla sübut etməyə yönəlib. Əsərdə şəhərin çoxəsrlik tarixi, zəngin mədəni irsi və onun formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin həyat və yaradıcılığı geniş şəkildə tədqiq olunur. XIX-XX əsrlərdə baş vermiş faciəvi hadisələr nəticəsində İrəvanın azərbaycanlı kimliyinin məqsədyönlü şəkildə silinməsinə cəhd göstərilməsinə baxmayaraq, onun həqiqi siması arxiv sənədlərində, fotoşəkillərdə və elmi mənbələrdə öz əksini tapıb. Bu tədqiqat əsəri həmin həqiqətlərin bərpasına, İrəvanın unudulmuş Azərbaycan milli-mədəni irsinin öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına xidmət edən mühüm elmi mənbədir.

# Nizami Kino Mərkəzində "At gücü" sənədli filmi təqdim olunub









Aprelin 16-da Nizami Kino Mərkəzində "At gücü" ("Horse Power") sənədli filminin təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, dövlət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar tədbir çərçivəsində Azərbaycan Rəssamlıq Akademiyasının tələbələrinin "At gücü" mövzusunda hazırladıqları rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Daha sonra film nümayiş etdirilib.

Film dünyanın ən seçilən atlarının hekayəsindən, onların qeyri-adi gücündən və insanla unikal bağlılığından bəhs edir. Layihə vəhşi təbiət haqqında məzmun yaradan və filmləri 70-dən çox ölkədə yayımlanan məşhur "Plimsoll Productions" və "Eos Films" istehsal şirkətlərinin birgə məhsuludur.

Filmin çəkilişləri ABŞ, Azərbaycan, Böyük Britaniya, Çin, Qətər və Niderlandda aparılıb. Azərbaycandakı çəkilişlər Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) dəstəyi ilə həyata keçirilib. Filmdə təqdim olunan məşhur at cinsləri arasında Azərbaycanın milli irsi olan Qarabağ atları da öz layiqli yerini tutub.

Bu ekran əsəri "Mavi Planet II" və "Yer kürəsi II" kimi layihələrin yaradıcıları tərəfindən atlar haqqında indiyədək çəkilmiş ən iddialı sənədli filmlərdən biri hesab olunur.

Şərq təqviminə görə, 2026-cı ilin "At ili" olması ilə əlaqədar filmin nümayişləri dünyanın müxtəlif ölkələrində bu mövzuya həsr edilib. Proqnozlara əsasən, ekran əsərinin auditoriyası 100 ölkədə 300 milyon izləyicini ötəcək. Bu göstəriciyə televiziya yayımı, onlayn platformalar, kinoteatr nümayişləri, eləcə də dünyanın müxtəlif muzeylərində təşkil edilən təqdimatlar vasitəsilə nail olunması gözlənilir.

Qeyd edək ki, filmin ərsəyə gəlməsində beynəlxalq təcrübəyə malik peşəkar komanda iştirak edib. Layihənin məsləhətçiləri sırasında Böyük Britaniyanın tanınmış fotoqrafı, Kral Coğrafiya Cəmiyyətinin üzvü Henri Dallal (Henry Dallal) da daxil olmaqla, elm və mədəniyyət sahəsinin aparıcı mütəxəssisləri yer alır.

Filmin rejissoru Mark Braunlou (Mark Brownlow) "Yer kürəsi II" və "Eden: Untamed Planet" kimi layihələri ilə tanınır. O, həmçinin "Mavi planet II", "Kiçik nəhənglər 3D", "Okeanlar: bizim mavi planetimiz 3D" və digər sənədli serialların prodüseri və rejissoru kimi çoxsaylı mükafatlara layiq görülüb.

Filmin prodüseri Sun Şuyun (Sun Shuyun) beynəlxalq əməkdaşlıq sahəsində tanınan və məhsuldar fəaliyyət göstərən mütəxəssislərdəndir.

İkinci rejissor Rob Sallivan (Rob Sullivan) sənədli seriallar üzrə təcrübəli prodüser və rejissor kimi yerli hekayələrin təqdimatı və unikal çəkiliş məkanlarına çıxış imkanları ilə seçilir.

Filmin kadrarxası mətni "Oskar" mükafatı nominantı aktyor Coş Brolin (Josh Brolin) tərəfindən səsləndirilib, musiqinin müəllifi isə "Emmy" mükafatı laureatı bəstəkar Barnabi Teylordur (Barnaby Taylor).




# Azərbaycan Qoşulmama Hərəkatının institusional mərkəzinə çevrilir

Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi dövründə irəli sürülən strateji təşəbbüslər bu gün həm regional, həm də qlobal səviyyədə öz real bəhrələrini verir. Bu fəaliyyətin ən mühüm institusional uğurlarından biri kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis olunmasını göstərmək olar. Parlament Şəbəkəsi QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədini daşıyır.

Bu mənada aprelin 15-də Türkiyənin İstanbul şəhərində keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı zamanı sözügedən şəbəkənin qərargahının Bakı şəhərində yaradılması barədə qəbul edilmiş qərar xüsusi tarixi əhəmiyyət daşıyır. Bakının bu beynəlxalq platformanın mərkəzi statusunu alması, Azərbaycanın dünya siyasətindəki artan nüfuzunun və hərəkat daxilindəki əvəzsiz liderliyinin növbəti təsdiqidir.

## Prezident İlham Əliyevin təşəbbüsləri ilə

"... Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onun təşkilata çevrilməsinə yönəlib".

Prezident İlham Əliyevin 2022-ci ildə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında səsləndirdiyi bəyanatlar, hərəkatın institusional inkişafı və gələcəkdə tammiqyaslı təşkilata çevrilməsi məqsədi artıq konkret əməli işlərdə özünü göstərir.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə təsis edilən Parlament Şəbəkəsi və Gənclər Təşkilatı Qoşulmama Hərəkatını siyasi məsləhətləşmə platformasından çıxararaq, daha çevik və təsirli beynəlxalq instituta çevirib.

Xatırladaq ki, QH-nin Bakıda keçirilmiş 18-ci sammitində dövlət və hökumət başçıları Qoşulmama Hərəkatının parlamentariləri arasında qarşılıqlı fəaliyyəti, əməkdaşlığı genişləndirməyi və dərinləşdirməyi qərara alıblar. 2021-ci ilin noyabrında Madriddə Azərbaycan Prezidentinin təşəbbüsünə uyğun olaraq Parlamentlərarası İttifaqın 143-cü assambleyası çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edilib.

Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olub. 120 ölkəni birləşdirən QH-yə üzv olduğu ilk gündən etibarən ölkəmiz bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir və hərəkatın bütün təşəbbüslərinə çox fəal cəlb olunub. Buna görədir ki, Azərbaycan hərəkata üzv olduğu çox qısa zamanda yürütdüyü xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2019-2022-ci ilə qədər sədrliyi üzərinə götürüb. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadılıb. Hərəkata sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib. Xüsusən dövlətimizin rəhbərinin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olunub. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Qoşulmama Hərəkatının təməl ideyasını sülh, təhlükəsizlik və dayanıqlı inkişafın qorunub saxlanılması təşkil edir. Bu baxımdan QH Parlament Şəbəkəsinin Bakı konfransında iştirak edən nümayəndə heyətlərinin üzvlərinin 2022-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər etmələri də bir daha bu bəşəri ideyalara sadiqliyi göstərir.

## Təşkilatın beynəlxalq rolu artır

Bu günlərdə İstanbulda keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı təşkilatın beynəlxalq rolunun nə dərəcədə artdığını bir daha sübut etdi. 50-yə yaxın ölkədən və beynəlxalq təşkilatdan olan 130-a yaxın nümayəndənin iştirak etdiyi konfrans "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusuna həsr edilib.

Azərbaycan Milli Məclisinin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova konfransda deyib ki, Parlament Şəbəkəsi çərçivəsində aparılan dialoq və birgə səylər parlament vasitələri ilə sülhə, sabitliyə, inkişafa və rifaha nail olmaq öhdəliyinin sübutudur.

Çıxışda qeyd olunub ki, 2025-ci ilin aprel ayında Daşkənddə keçirilmiş son konfransdan keçən dövrdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi fəaliyyət dairəsini və beynəlxalq rolunu genişləndirməyə davam edib.

Bildirilib ki, 2025-ci ilin aprelindən bu günədək üzv ölkələrin parlament rəhbərləri və hökumət rəsmiləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri ilə təxminən 35 görüş keçirilib. Bu görüşlərdə platformanın effektivliyinin daha da artırılması və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi məsələlərinə diqqət yetirilib.

Konfrans çərçivəsində çıxış edən Türkiyə, Özbəkistan, Misir, Əlcəzair və digər ölkələrin parlament rəhbərləri, eləcə də beynəlxalq qurumların nümayəndələri Azərbaycanın və onun rəhbərinin fəaliyyətinə yüksək dəyər veriblər. Çıxışçılar Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Azərbaycan Milli Məclisinin sədrliyi ilə institusional inkişafı və təşkilatın beynəlxalq nüfuzunun artırılması istiqamətində görülən işləri yüksək qiymətləndiriblər.

Konfransın sonunda İstanbul Bəyannaməsi qəbul olunub. Tədbirdə həmçinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda qərargahının yaradılması və Ərəb Parlamentinə Parlament Şəbəkəsində müşahidəçi statusunun verilməsi haqqında da qərarlar qəbul olunub.

İstanbulda keçirilən konfransda mühüm addım olaraq, Ərəb Parlamentinə şəbəkədə müşahidəçi statusunun verilməsi, təşkilatın beynəlxalq əməkdaşlıq coğrafiyasını daha da genişləndirməsi anlamına gəlir. Bu qərar şəbəkənin digər nüfuzlu parlament təşkilatları ilə sıx iş münasibətləri qurmaq hədəfinə xidmət edir. Bu həm də Azərbaycanın təşəbbüsü ilə yaradılan adıçəkilən platformanın artıq qlobal mərkəzə çevrildiyini, eyni zamanda beynəlxalq parlament diplomatiyasının əsas hərəkətverici qüvvələrindən biri olduğunu göstərir.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda qərargahının yaradılması xüsusi əhəmiyyət daşıyır. Bu, Azərbaycanın qlobal həmrəylik və tərəfdaşlıq mərkəzi statusunu daha da möhkəmləndirəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Beynəlxalq hüquqa əsaslanan prinsipial siyasət

Azərbaycan və Rusiya Xarici İşlər nazirliklərinin yaydığı birgə bəyanatda bildirilir ki, iki ölkə liderinin 9 oktyabr 2025-ci il tarixli görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 25 dekabr 2024-cü il tarixində Rusiya Federasiyasının hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində AZAL-a məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər. Qeyd edilib ki, atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir. Birgə Bəyanatda həmçinin Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafın bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcəyi bildirilir.



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan dövlətinin prinsipial mövqeyinin, güclü siyasi iradəsinin və ardıcıl diplomatik fəaliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilən bu razılaşma, eyni zamanda təsdiqləyir ki, dövlət öz vətəndaşlarının hüquqlarını beynəlxalq müstəvidə müdafiə edir və bu istiqamətdə konkret nəticələr əldə edilir: "Qüdrətli Azərbaycan dövləti vətəndaşlarının təhlükəsizliyini və hüquqlarını beynəlxalq səviyyədə qoruyan əsas təminatçı kimi çıxış edir. Əldə olunmuş razılaşma beynəlxalq münasibətlər sistemində milli maraqların qətiyyətlə müdafiə olunmasının nümunəsi kimi də dəyərləndirilə bilər. Prezident İlham Əliyev tərəfindən nümayiş etdirilən qətiyyətli və ardıcıl mövqe xüsusi qeyd edilməlidir. Dövlətimizin başçısı hadisənin ilk günlərindən məsələni diqqətdə saxladı, ədalətli mövqenin ortaya qoyulmasına çağırışlar etdi. Prezident İlham Əliyevin həmin ərəfədə Azərbaycan Televiziyasına müsahibəsində jurnalistin "Cənab Prezident, bəs ümumilikdə Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?" sualına cavabını xatırlatmaq istərdik: "Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırılıb. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək" .

Göründüyü kimi, Azərbaycan dövləti bu məsələdə prinsipial siyasət yürüdür və hər zaman öz vətəndaşının yanındadır.

V.Rəhimzadə qeyd edib ki, hadisənin obyektiv şəkildə araşdırılması və kompensasiyanın təmin olunması Azərbaycanın əsas və prinsipial tələblərindən idi. Bu yanaşma beynəlxalq hüquqa, müvafiq konvensiyalara əsaslanırdı. Bu prosesdə həm prinsipial mövqe, həm də çevik diplomatiya bir-birini tamamlayaraq nəticənin əldə olunmasına yönəlmişdi. Azərbaycanın bu yanaşması bir daha təsdiqləyir ki, milli maraqların müdafiəsi sistemli və ardıcıl siyasət tələb edir. Burada əsas məqam təkcə mövqenin ifadə olunması deyil, həmin mövqenin beynəlxalq müstəvidə qəbul etdirilməsi və nəticəyə çevrilməsidir. Bu baxımdan dövlətin həyata keçirdiyi diplomatik xətt praqmatizm və prinsipiallığın sintezi kimi çıxış edir.

Deputat vurğulayıb ki, hər zaman haqq-ədaləti bərpa etməyə qadir olan Azərbaycanın bu hadisənin təfərrüatlarını da təfsilatlı şəkildə öyrənəcəyi şübhə doğurmurdu: "Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət prosesin konkret nəticə ilə yekunlaşmasını təmin etdi. Sözügedən razılaşma bir daha bu reallığı da təsdiqlədi ki, belə mürəkkəb məsələlər qarşılıqlı hörmət, siyasi iradə və praqmatik yanaşma şəraitində həll oluna bilər. Nəticə etibarilə, əldə olunan razılaşma təsdiqləyir ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən ardıcıl və prinsipial siyasət, məqsədyönlü diplomatik strategiyası beynəlxalq məsələlərdə həlledici rol oynayır. Bu, həm dövlətin siyasi iradəsinin, həm də beynəlxalq münasibətlərdə yerinin və rolunun, ədalətə və beynəlxalq hüquqa söykənən siyasətinin nəticəsidir. Azərbaycan beynəlxalq münasibətlər sistemində sabitlik, dialoq və əməkdaşlıq məkanı kimi mövqeyini möhkəmləndirir. Bu razılaşma regionda sabitliyin qorunması və qarşılıqlı etimad mühitinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Aİ-nin ikinci missiyasının məqsədi nədir?

Avropa İttifaqına (Aİ) üzv dövlətlərin səfirləri Brüsseldə Ermənistana mülki missiya göndərilməsi barədə qərarı təsdiqləyiblər. Bildirilib ki, bu addım qərarın gələn həftə Aİ xarici işlər nazirlərinin görüşündə yekun təsdiqinə yol açır. Xatırladaq ki, Aİ-nin birinci missiyası Ermənistana 2023-cü ilin fevralında gəlib və Azərbaycanla sərhəd bölgələrdə müşahidə aparır. Missiyanın 2027-ci il fevralın 19-dək Ermənistanda qalması nəzərdə tutulur. Yeni missiyanın isə Ermənistanın Aİ standartlarına uyğun olaraq hibrid təhdidləri daha effektiv aşkar edib cavab verə bilməsi üçün təhlükəsizlik potensialını qiymətləndirəcəyi bildirilir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev bizimlə söhbətində Avropa İttifaqının ikinci missiyasının məqsədlərindən danışıb. Siyasi təhlilçi bildirib ki, Avropa İttifaqına üzv dövlətlərin səfirlərinin Brüsseldə Ermənistana yeni mülki xarakterli missiyanın göndərilməsi barədə qərarı ilk baxışdan Qərb təsisatlarının genişlənməsi kimi görünsə də, məsələnin dərinliyinə endikdə tamamilə fərqli mənzərənin şahidi oluruq. İlk növbədə Aİ-nin Ermənistana göndərdiyi ikinci missiyanın mahiyyətini birinci missiyadan kəskin şəkildə fərqləndirmək lazımdır. "Əgər birinci missiya şərti sərhəd zonasında müşahidə aparmaq, kəşfiyyat işi görmək məqsədilə göndərilmişdisə, yeni missiyanın xarakteri tamamilə fərqlidir. İkinci missiyanın Ermənistanın daxili-siyasi gündəliyi, xüsusən də qarşıdan gələn seçkilər və daxili sabitlik məsələləri ilə sıx bağlı olduğunu istisna etmirəm. Daha dəqiq desək, birinci missiyadan fərqli olaraq ikinci missiyanın seçkiqabağı dövrdə Ermənistana qarşı yönələ biləcək hibrid hücumların qarşısını almaq və ölkənin institusional dayanıqlılığını artırmaq məqsədilə fəaliyyət göstərəcəyini düşünürəm. Belə ki, mart ayında Ermənistan mətbuatında hibrid hücumlarla bağlı mübarizəyə dəstək olmaq üçün Ermənistan XİN rəhbəri Ararat Mirzoyanın Aİ-yə məktubla müraciət etdiyi xəbəri yayılmışdı. Ümumiyyətlə, hibrid hücumlar dedikdə dezinformasiya kampaniyaları, kiber hücumlar, seçki prosesinə xarici və daxili müdaxilələr nəzərdə tutulur", - deyə o əlavə edib.

Ermənistan cəmiyyətində revanşist qüvvələrin mövcud olduğunu deyən F.Abdullayev qeyd edib ki, onlar vəziyyəti destabilizasiya etmək üçün hər cür vasitələrdən istifadə edə bilərlər. Aİ bu ehtimalları nəzərə alaraq seçki prosesini qorumaq üçün bu addımı atıb. Son vaxtlar Ermənistanda hazırkı iqtidara qarşı ciddi hibrid hücumlar həyata keçirilir. Məsələnin digər vacib tərəfi missiyanın müddəti ilə bağlıdır. Birinci missiyadan fərqli olaraq yeni qrupun uzun müddət qalacağı inandırıcı deyil, çünki əsas hədəf seçkiqabağı hibrid təhdidlərlə mübarizə aparmaqdır. Bu isə o deməkdir ki, seçkidən sonra bu missiyanın geri qayıdacağı ehtimalı yüksəkdir.



Siyasi təhlilçi bildirib ki, burada daimi mövcudluqdan deyil, konkret siyasi hadisəyə hesablanmış məhdud zaman çərçivəsində fəaliyyət göstərəcək müvəqqəti və texniki dəstək missiyasından söhbət gedir: "Bu faktın özü missiyanın sülh prosesinə ehtimal olunan təsirlərini xeyli azaldır. Ən azından hazırkı məlumatlar məsələni bu cür təhlil etməyə əsas yaradır. Qərarın hazırkı sülh danışıqlarına təsirlərinə gəlincə, Azərbaycan və Ermənistan arasında gedən danışıqlar fonunda bu sual cəmiyyətimizdə haqlı olaraq xüsusi maraq doğurur. Fikrimcə, bu missiya sülh prosesinə hər hansı ləngidici, destruktiv təsir etməyəcək. Birincisi, bu missiyanın fəaliyyət gündəliyi birbaşa Ermənistanın daxili-siyasi immuniteti və informasiya məkanıdır. İkinci əsas məqam isə sərhəd məsələsidir. Həm də bu missiyanın birincidən fərqli olaraq şərti sərhəddə hər hansı fəaliyyəti, kəşfiyyat xarakterli müşahidəsi nəzərdə tutulmur. Digər tərəfdən, beynəlxalq ictimaiyyətə, o cümlədən rəsmi İrəvana da bəllidir ki, sülh prosesində Azərbaycanın əsas tələbi şərti sərhəd zonasında üçüncü qüvvələrin, kənar dairələrin və ya beynəlxalq hərbi mülki missiyaların yer almamasıdır. Bizim fundamental prinsipimiz ondan ibarətdir ki, regional problemlər məhz region dövlətləri tərəfindən kənar müdaxilələr olmadan ikitərəfli formatda öz həllini tapmalıdır".

Kənar qüvvələrin sərhəd zolağına gətirilməsinin sülhə xidmət etmədiyini deyən F.Abdullayev bildirib ki, ikinci missiya sərhəddən uzaqda fəaliyyət göstərəcəyi üçün Azərbaycanın irəli sürdüyü mühüm qırmızı xətti hazırkı şərtlərdə pozmur. Sərhəddə fiziki fəaliyyət nəzərdə tutulmadığı təqdirdə sülh danışıqlarının ahənginin pozulması üçün heç bir əsas yoxdur. Bu qərar sülh danışıqlarında hər hansı gərginlik yaratmayacaq. Rəsmi İrəvan yaxşı bilir ki, Azərbaycan tərəfi birinci missiya ilə bağlı qərarı alqışlamır, bu barədə narazılığını açıq şəkildə bəyan edib. Bu gün sülh danışıqları çərçivəsində gəlinən mərhələyə də nəzər salsaq görərik ki, Azərbaycanın tələbi paraflanmış sülh sazişində də rəsmən öz əksini tapıb. Bu müddəada hər iki ölkə sərhədlərinə üçüncü ölkələrin qüvvələrinin yerləşdirməmə öhdəliyi götürüb. Belə bir hüquqi və siyasi məsuliyyətin mövcudluğu fonunda İrəvanın manevr imkanları da son dərəcə məhduddur. "Ermənistan fərqindədir ki, paraflanmış sülh müqaviləsinin mətni və ruhu ilə açıq-aşkar ziddiyyət təşkil edəcək hər hansı addımın atılması, o cümlədən bu missiyanın məqsədlərindən kənara çıxarılaraq, sərhəd boyunca yerləşdirilməsinə cəhd edilməsi sülh prosesinə birbaşa zərbə olacaq. Məhz bu fundamental səbəblərə, regional reallıqlara söykənərək qeyd edə bilərəm ki, hazırkı mürəkkəb vəziyyətdə Ermənistanın sülh prosesini pozacaq, danışıqlara zərbə vuracaq hər hansı ehtiyatsız və ya təxribatçı addım atması real görünmür. İkinci missiya Azərbaycana qarşı təzyiq aləti qismində istifadə oluna bilməz. Belə bir cəhd olarsa, bu, birbaşa İrəvanın əleyhinə işləyəcək", - deyə o bildirib.

Siyasi təhlilçi yekunda vurğulayıb ki, sülh danışıqları konstruktiv və ikitərəfli inkişaf xəttini qoruyaraq davam etmək potensialına tam malikdir. Azərbaycan regionda hərəkətverici qüvvə kimi öz haqlı mövqeyi ilə proseslərin tam mərkəzində dayanır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin görüşü keçirilir

Aprelin 16-da Belçika Krallığının paytaxtı Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin görüşü öz işinə başlayıb. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.






Avropa regionuna daxil olan 52 üzv dövlətin gömrük xidmətləri rəhbərlərinin, ÜGT Katibliyinin nümayəndələrinin və özəl sektor təmsilçilərinin bir araya gəldiyi görüşdə regional əməkdaşlığın gücləndirilməsi, institusional inkişafın sürətləndirilməsi və ÜGT-nin strateji prioritetlərinə uyğun fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə dair məsələlər müzakirə edilir.

Ümumdünya Gömrük Təşkilatının Baş katibi çıxışında 2026-cı il üzrə Avropa regionu gömrük rəhbərlərinin Brüsseldə keçirilən görüşünün region ölkələri arasında dialoqun gücləndirilməsi, ortaq maraq kəsb edən məsələlərin müəyyənləşdirilməsi və regional səviyyədə əldə olunmuş nəticələrin qiymətləndirilməsi baxımından mühüm rol oynadığını vurğulayıb. Bildirilib ki, görüş ÜGT-nin iyun ayında keçiriləcək Şura sessiyalarına hazırlıq üçün, eləcə də təşkilatın Strateji Planı çərçivəsində ticarətin asanlaşdırılması, modernləşmə və təchizat zəncirinin təhlükəsizliyi kimi istiqamətlər üzrə əldə olunan irəliləyişlərin müzakirəsinə əlverişli şərait yaradır. Baş katib həmçinin ÜGT-nin fəaliyyətinin üzv ölkələrin gözləntilərinə uyğun şəkildə davam etdiyini, yeni təşəbbüslərin strateji hədəflərlə uzlaşdırıldığını və idarəetmə, kommunikasiya, eləcə də texnoloji inkişaf sahələrində mühüm addımların atıldığını diqqətə çatdırıb.

Eyni zamanda iştirakçılar rəqəmsallaşma, süni intellekt əsaslı idarəetmə, elektron ticarətin sürətli inkişafı, məlumat keyfiyyətinin artırılması və risklərin effektiv idarə olunması kimi sahələrdə region daxilində daha sıx əməkdaşlığın vacibliyini vurğulayıblar.

Görüş çərçivəsində ÜGT-nin Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin fəaliyyəti və gələcək inkişaf perspektivləri də geniş müzakirə olunub. Bildirilib ki, sözügedən ofis region üzrə potensialın gücləndirilməsi sahəsində əsas əlaqələndirici platforma kimi çıxış edərək üzv dövlətlər arasında bilik və təcrübə mübadiləsinin təşkili, qabaqcıl təcrübələrin paylaşılması və institusional imkanların artırılması baxımından mühüm rol oynayır.

Tədbirdə həmçinin gömrük orqanları ilə özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi məsələsi, eləcə də region üzrə Özəl Sektor Məsləhətçi Qrupunun yaradılması təşəbbüsü müzakirə olunur. Bu təşəbbüsün transsərhəd ticarətin səmərəli təşkili, risklərin daha effektiv idarə olunması və innovativ yanaşmaların tətbiqi baxımından əlavə imkanlar yaradacağı qeyd edilib.

Bununla yanaşı, ÜGT-nin idarəedici orqanlarında regionun təmsil olunması, o cümlədən Siyasi Komissiya, Maliyyə və Audit Komitələri üzrə seçkilər, həmçinin Bergen Razılaşması çərçivəsində təmsilçilik mexanizmlərinin təkmilləşdirilməsi məsələləri də gündəlikdə yer alır.

İki gün davam edəcək görüşün yekununda müzakirə edilən məsələlər üzrə ortaq yanaşmaların formalaşdırılması, regional əməkdaşlığın daha da dərinləşdirilməsi və ÜGT platformasında Avropa regionunun mövqeyinin gücləndirilməsi istiqamətində növbəti addımların müəyyən edilməsi gözlənilir.

## Kənd Təsərrüfatı Nazirliyində Asiya İnkişaf Bankının nümayəndə heyəti ilə görüş keçirilib

**Kənd Təsərrüfatı Nazirliyində Asiya İnkişaf Bankının (AİB) nümayəndə heyəti ilə görüş keçirilib.**

Kənd təsərrüfatı nazirinin müavinləri Seymur Səfərli və Zaur Əliyev, Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Cabbarlı, aidiyyəti struktur bölmələrin nümayəndələri, AİB-in Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Leah Gutierrez, bankın Azərbaycan üzrə direktoru Sunniya Durrani-Camal, ölkə üzrə əməliyyatlar rəhbəri Marina Best və digər nümayəndələrin iştirak etdikləri görüşdə qarşılıqlı əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tədbirdə Azərbaycanda aqrar sektorun mövcud vəziyyəti, bu sahədə həyata keçirilən tədbirlər barədə məlumat verilib. Qeyd edilib ki, aqrar sahədə qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilir. Azərbaycan bu tərəfdaşlığın daha da gücləndirilməsində maraqlıdır və ölkəmizin davamlı inkişaf məqsədlərinə töhfə verə biləcək yeni təşəbbüslərin müzakirəsinə xüsusi önəm verir. Hökumət kənd təsərrüfatının inkişafı siyasəti və strategiyası əsasında Asiya İnkişaf Bankı ilə səmərəli əməkdaşlıqda maraqlıdır.

Bildirilib ki, hazırda AİB tərəfindən Azərbaycanda kənd təsərrüfatı üzrə bir sıra layihələr icra olunur və bu təşəbbüslər sektorun modernləşdirilməsinə, innovativ yanaşmaların tətbiqinə və regional əməkdaşlığın gücləndirilməsinə xidmət edir.

Görüşdə Asiya İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində icra olunan layihələr, aqrar sahədə islahat gündəliyi, suvarma və su təsərrüfatının modernləşdirilməsi planları, yeni kənd təsərrüfatı strategiyasının hazırlanması və potensial əməkdaşlıq imkanları müzakirə olunub. Tərəflər həmçinin AİB ilə nazirlik arasında İşçi qrupunun yaradılması və birgə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Sonda bildirilib ki, Kənd Təsərrüfatı Nazirliyi ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın genişləndirilməsi aqrar sahədə dayanıqlı inkişafın təmin olunmasına, regionların potensialının artırılmasına və kənd yerlərində iqtisadi imkanların genişləndirilməsinə mühüm töhfə verəcək.

## İşğaldan azad olunmuş ərazilərdə inşası planlaşdırılan 48 tuneldən 7-nin tikintisi yekunlaşıb

**İşğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat infrastrukturunun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr icra olunur. Hazırda ümumi uzunluğu 3 878,1 kilometr olan 68 layihə üzrə tikinti işlərinin aparılması nəzərdə tutulur.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, bu çərçivədə ümumi uzunluğu 1 454,3 kilometr olan 30 layihə artıq başa çatdırılıb. Eyni zamanda, ümumi uzunluğu 2 432,8 kilometr təşkil edən 38 layihə üzrə tikinti işləri davam etdirilir.

Tunellərin tikintisi də diqqət mərkəzində saxlanılır. Belə ki, ümumi uzunluğu 71,2 kilometr olan 48 tunelin inşası planlaşdırılıb. Onlardan ümumi uzunluğu 13,6 kilometr olan 7 tunelin tikintisi yekunlaşıb, 57,6 kilometr uzunluğa malik 41 tunel üzrə isə işlər davam edir.

Körpü tikintisi sahəsində də mühüm irəliləyişlər əldə olunub. Ümumilikdə uzunluğu 9 581,6 metr olan 447 körpünün tikintisi nəzərdə tutulur. Bu günədək ümumi uzunluğu 8 839,1 metr olan 392 körpü artıq istifadəyə verilib.

Bununla yanaşı, ümumi uzunluğu 3 871 metr olan 16 viadukun inşası planlaşdırılıb. Onlardan 1 965 metr uzunluğa malik 9 viadukun tikintisi başa çatdırılıb.

Görülən işlər nəticəsində işğaldan azad olunmuş ərazilərdə müasir yol infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır, bölgənin sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradılır.

## DSMF-nin xərcləri I rübdə 2,05 milyard manatdan çox olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin I rübündə proqnozla müqayisədə 9 faiz və ya 183 milyon manat çox olmaqla 2 milyard 132 milyon manat təşkil edib.**




Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 3 faiz və ya 41 milyon manat artaraq 1 milyard 559 milyon manat olub.

Bu ilin 3 ayında DSMF-nin xərcləri isə 2 milyard 53 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz və ya 189 milyon manat çoxdur.

## AMB nümayəndə heyəti Dünya Bankı və BVF-nin yaz toplantılarında iştirak edəcək

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədrinin birinci müavini Əliyar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Dünya Bankı (DB) və Beynəlxalq Valyuta Fondunun (BVF) yaz toplantılarında iştirak məqsədilə Vaşinqton şəhərinə işgüzar səfərə yola düşüb.**

Yaz toplantıları çərçivəsində Mərkəzi Bankın nümayəndə heyətinin Azərbaycanın da daxil olduğu Seçki Qrupunun toplantısında və bir sıra tədbirlərdə iştirakı nəzərdə tutulur.

Bu müddətdə DB və BVF-nin rəhbər vəzifəli şəxsləri, Mərkəzi Bank ilə əməkdaşlıq edən bir sıra maliyyə-investisiya təşkilatları və ABŞ-nin rəsmi qurumları ilə ikitərəfli görüşlərini keçirilməsi də planlaşdırılır.

# Regionun neft ixracı arteriyası

## BTC-nin tikintisinə 23 il əvvəl necə başlanıldı

**Bu ilin yanvar-mart aylarında Azərbaycandakı magistral kəmərlərlə 6 milyon 206 min ton neft nəql olunub. Dövlət Statistika Komitəsi bildirir ki, nəqletmənin 76,9 faizi Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri ilə həyata keçirilib. Hazırda BTC Azərbaycan nefti ilə yanaşı, Türkmənistan və Qazaxıstandan daxil olan nefti də daşıyır.**



Bu faktların özü də göstərir ki, BTC regionun neft ixracı arteriyasıdır. Bir infrastruktur olaraq da bu kəmər üçüncü minilliyin nəhəng mühəndis qurğusudur. Təsadüfi deyil ki, onun tikintisi bir neçə il davam etdi.

BTC-nin təməli 2002-ci il sentyabrın 18-də qoyulsa da, geniş hazırlıq tədbirlərindən sonra fiziki tikinti işlərinə növbəti ilin aprelində başlandı. 23 il əvvəl Səngəçaldan üzü Umbakı dağlarına doğru qazılmağa başlayan xəndəklərə ilk borular düzülürdü. Bu, BTC-nin boruları idi. Həmin vaxtdan kəmərin çəkilişi üçün 220 min boru hissəsi qaynaqla bir-birinə calandı. Tikintinin ən qızğın dövründə işə 22 min insan cəlb edildi. Bunların 80 faizə qədəri inşaat işləri gedən ərazilərin öz sakinləri idi. Kəmərin araya-ərsəyə gəlməsi üçün 110 milyondan artıq adam-saat sərf edildi.

Uzunluğu 1768 kilometr olan BTC Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyyə və Adanadır.

BTC-nin gündəlik ötürücülük gücü 2009-cu ilin yazınadək 1 milyon barel idi, həmin vaxtdan indiyədək isə 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür. Üç tranzit ölkə ərazisində kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Ölkəmizdəki daha bir stansiya Yevlax rayonu ərazisindədir. Növbəti iki stansiya Gürcüstanda və dördü Türkiyədə fəaliyyət göstərir.

Bu unikal kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir. Kəmər eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla 1500-dən artıq su hövzəsi ilə kəsişir. Öz yaradıcısının - Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan BTC Xəzər neftini dünya bazarlarına təhlükəsiz, etibarlı, sakit və ekoloji baxımdan minimum risklə nəql edir. Regionun neft ixracı arteriyası sayılan bu kəmərin salnaməsi qısa olsa da, zəngindir.

Qeyd edildiyi kimi, xəttin tikinti işləri bir neçə il davam etdi. 2005-ci ilin mayında TC-nin Azərbaycan, oktyabrında isə Gürcüstan hissəsi istifadəyə verildi. Kəmər tam bir sistem kimi 2006-cı ilin iyul ayında istismara daxil oldu.

BTC haqlı olaraq dünya miqyasında dövrümüzün ən böyük və ən mürəkkəb mühəndis-texniki qurğularından biri hesab edilir. 2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Kəmər Bosfordan yan keçməklə, onsuz da yüksək hərəkət sıxlığı olan boğazlar vasitəsilə neftin nəqlinin və bununla bağlı ekoloji risklərin azaldılmasına xidmət edir.

BTC-ni səssiz kəmər də adlandırırlar. Çünki boruları torpaq altında basdırılıb, bu isə müasir dövrdə karbohidrogenlərin nəqlinin ən təhlükəsiz yolu sayılır.

BTC tikinti mərhələsindən başlayaraq regiona əhəmiyyətli faydalar gətirib və müsbət dəyişikliklərə yol açıb. Layihəyə start verildiyi vaxtdan kəmərin marşrutu boyunca yüzlərlə icma ilə sıx əməkdaşlıq şəraitində çoxsaylı sosial təşəbbüs həyata keçirilib və bu fəaliyyət davamlı xarakter daşıyır.

Bir vacib nüansı da əlavə edək. BTC-nin bir hissəsi Türkiyənin 2023-cü ildə zəlzələ baş vermiş rayonlarından keçir. Nə xoş ki, bu təbii fəlakət zamanı kəmərin yeraltı boruları zərrə qədər də zədə almadı. Bu da kəmərin nə dərəcədə etibarlı olduğunu, necə keyfiyyətlə inşa edildiyini bir daha təsdiqlədi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Azərbaycanın qlobal diplomatiyada çəkisi artır

## Prezident İlham Əliyev müstəqil və çoxvektorlu xarici siyasət strategiyasını uğurla həyata keçirir

Azərbaycanın xarici siyasət doktrinası balanslaşdırılmış və çoxtərəfli tərəfdaşlığa söykənən model üzərində formalaşıb. Bu strateji yanaşma ölkəmizin həm Qərb, həm də Şərq qütbləri ilə münasibətlərini paralel və səmərəli şəkildə inkişaf etdirməsinə imkan yaradıb. Xüsusən 2020-ci ildən sonra qlobal müstəvidə cərəyan edən proseslər, bəzi dairələrin qeyri-obyektiv yanaşması, Rusiya-Ukrayna müharibəsinin yaratdığı yeni reallıqlar və enerji bazarlarındakı kəskin dəyişikliklər Azərbaycanın tərəfdaşlıq coğrafiyasını genişləndirməsini zərurətə çevirib.

Azərbaycan ənənəvi tərəfdaşlarla yanaşı, Latın Amerikası və Afrika qitəsinin aparıcı dövlətləri ilə də yeni əməkdaşlıq körpülərinin qurulmasına rəvac verib. Ölkəmizin qlobal diplomatik fəallığı və Qoşulmama Hərəkatına sədrliyi dövründə formalaşdırdığı qarşılıqlı etimad mühiti fərqli coğrafiyalarda yerləşən dövlətlərlə ikitərəfli bağların möhkəmlənməsini sürətləndirib. Prezident İlham Əliyev aprelin 14-də Kolumbiya, Somali və Esvatini Krallığının yeni təyin olunmuş səfirlərini qəbul edib. Görüşlərdə bu ölkələrlə siyasi əlaqələrin müsbət səviyyəsi qeyd olunub, həmçinin iqtisadiyyat, investisiya, turizm, enerji və humanitar sahələrdə əməkdaşlığı dərinləşdirməyin vacibliyi vurğulanıb. Dövlətimizin başçısı Azərbaycanın sözügedən ölkələrlə BMT və Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalar çərçivəsindəki qarşılıqlı dəstəyini yüksək qiymətləndirərək, münasibətlərin çoxşaxəli inkişafı üçün geniş potensialın olduğunu bildirib.

Azərbaycan xarici siyasətini emosiyalar yox, rasional dövlətçilik maraqları üzərində qurur. Bakı hər zaman beynəlxalq hüquqa və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq formatlarına üstünlük verir. Ölkəmiz heç bir hərbi-siyasi blokun diktəsi ilə hərəkət etmir və başqa dövlətlərin maraqlarının alətinə çevrilmir. Bu çoxvektorlu yanaşma uzunmüddətli perspektivdə Azərbaycanın iqtisadi dividendlərini artırmaqla yanaşı, qlobal diplomatiyada çəkisini də artırır. Məhz dövlətimizin başçısının siyasi gedişləri sayəsində ölkəmiz enerji resurslarının ixracatçısından mühüm tranzit qovşağına və sabitlik ixrac edən etibarlı dövlət statusuna yüksəlib. Azərbaycan regional təhlükəsizlik arxitekturasında vazkeçilməz tərəfdaş statusunu möhkəmləndirib.

Bu kursun ən mühüm istiqamətlərindən birini Amerika Birləşmiş Ştatları ilə münasibətlər təşkil edir. Azərbaycan-ABŞ əlaqələri müasir dövrdə strateji tərəfdaşlıq və qarşılıqlı təhlükəsizlik maraqları çərçivəsində yeni mərhələyə yüksəlib. Vaşinqton Azərbayacanı Avropanın enerji təhlükəsizliyində ən mühüm aktor və Avrasiya logistikasında mühüm qovşaq hesab edir. Xüsusilə ABŞ tərəfindən dəstəklənən TRIPP layihəsi kimi təşəbbüslər regionda iqtisadi inteqrasiyanın və dayanıqlı sülhün təmin olunmasına xidmət edir. İkitərəfli əlaqələr artıq təkcə karbohidrogen resurslar üzərində deyil, həm də "yaşıl enerji"yə keçid, antiterror mübarizəsi və Orta dəhlizin inkişafı kimi geniş geosiyasi istiqamətlər üzrə bərabərhüquqlu tərəfdaşlıq modelinə söykənir.

Azərbaycanın Avropa ilə münasibətləri də strateji tərəfdaşlıq, enerji təhlükəsizliyi və qarşılıqlı iqtisadi maraqlar üzərində qurulmuş dinamik bir modeldir. Rəsmi Bakı Avropa İttifaqı (Aİ) və ona üzv ölkələrlə əlaqələrini Avrasiyanın logistik xəritəsini formalaşdıran mühüm geosiyasi aktor statusunda inkişaf etdirir. Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji xəritəsini şaxələndirən mühüm tərəfdaşdır. Xüsusilə qlobal enerji böhranı fonunda imzalanmış memorandumlar Bakını qitənin enerji təhlükəsizliyinin əsas mərkəzlərindən birinə çevirib.

Hazırda tərəfdaşlıq karbohidrogen resurslarından bərpaolunan enerjiyə doğru transformasiya olunur. Azərbaycanın Xəzər dənizindəki külək enerjisi potensialının Qara dəniz sualtı kabeli vasitəsilə Avropaya nəqli layihəsi əməkdaşlığın gələcək miqyasını və hədəfini müəyyən edir. Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin ən mühüm halqası kimi Avropanın Asiya bazarlarına təhlükəsiz və qısa çıxışını təmin edir. Bu, Bakını qitə üçün önəmli ticarət və logistika məkanına çevirir. Ölkəmiz Aİ-nin əksər üzv dövlətləri ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb. Bu münasibətlər suverenlik, ərazi bütövlüyü və beynəlxalq hüququn prinsiplərinə qarşılıqlı hörmət əsasında qurularaq, regionda sabitliyin qorunmasına xidmət edir.

Azərbaycan türk dünyasının birliyinin təmin edilməsində də mühüm rol oynayır. Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi regionda yeni güc mərkəzi yaradıb. Bu müttəfiqlik Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində digər üzv dövlətlər üçün də inteqrasiya nümunəsidir. Mərkəzi Asiya ölkələri, xüsusilə Özbəkistan və Qazaxıstanla münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəlməsi TDT-ni hərbi-siyasi və iqtisadi blok halına gətirir. Azərbaycanın Avrasiya məkanındakı çəkisi həm də nəqliyyat-logistika imkanları ilə ölçülür. Ukrayna müharibəsi fonunda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin riskli hala gəlməsi diqqəti Azərbaycan üzərindən keçən Orta dəhlizə (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) yönəldib.

Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunda Çin istiqaməti qlobal iqtisadiyyata inteqrasiya və çoxqütblü dünya nizamında balansın qorunması baxımından mühüm yer tutur. Azərbaycan Çinin irəli sürdüyü qlobal logistika təşəbbüsünə dəstək verən ilk ölkələrdən biridir. Çin Azərbaycanı bu layihənin tərkib hissəsi olan Orta dəhlizin mərkəzi halqası hesab edir. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Çin mallarının Avropaya ən qısa və təhlükəsiz daşınmasını təmin edən strateji qovşaqdır. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərin yüksəksəviyyəli siyasi etimada söykəndiyini göstərir. Pekin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini ardıcıl şəkildə dəstəkləyir, Bakı isə öz növbəsində vahid Çin siyasətinə sadiqliyini nümayiş etdirir. Azərbaycanın ŞƏT-lə dialoq tərəfdaşı statusu və bu qurumla genişlənən əlaqələri rəsmi Bakının Avrasiya təhlükəsizlik və iqtisadi sistemindəki mövqeyini möhkəmləndirir.

Azərbaycanın geniş coğrafi diplomatiya kursu Yaxın Şərqin nüfuzlu dövlətləri ilə münasibətlərdə də özünü büruzə verir. İsraillə siyasi-iqtisadi və hərbi əməkdaşlıqla paralel, nüfuzlu ərəb ölkələri, BƏƏ və Səudiyyə Ərəbistanı ilə qurulan strateji tərəfdaşlıq Azərbaycana yönəlik investisiyaların miqyasını bir qədər də genişləndirir. SOCAR-ın ADNOC ilə əməkdaşlığı və "Masdar"ın bərpaolunan enerji layihələri ölkəmizi ərəb kapitalı üçün ən cəlbedici region halına gətirib. Həmçinin D-8 və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində iqtisadi bağların şaxələndirilməsi prioritetləşdirilir.

Dövlətimizin diplomatik üfüqləri Afrika və Latın Amerikası ölkələrini də əhatə edir. Qoşulmama Hərəkatına sədrlik dövründə Afrika dövlətləri ilə qurulan institusional əlaqələr və "ASAN Xidmət" kimi milli brendlərin bu coğrafiyada tətbiqi Azərbaycanın qitədə mövqeyini və statusunu möhkəmləndirir. Latın Amerikası ölkələri ilə qurulan münasibətlər isə Azərbaycanın qlobal səviyyədə səs çoxluğu qazanması və milli maraqlarını müdafiə etməsi üçün mühüm diversifikasiya rolunu oynayır.

Azərbaycanın çoxvektorlu siyasəti, bugünkü gücü və beynəlxalq nüfuzu bir neçə fundamental təməl üzərində dayanır. Bu gün dövlətimizin qərarvermə mexanizmi hər hansı xarici təzyiqdən uzaqdır. Dayanıqlı iqtisadi model Azərbaycanın siyasi müstəqilliyini təmin edən əsas amildir. İqtisadi asılılığın olmaması Bakıya beynəlxalq arenada manevr imkanı və sərbəstlik verir. Müasirləşdirilmiş maddi-texniki baza və yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu milli təhlükəsizliyimizin qarantıdır. Bu güc istənilən xarici təhdid və ya təxribatın qarşısını almağa qadirdir.

Nəticə etibarilə Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində formalaşdırdığı çoxvektorlu model Azərbaycanın müstəqil qərarvermə iradəsini möhkəmləndirib. Məhz buna görə ölkəmiz qlobal proseslərin istiqamətlənməsində iştirak edən, sabitlik və təhlükəsizlik ixrac edən güclü siyasi tərəfə çevrilib. Bu strateji kurs Azərbaycanın gələcək onilliklər üçün iqtisadi dayanıqlığını, müstəqil xarici siyasətini və beynəlxalq nüfuzunu sığortalayır.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın Mərkəzi Asiya istiqamətində sülh və təhlükəsizlik modeli

2013-cü ildə "Stratfor" analitik mərkəzi Xəzər regionu geosiyasəti və bölgədə gələcək qüvvələr balansı ilə bağlı əhatəli analitik məruzə hazırlamışdı. Məruzədə Xəzəryanı ölkələrlə bağlı təhlili və proqnostik tezislər yer almışdır. Məruzədə vurğulanmışdı ki, ABŞ-nin Azərbaycana böyük ehtiyacı yaranmışdı. "Stratfor" hesab edirdi ki, Amerika qoşunlarını "Mərkəzi Asiyadan çıxarmaq üçün əsas məkan" kimi Azərbaycan ərazisindən istifadə edə bilər. Bunu analitik mərkəz Azərbaycan tarixində "görünməmiş bir vəziyyət" kimi qiymətləndirmişdi.

Bununla yanaşı, ABŞ üçün Azərbaycan regionda terrorla mübarizə və terrorçuların yerdəyişməsinin qarşısının alınması baxımından da mühüm əhəmiyyət kəsb edir. Buradan belə bir nəticə çıxır: "Azərbaycan Xəzər dənizində ABŞ-nin yaxın müttəfiqi kimi onun regiondakı maraqlarının qorunması üçün olduqca vacibdir".

Bunun fonunda analitik mərkəzin geosiyasi aspektdə iki qənaəti indi də aktualdır. Birincisi, "bölgədə sülh və sabitliyin təmin edilməsi və beynəlxalq terrorizmlə mübarizə üçün daha geniş ABŞ-Azərbaycan əməkdaşlığı"na ehtiyac vardır.

İkincisi, "Azərbaycan dəfələrlə Xəzər dənizinin silahsızlaşdırılmasını və onun sularından yalnız dinc məqsədlər üçün və ya heç olmasa hərbi tikinti ilə bağlı bəzi qaydalar çərçivəsində istifadə etməyi təklif etmişdi".

"Stratfor"un 13 il əvvəl Mərkəzi Asiya ölkələri ilə bağlı tezislərinə Azərbaycan haqqında deyilənlərin fonunda nəzər salaq. Analitik mərkəz yazırdı ki, Qazaxıstan dünyanın doqquzuncu ən böyük ölkəsidir. Lakin o, əhali sıxlığının ən aşağı olduğu ölkələr sırasına daxildir. Bununla yanaşı, onun Rusiya və Çinlə sərhədləri də nəzərə alınmalıdır. Bu əsasda belə qənaət əldə edilirdi ki, "Qazaxıstan gələcək neft və qaz boru kəmərlərinin inkişafı üçün əlverişli mövqedədir, lakin boru kəmərləri üçün üçüncü tərəflər çətinliklər və təhdidlər yaradır. Nəhəng "Tengiz" qaz yatağı və eyni dərəcədə əhəmiyyətli "Kaşağan" neft yatağı ilə Qazaxıstan neft və qaz bazarında əsas qlobal oyunçu olmağa hazırdır. Beləliklə, Qazaxıstan təkcə regional enerji təhlükəsizliyi üçün deyil, həm də sərhədlərindən kənarda sabitliyin təmin edilməsində mühüm rol oynayır".

Türkmənistanla bağlı tezislər Azərbaycan faktoru fonunda bu gün də maraq doğurur. "Stratfor" vurğulayırdı: "Sovet İttifaqının dağılmasından sonra Türkmənistan Mərkəzi Asiyanın ən böyük hava qüvvələrini miras aldı. Məlumata görə, Türkmənistan hərbi helikopterləri artıq mübahisəli ərazilərdə patrul xidməti göstərir, lakin Türkmənistanın dənizin milli sektoruna olan iddialarını silah gücü ilə dəstəkləmək üçün kifayət qədər güclü olması ehtimalı azdır (xüsusən də mübahisəli ərazilərlə bağlı İran-Azərbaycan münasibətlərində yaranmış durğunluq nəzərə alınmaqla). Keçmişdə, xüsusən də Azərbaycanla bağlı problemləri olsa da, Türkmənistanın bu məsələdə güc tətbiq etməsi ehtimalı azdır".

Mərkəzi Asiyanın digər ölkələrinin geosiyasi əhəmiyyəti haqqında da analitik mərkəz konkret tezislər irəli sürmüş və onları qiymətləndirmişdir. Lakin məsələyə kompleks şəkildə, Azərbaycan-Mərkəzi Asiya ölkələri prizmasından yanaşdıqda görürük ki, əsas rol (Qərb tərəfindən) Bakıya verilir. Yəni artıq onilliklərdir ki, Amerika başda olmaqla kollektiv Qərb xeyli dərəcədə Mərkəzi Asiyanın geosiyasi gələcəyinə "Azərbaycandan baxır". Bu isə məntiqi olaraq Bakının həmin region istiqamətindəki siyasətini regionlararası miqyası aşaraq qlobal səviyyədə qiymətləndirməsini zəruri edir.

Bundan başqa, Azərbaycan Prezidentinin xarici siyasət kursu mükəmməl sistem xarakterlidir. Onun istiqamətləri arasında yüksək məntiqi, məzmun və məqsəd bağlılığı mövcuddur. Həmin aspektdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Böhran içində çoxtərəflilik: Qlobal əməkdaşlığa yenidən baxış" mövzusunda panel iclasında səsləndirdiyi "Azərbaycan sülh və təhlükəsizlik sahəsində özünəməxsus model ortaya qoymuşdur" fikri təsadüfi deyildir. Bu, Azərbaycanın dövlət başçısının ardıcıl və davamlı xarici siyasətinin mahiyyətindən irəli gələn nəticələrdən biridir.

Son illərdə aparılan müxtəlif tədqiqatlar da bu tezisi təsdiqləyir. Politoloji təhlillər əsasında əldə olunan nəticələr bu qənaətlərə gəlməyə əsas verir.

### Qafqaz və Mərkəzi Asiyanın siyasi coğrafiyasında rəqabət

Son araşdırmalarda Qafqazla Mərkəzi Asiyanın geosiyasi baxımdan bir-biri ilə sıx bağlı şəkildə təhlil edilməsi təsadüfi deyildir. Çünki reallıq belə bir vəhdətin olduğunu tam aydınlığı ilə ortaya qoyur. Buna görə də tədqiqatçılar məsələyə məhz bu kontekstdə yanaşmağa üstünlük verirlər. Bizim üçün əhəmiyyətli məqam ondan ibarətdir ki, daha geniş geosiyasi çərçivədə Azərbaycanın rolu aparıcı faktor kimi qiymətləndirilir. Bu tezis fonunda bir tədqiqatı nəzərdən keçirək.

A.P.Nodehi və digər iranlı tədqiqatçılar 2019-cu ildə yazırdılar: "Soyuq müharibə"dən sonrakı dövrdə siyasi rəqabət sahələri dəyişdi. Xəzər dənizinin, Qafqazın və Mərkəzi Asiyanın siyasi coğrafiyasının dəyişməsi, Sovet İttifaqının dağılması və yeni ölkələrin meydana çıxması ilə güc balansında dəyişiklik uğrunda rəqabət sahəsi sadəcə genişlənmədi - proses həm də "yeni bir forma aldı". O cümlədən iqtisadi layihələr, karbohidrat yanacaqlarının şaxələndirilməsi kimi proseslər "yeni və böyük bazarlar formalaşdırdı". Bununla geosiyasi aspektdə "transregional ölkələr dünyanın bu hissəsindən xəbərdar oldular".

Bununla Xəzəryanı regionda güc balansını qoruyub saxlamağa çalışan siyasi qüvvələrin rəqabəti fonunda yaranmış "geosiyasi boşluğun doldurulması uğrunda mübarizə"nin tədqiqi daha da aktuallaşdı. Əsas suallardan biri belədir: "Xəzər və Avrasiya bölgələri bu gün dünyanın geosiyasi balansında hansı rolu oynayır?"

Bu suala cavab axtarışları kontekstində müəlliflər belə qənaətə gəlirlər: "Qloballaşmanın genişlənməsi, sərbəst bazar və informasiyanın partlaması bu bölgənin qütbləşməsini göstərir. Bu ərazidə mühüm transregional və regional oyunçuların mövcudluğu nəzərə alınmaqla mühüm fərziyyə budur ki, region gələcəkdə çoxqütblü dünyanın geosiyasi kəsişməsi olacaq". Bundan başqa, iranlı araşdırmaçılar da Azərbaycanla Mərkəzi Asiya ölkələrini bir-biri ilə bağlı geosiyasi faktorlar kimi qiymətləndirirlər. Ancaq onlar İran mərkəzli mövqedə olduqlarından lazımi səviyyədə obyektiv ola bilmirlər. Buna baxmayaraq, onların yanaşmalarında demək olar ki, "Stratfor"un qiymətləndirməsi ilə üst-üstə düşən iki mühüm məqam diqqəti cəlb edir. Birincisi, Qərbin "Yaxın Şərqin inkişaf etməsi üçün Azərbaycana ehtiyacı vardır". Bu, iqtisadiyyatla yanaşı, həm də "təhlükəsizlik üçün bir ehtiyacdır". İkincisi, geniş kontekstdə "çoxqütblü dünyanın geosiyasi sistemi hazırda Xəzər, Qafqaz və Mərkəzi Asiya bölgələrində yaranır".

Bu isə onun etirafıdır ki, bütövlükdə dünya geosiyasətinin yenidən formalaşması prosesində Azərbaycanın yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Həmin rola kompleks şəkildə - Xəzər, Qafqaz və Mərkəzi Asiya kontekstində baxmaq gərəkdir. 2025-ci ilin 8 avqust Vaşinqton razılaşması və 2026-cı ildə İran-ABŞ-İsrail savaşı göstərdi ki, vurğulanan qənaətlər əsaslıdır. Bu prizmadan çıxış edərək Azərbaycanın Mərkəzi Asiya siyasətinin bir sıra xüsusiyyətlərini nəzərdən keçirməyə çalışaq.

### C6: Azərbaycan oyun qaydasını dəyişdi

Azərbaycan Prezidenti İlham Əliyevin davamlı olaraq həyata keçirdiyi Mərkəzi Asiya siyasəti öz bəhrəsini verməkdədir. Burada Azərbaycanın təşəbbüsü ilə reallaşan nəqliyyat-logistika layihələrinin yeri və rolunu xüsusi vurğulamaq lazımdır. Eyni zamanda təhlükəsizlik və daha geniş aspektdə əməkdaşlıq xüsusi qeyd edilməlidir.

Onu da xüsusi vurğulayaq ki, rəsmi Bakının Mərkəzi Asiya siyasəti əsas məqamlarda Avropa İttifaqının (Aİ) həmin regiona dair siyasəti ilə kəsişir. Buraya təhlükəsizlik və nəqliyyat-logistika sferaları ilə yanaşı, regional əməkdaşlığın inkişafı da daxildir.

Yuxarıda qeyd etdiyimiz məqamları da nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, Azərbaycanın Mərkəzi Asiya istiqamətindəki siyasəti ABŞ və Aİ-nin siyasəti ilə ziddiyyət təşkil etmir. Əksinə, Bakının atdığı addımlar Mərkəzi Asiyanın dünya siyasi-iqtisadi, geosiyasi, enerji və nəqliyyat-logistika sferalarına inteqrasiyası üçün çox faydalı olmuşdur. Buna görədir ki, Azərbaycanın 2025-ci il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya dövlət başçılarının Mərkəzi Asiya-Azərbaycan formatında 7-ci məşvərət görüşünün iclasında həmin təşkilata üzv qəbul edilməsi böyük ümidlə qarşılanmışdır.

Bu hadisədən cəmi iki gün sonra Bakıda keçirilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumunda Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin baş direktoru Con Herbst bəyan etmişdir: "ABŞ Mərkəzi Asiyanı prioritet bölgə hesab edir. Təsadüfi deyil ki, Vaşinqtonda keçirilən C5+1 sammitindən sonra Bakıda toplaşmışıq. Tezliklə bu platforma Azərbaycanın qoşulması ilə C6+1 olacaq. Bu baxımdan əlaqələrimizin əhəmiyyəti daha da artır". Lakin artıq Azərbaycan Mərkəzi Asiya dövlət başçılarının məşvərət görüşünün tamhüquqlu üzvü idi və görünür, C.Herbst format olaraq C5+1-dən C6+1-ə keçidin real olmasını vurğulamaq istəmişdir. Burada əsas məsələ ondan ibarətdir ki, Azərbaycan Prezidenti regional və qlobal miqyaslarda həyata keçirilən inteqrasiya proseslərinin çox fəal təşkilatçılarından və aparıcılarından biridir.

2026-cı ilin fevralında Bakıda "C6: Vahid region, ortaq gələcək - strateji dialoqun gücləndirilməsi" mövzusuna həsr edilən Azərbaycan-C6 (Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri) ölkələrinin beyin mərkəzlərinin beynəlxalq konfransı təşkil edildi. Tədbirdə daha geniş kontekstdə müzakirələr aparılmışdır. O cümlədən vurğulanmışdır ki, Azərbaycan üçün Mərkəzi Asiya yalnız qonşu deyildir, həm də təbii tərəfdaşdır. Çünki bu ölkələr ortaq tarixə, etnik eyniliyə və zəngin mədəni irsə malikdirlər. Bunlar çox əhəmiyyətli təməl şərtlərdir. Müasir mərhələdə həmin faktorlara geosiyasi və geoiqtisadi faktorlar da əlavə olunmuşdur. "Bu, xüsusilə enerji, nəqliyyat, logistika və infrastruktur sahələrində əməkdaşlıqda özünü göstərir".

Azərbaycanın Mərkəzi Asiya siyasətinə geniş kontekstdə yanaşılması təbiidir. Bu, Bakının xarici siyasətinin bütövlükdə mahiyyəti ilə bağlıdır. Buna görədir ki, mütəxəssislər problemi ABŞ, Avropa, Rusiya, Çin, Türk Dövlətləri Təşkilatı (TDT), İran kontekstlərinin qarşılıqlı əlaqəsi çərçivəsində təhlil edirlər.

### Mərkəzi Asiya siyasəti: Orta dəhliz boyunca

İranla bağlı hərbi proseslər fonunda artıq ayrıca regional təhlükəsizlikdən danışmaq çox nisbidir. Xüsusilə Cənubi Qafqazın təhlükəsizlik məsələsi Yaxın Şərq və Mərkəzi Asiya regionlarındakı geosiyasi-hərbi durumla sıx bağlıdır. Bu aspektdə Azərbaycanın Mərkəzi Asiya siyasəti regionlararası təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edir.

Söhbət təhlükəsizlik və əməkdaşlıqdan gedirsə, təbii ki, rəsmi Bakının regionlararası əlaqələri müsbət mənada birləşdirməyə istiqamətlənmiş addımları ön sıraya çıxarılmalıdır. Orta dəhliz məsələsi bu baxımdan prinsipial rol oynaya bilər. Bu kontekstdə Azərbaycan Prezidentinin 2022-ci ilin noyabrında Bakıda keçirilən "Orta dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda ifadə etdiyi aşağıdakı fikirlər məsələni dolğun izah edir. Dövlət başçısı demişdir: "...Mən bu konfransın necə adlandırıldığını gördükdə, - "geosiyasət, təhlükəsizlik və iqtisadiyyat", - bildim ki, bu nöqteyi-nəzərdən mövzunun əhatəliliyi daha geniş olacaq və bu da təbiidir. Çünki Orta dəhliz kimi irimiqyaslı layihəni icra etmək üçün təhlükəsizlik və iqtisadi bacarıq məsələləri, əlbəttə ki, müzakirə olunmalıdır. Əlbəttə, təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq".

Tədbirdə Pakistanın Ortaq Gələcəyə Malik Cəmiyyət Naminə Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəmin "Sizcə, gələcəkdə Cənubi Asiyanı, Mərkəzi Asiyanı Azərbaycanla birləşdirmək ideyası həyata keçəcəkmi?" sualına verilən cavab Azərbaycanın Mərkəzi Asiya istiqamətində həyata keçirdiyi xarici siyasətdəki bir çox məqama aydınlıq gətirir.

Cavabda həm də məsələnin strateji tərəfi olduqca dəqiq ifadə olunmuşdur və bu günün reallıqları onu tam təsdiq etməkdədir. Pakistan təmsilçisinin Azərbaycanın dövlət başçısının həmin istiqamətdə fəaliyyətini xüsusi vurğulaması da diqqətdən qaçmamalıdır.

Prezident İlham Əliyev suala cavabında demişdir: "Mənim region liderləri ilə təmaslarıma gəlincə, bəli, bu təmaslar çox böyük dinamizm səviyyəsinə malikdir. Xüsusilə indi - postpandemiya dövründə beynəlxalq səfərlər yenidən bizim həyatımızın bir hissəsinə çevrildən sonra mən Mərkəzi Asiya ölkələrində çox vaxt keçirdim. Bu ilin aprelindən bu yana mən üç dəfə Özbəkistanda səfərdə oldum, rəsmi səfər və beynəlxalq tədbirlərlə əlaqədar. Mən Qırğızıstanda dövlət səfərində oldum. Bu ilin avqustunda Qazaxıstan Prezidenti Azərbaycanda rəsmi səfərdə olub və həmçinin bundan əvvəl mən Türkmənistanda səfərdə oldum. Gələn il Tacikistana səfər etməyi planlaşdırıram. Prezidentdən dəvət almışam. Bundan əlavə, beynəlxalq tədbirlər çərçivəsində biz həmişə vaxtdan istifadə edib söhbət edirik. Çünki çox hadisələr baş verir və biz buna hazır olmalıyıq".

Ölkə rəhbəri İlham Əliyev TDT-nin sammitində təhlükəsizlik məsələsinə indi onun daha vacib olması səbəbindən toxunduğunu vurğulamışdır. O cümlədən xüsusi qeyd etmişdir: "Bu məsələyə "çoxtərəfli müstəvidə" yanaşılmalıdır. Çünki dünya dəyişib, beynəlxalq hüquq işləmir və ya selektiv qaydada işləyir. Ona görə də əgər gücünüz, güclü ordunuz varsa, yaxşı müttəfiqləriniz varsa, o zaman özünüzü təhlükəsizlikdə hiss edə bilərsiniz. Bu səbəbdən düşünürəm ki, bizim həyata keçirdiyimiz kommunikasiya layihələri regional təhlükəsizliyi və sabitliyi daha da gücləndirəcək və bunları həyata keçirmək üçün böyük imkan var".

Nəhayət, bütün bu faktların fonunda Azərbaycan Prezidenti çox aktual ümumiləşdirmə aparmışdır. Dövlət başçısı ifadə demişdir: "Bir daha bizə gəlincə Azərbaycanda bütün nəqliyyat layihələri - istər "Şərq-Qərb", istər "Şimal-Cənub" dəhlizləri, dəmir yolu və ya magistral yol, hava limanları, donanma, yaxud dəniz limanı - hər şey hazırdır. Eyni hazırlıq səviyyəsi dəhliz marşrutu boyunca yerləşən bütün ölkələrdə olmalıdır. Bu belədirmi? Xeyr. Lakin biz müsbət dinamika görürük. Məsələn, təxminən bu yaxınlarda iştirak etdiyim beynəlxalq tədbirlərdən birində Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun tikintisi ilə bağlı razılıq imzalandı".

Beləliklə, Azərbaycanın Mərkəzi Asiya siyasətinin çoxaspektli və birləşdirici xarakter daşıdığı şübhə doğurmur. Rəsmi Bakı məsələyə geniş geosiyasi məkanda dövlətlərarası münasibətlərdə inteqrasiya meyillərinin güclənməsi müstəvisindən yanaşır. Bunun üçün konkret layihələrdən səmərəli şəkildə istifadə edir. Bu baxımdan Orta dəhliz məsələsi strateji əhəmiyyət kəsb edir.

Hazırda İran ətrafında baş verən geosiyasi-hərbi proseslər göstərir ki, Azərbaycan Prezidenti məsələləri olduqca uzaqgörən və faydaverici kontekstdə təhlil edir və praktiki nəticələrə yönəlmiş addımlar atır. Həmin kontekstdə o da aydın olur ki, Azərbaycanın Mərkəzi Asiya siyasəti regionlararası aspektdə Yaxın Şərq məsələsi ilə də sıx bağlıdır. Bunun bir tərəfi "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin qarşılıqlı əlaqəsində ifadə olunursa, digər tərəfi təhlükəsizliyin infrastruktur diplomatiyası kontekstində təmin edilməsi ilə bağlıdır.

Beləliklə, Azərbaycanın dövlət başçısı Çin-Mərkəzi Asiya-Cənubi Qafqaz-Türkiyə-İran-Yaxın Şərq miqyasında əməkdaşlıqla təhlükəsizliyin təmini məsələlərini vahid məntiqi müstəviyə gətirmişdir. Bu tezisin daha aydın olması üçün rəsmi Bakının Mərkəzi Asiya siyasəti işığında bu gün aktual olan digər bir xüsusiyyətə diqqət yetirmək vacibdir. Bu, Azərbaycanın geniş bir geosiyasi məkanda sistemyaradıcı rolu ilə bağlıdır.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Öz gücünə arxalanan dövlət: Azərbaycanın uğur hekayəsi

35 ilə yaxındır ki, Azərbaycan dövləti inamla gələcəyə doğru irəliləyir. Əfsuslar olsun ki, müstəqilliyin ilkin mərhələsində (1991-1993-cü illər) Azərbaycan obyektiv və subyektiv amillərin vəhdəti ilə şərtlənən fundamental problemlərlə üzləşdi. Onların arasında Ermənistan-Azərbaycan münaqişəsi ən ağır bir çağırış idi. 1980-ci illərin sonlarında Ermənistanın tarixi Azərbaycan torpaqlarına irredentist ərazi iddiaları ilə başlamış bu münaqişə 1992-1994-cü illərdə Birinci Qarabağ müharibəsi ilə yekunlaşdı. Ermənistan tərəfindən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal olundu, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, 20 mindən çox azərbaycanlı isə hərbi əməliyyatlar zamanı həlak oldu.



Bu münaqişənin faciəvi nəticələri daxili siyasi gündəliyə də ciddi təsir göstərməklə müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda mübarizənin genişlənməsinə səbəb oldu. Eyni zamanda keçmiş ittifaq respublikaları arasında iqtisadi əlaqələrin qırılması nəticəsində iqtisadi fəallığın azalması və qiymətlərin kəskin artması, eləcə də inflyasiya sürətinin yüksək olması ölkədə dərin istehsal böhranına gətirib çıxartdı. Bütün bu çağırışlar Azərbaycanın dövlətçiliyi üçün ciddi risklər yaradır və sonrakı siyasətin əsas istiqamətlərini - suverenliyin möhkəmləndirilməsini, siyasi və iqtisadi sabitliyin təmin edilməsini, ölkənin beynəlxalq arenada subyektliyinin formalaşdırılmasını hökumət qarşısında vacib bir vəzifə kimi qoyurdu. Lakin həmin dövrdə mövcud olan dövlət idarəetmə institutları yetkin deyildi və genişmiqyaslı sistemli çağırışlara adekvat cavab verəcək effektiv strategiyaya da malik deyildi. Yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi və tədricən hakimiyyətin konsolidasiyası və uzunmüddətli strategiyanın formalaşdırılması prosesi başlandı. Bununla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ümummilli gündəliyin əsas prioritetinə çevrildi və bu baxımdan dövlətin bütün səyləri ictimai rəyin konsolidasiyasına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldi.

1994-cü ilin may ayında münaqişə tərəfləri arasında atəşkəs rejimi əldə olundu. Həmin ilin sentyabr ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə aparıcı beynəlxalq enerji şirkətlərindən ibarət konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorunda iri neft yataqlarının birgə işlənməsi barədə "Əsrin müqaviləsi" adlı saziş imzalandı. Bir il sonra, 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə siyasi sistemin hüquqi əsasları yaradıldı. Eyni zamanda ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və müasir ordunun qurulması istiqamətində ardıcıl fəaliyyət həyata keçirilməyə başladı.

Heydər Əliyevin 1993-2003-cü illərdəki prezidentliyi dövrü daxili siyasi sabitliyin bərqərar olunması, effektiv icra hakimiyyəti sisteminin formalaşması və ölkənin beynəlxalq ictimaiyyətlə fəal inteqrasiyası ilə səciyyələnir. Eyni zamanda neft və qaz ixracından əldə olunan gəlirlərin rasional istifadəsi sayəsində ölkədə sosial-iqtisadi inkişaf tədricən sürətlənərək, əhalinin rifah səviyyəsinin getdikcə yüksəlməsinə səbəb oldu.

Xarici siyasətdə Azərbaycan sərt blok asılılığından imtina edərək, Rusiya, Türkiyə və Qərb tərəfdaşları ilə münasibətləri maraqlar balansı əsasında qurdu, ikitərəfli, regionda isə üçtərəfli əməkdaşlıq formatlarına üstünlük verdi. Bu strategiya birtərəfli asılılıqdan yayınmağa və manevr imkanlarını genişləndirməyə gətirib çıxartdı.

2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi siyasi kursun varisliyini təmin etməklə yanaşı, sürətli iqtisadi inkişaf mərhələsinin başlanğıcını qoydu. 2000-ci illərin ortalarında Azərbaycan dünyada ən yüksək ÜDM artım tempini nümayiş etdirən ölkələrdən biri oldu. Buna yüksək neft qiymətləri və Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi iri infrastruktur layihələrinin həyata keçirilməsi təkan verdi. Bu isə öz növbəsində ölkənin Xəzər hövzəsi ilə Türkiyə və Avropa bazarları arasında enerji qovşağı rolunu möhkəmləndirdi. Eyni zamanda karbohidrogen ixracından əldə olunan gəlirlərin əhəmiyyətli hissəsi Dövlət Neft Fondunda toplanaraq həm gələcək nəsillər üçün ehtiyatların qorunmasına, həm də xaricdə investisiya fəaliyyətinin həyata keçirilməsinə yönəldildi.

2010-cu illərin əvvəllərində dünya bazarlarında neft qiymətlərinin düşməsi və qlobal iqtisadiyyatda böhran meyilləri "postneft dövrü" konsepsiyasına keçidi zəruri etdi və Azərbaycan bu mərhələyə nəzərdə tutulduğundan daha erkən daxil oldu. 2015-ci ildən sonra iqtisadiyyatın şaxələndirilməsi, bərpaolunan enerji mənbələrinin perspektivli istifadəsi, nəqliyyat-logistika infrastrukturunun inkişafı və Azərbaycanın Avropa ilə Asiya arasında tranzit qovşağı kimi sərgilənməsi ölkənin yeni inkişaf prioritet istiqamətləri kimi gündəmə gəldi.

2020-ci ilin İkinci Qarabağ müharibəsi Azərbaycanın tarixində dönüş nöqtəsi olmaqla Cənubi Qafqaz bölgəsinin geosiyasi konfiqurasiyasını ciddi şəkildə dəyişdi. Münaqişənin əvvəlki mərhələlərindən fərqli olaraq, 2020-ci ilin İkinci Qarabağ müharibəsi, eləcə də 2023-cü ilin sentyabrında keçirilmiş birgünlük antiterror əməliyyatının nəticələri 1994-cü ildən sonra formalaşmış status-kvonu tamamilə aradan qaldırdı və həm Azərbaycan, həm də regionun digər dövlətləri üçün yeni reallıq yaratdı.

Siyasi-hüquqi baxımdan Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərqərar etməsi beynəlxalq arenada ölkənin mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi. Eyni zamanda əldə olunan nəticə beynəlxalq hüququn prinsiplərinə tam uyğun olaraq, dövlətin ərazi bütövlüyü uğrunda mübarizəsinin məntiqi yekunu kimi dünyanın aparıcı dövlətləri tərəfindən qəbul edildi.

Regional səviyyədə 44 günlük müharibənin nəticələri tamamilə yeni təhlükəsizlik konfiqurasiyasının formalaşması üçün zəmin yaratdı. Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesində əldə olunan irəliləyişlər eləcə də birbaşa ikitərəfli danışıqlar, qarşıdurma məntiqindən regionda nəqliyyat, iqtisadi və humanitar əlaqələrin müzakirəsinə keçidi mümkün etdi. Paralel olaraq, Cənubi Qafqazda xarici güclərin rolu və real imkanları yenidən qiymətləndirilməyə başlandı və gələcəkdə sabit təhlükəsizlik arxitekturasının əsasən xarici aktorların dominantlığına deyil, daha çox yerli təşəbbüslərə əsaslanacağı ehtimalını gündəmə gətirdi.

Daxili siyasət baxımından 2020-ci ilin İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi cəmiyyətin konsolidasiyasını gücləndirdi və hakimiyyətin legitimliyini möhkəmləndirdi. Azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üzrə dövlət proqramlarının sürətlə həyata keçirilməsi isə milli gündəliyin quruculuq və sülhyönümlü inkişaf mərhələsinə keçdiyini nümayiş etdirir.

Müharibənin hərbi-siyasi aspekti bir daha təsdiqlədi ki, Azərbaycanın qələbəsi yalnız yüksəkdəqiqlikli silahların və pilotsuz sistemlərin geniş tətbiqinin nəticəsi deyil, həm də strateji-operativ planlaşdırmanın, ordunun uzunmüddətli modernləşdirilməsinin və bu sahədə məqsədyönlü beynəlxalq əməkdaşlığın məntiqi nəticəsidir.

Beləliklə, Azərbaycan ötən illər ərzində ərazi bütövlüyünü və suverenliyini yalnız müdafiə qabiliyyətinin mərhələli şəkildə gücləndirilməsi, neft-qaz gəlirlərinin səmərəli istifadəsi və balanslaşdırılmış xarici siyasət sayəsində deyil, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində ictimai rəyin konsolidasiyası hesabına bərpa etmişdir. 44 günlük müharibədə əldə olunan qələbə təkcə Azərbaycanın müasir tarixində mühüm mərhələ deyil, həm də postsovet inkişaf dövrünün yekununu simvolizə edən hadisə kimi qiymətləndirilməlidir.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan Cənubi Qafqazda yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasını formalaşdıran fəal aktor kimi çıxış edir və burada əsas vurğu qarşıdurma məntiqindən iqtisadi bağlılığa və transmilli layihələrin həyata keçirilməsinə yönəlir.

Bu xarici siyasət fəallığı ölkənin inkişaf strategiyasının yenilənməsi prosesi ilə ayrılmaz şəkildə bağlıdır. Bu strategiyaya uyğun olaraq, müasir Azərbaycan öz tarixinin keyfiyyətcə yeni mərhələsinə - azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və "postneft" modeli çərçivəsində iqtisadiyyatın dərin şaxələndirilməsi dövrünə qədəm qoyur.

Nəticədə daxili uğurlar və əsas qonşularla qurulmuş münasibətlər sistemi Bakıya özünü müstəqil güc mərkəzi kimi inamla mövqeləndirməyə, qlobal çağırışlara cavab verməklə yanaşı, bütövlükdə region üçün inkişaf gündəliyi təklif etməyə imkan verir.

***Gülşən PAŞAYEVA,***
***Milli Məclisin deputatı,***
***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü***

# Proqnozlara baxmayaraq...

## Sülhməramlılar Azərbaycan ərazilərini nəzərdə tutulan vaxtdan da tez tərk etdilər

Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanan və İrəvanın kapitulyasıyasını göstərən 2020-ci il 10 noyabr tarixli Bəyanata əsasən, Qarabağ iqtisadi rayonu və xüsusən ozamankı Laçın dəhlizi boyu Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilmişdi. Bəyanatın IV maddəsinə əsasən, Rusiya sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirməyi öhdəsinə götürmüşdü. Həmçinin razılaşmaya əsasən müəyyən edilmişdi ki, sülhməramlı kontingentin Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazilərində qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış bu şərtin tətbiqinə xitam verilməsi niyyətinin tərəflərdən hər hansı biri tərəfindən bəyan olunmaması halında sülhməramlıların bölgədə qalma müddəti daha 5 il uzadılacaq.



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, bəyanatda münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz formalaşdırılması razılaşdırılmışdı: "Rusiya sülhməramlılarının Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərində yerləşdirilməsi müxtəlif aspektlərdən və dünyanın müxtəlif beyin mərkəzləri tərəfindən birmənalı qarşılanmamış, bölgəyə yerləşdirilmiş rus ordu hissələrinin bu ərazidən çıxarılmasının mümkün olmayacağını tarixin müxtəlif coğrafiyalarda yaşanan təcrübəsinə əsasən proqnozlaşdırılırdı. Eyni zamanda fəaliyyəti dövründə Rusiya sülhməramlılarının istər 10 noyabr Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, istərsə də separatçılarla Azərbaycanın suverenliyi əleyhinə birgəfəaliyyət ruhu nümayiş etdirməsi ciddi narahatlıqlar doğururdu. Azərbaycan tərəfinin müxtəlif kanallarla, eyni zamanda ictimai şəkildə xəbərdarlıqlarına baxmayaraq, Rusiya sülhməramlılarının separatçıların sürətlə silahlanması, o cümlədən ərazilərin minalanma fəaliyyətini dayandırmaması kimi beynəlxalq hüquqazidd fəaliyyətlər fonunda nəinki hərəkətsizlik nümayişi, üstəlik, bir sıra hallarda bu hüquqa və qanunazidd əməllərin iştirakçısı və hərəkətverici qüvvəsinə çevrilməsi vəziyyəti sözün əsl mənasında daha da mürəkkəbləşdirir, radikal, lakin hesablanmış addımların atılmasını zərurətə çevirirdi".

Deputat deyib ki, proseslərin gedişində Azərbaycanın Fərrux əməliyyatı başda olmaqla bir sıra miqyasca lokal, əhəmiyyətcə isə kifayət qədər böyük olan hərbi əməliyyatları həyata keçirməsi, ələlxüsus antiterror tədbirləri vasitəsilə regionda separatizmə son qoyaraq ərazilərində tam şəkildə suverenliyin bərpa olunması ilə ölkənin üzərində ən böyük təsir rıçağının aradan qaldırılması geosiyasi şəraiti köklü şəkildə dəyişib. Üstəlik, Prezident İlham Əliyevin Rusiya ilə koordinasiyalı fəaliyyətə nail olması, hər hansı hərbi qarşıdurma və siyasi gərginlik müşahidə edilmədən sülhməramlıların Qarabağdan vaxtından əvvəl çıxarılması barədə razılığın əldə olunması çoxsaylı beyin mərkəzlərinin proqnozlarını alt-üst etdi. "Beləliklə, 2024-cü il mayın 15-də Xocalı aeroportu ərazisində Azərbaycan və Rusiya rəsmilərinin iştirakı ilə Rusiya sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasimlə Rusiyanın ordu hissələri Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərdən çıxarılmış oldu. Sülhməramlıların Azərbaycanın Qarabağ iqtisadi rayonundan çıxarılması və bu prosesin hər hansı gərginlik fonunda baş verməməsi müasir Azərbaycan diplomatiyasının ən böyük uğurlarından biri, o cümlədən qlobal siyasətdə maraqların indiki mürəkkəb geosiyasi şəraitdə mümkünlüyünün ən uğurlu nümunəsidir. Azərbaycanın antiterror tədbirləri ilə özünün beynəlxalq hüquqla tanınan ərazilərində yurisdiksiyasını tam şəkildə bərpa etməsinin ardınca Rusiya sülhməramlılarının vaxtından öncə bölgədən çıxarılması bərqərar olunan suverenliyinin təməllərinin möhkəmləndirilməsinin əsasında dayanan ən vacib elementlərdən biri sayıla bilər", - deyə o əlavə edib.

B.Məhərrəmov vurğulayıb ki, Azərbaycan tərəfinin proseslərə çevik reaksiyası, bu prosesdə Prezident İlham Əliyevin nümayiş etdirdiyi qətiyyət sayəsində ölkəmizin belə bir mürəkkəb prosesi reallaşdırmağı bacarması bütövlükdə Cənubi Qafqazda yeni bir dövrün başlanmasına, 8 avqustda Vaşinqtonda imzalanan razılaşmaların, həmçinin sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair Sazişin paraflanmasının meydana çıxardığı şəraitdə ehtiva olunan de-fakto sülh dövrünün realizəsinə gətirib çıxardı. Beləliklə, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərin regionda onilliklər boyu mövcud olan status-kvonu darmadağın edərək, tamamilə yeni geosiyasi reallıqlar yaratması və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağ iqtisadi rayonuna müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin missiyasının bir çox beynəlxalq dairənin skeptik proqnozlarına rəğmən, 2024-cü ilin mayında ölkəmizi vaxtından əvvəl tərk etməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji səbir və qətiyyətli diplomatiya xəttinin ən böyük nailiyyətlərindən biri kimi tarixə düşdü.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Böyük qayıdış layihələri beynəlxalq ictimaiyyətə təqdim edilə biləcək ən uğurlu nümunələrdəndir

ADA universitetinin dosenti, şəhərsalma və dövlət idarəçiliyi üzrə fəlsəfə doktoru Anar Vəliyev Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) müzakirə ediləcək mövzuların əhəmiyyəti, paytaxtın WUF13 vasitəsilə iqlimədavamlı şəhərsalmaya verə biləcəyi töhfələrlə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.

Müsahibəni təqdim edirik:

*- Azərbaycan WUF13 çərçivəsində hansı prioritet layihələri beynəlxalq ictimaiyyətə təqdim etməlidir?*

- Hesab edirəm ki, Böyük qayıdış çərçivəsində həyata keçirilən yenidənqurma layihələri beynəlxalq ictimaiyyətə təqdim edilə biləcək ən uğurlu nümunələrdən biridir. Dünyada çox az ölkə, bəlkə də heç biri məcburi köçkünlərin öz doğma torpaqlarına bu miqyasda geri dönüşünü təmin edən belə genişmiqyaslı proqram həyata keçirməyib. Bu proqramın həm uğurları, həm də qarşılaşdığı çətinliklər digər ölkələr üçün faydalı bir model rolunu oynaya bilər. Bundan əlavə, İçərişəhərin turizm məkanı kimi inkişafı da uğurlu nümunə kimi təqdim edilə bilər. Eyni zamanda şəhər əhalisinin içməli su, elektrik enerjisi və digər əsas infrastruktur xidmətlərinə çıxışının təmin olunması mühüm nailiyyətlərdəndir. Azərbaycanda aşağı keyfiyyətli infrastruktura malik genişmiqyaslı gecəqonduların və ya gettoların olmaması isə sosial siyasətin effektivliyinin göstəricisidir.

*- WUF13-də müzakirə ediləcək "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" mövzusunun aktuallığını necə qiymətləndirirsiniz?*

- Forumda belə bir mövzunun müzakirəyə çıxarılması təqdirəlayiqdir. Bu məsələ bu gün qlobal miqyasda ən vacib problemlərdən biridir. Əlçatan və dayanıqlı mənzil təminatı məsələsi təkcə dünya üzrə deyil, Azərbaycan üçün də aktual olaraq qalır. Hesab edirəm ki, WUF13 bu sahədə müzakirələrin və siyasi təşəbbüslərin daha da inkişafına ciddi təkan verəcək.

*- Şəhərsalma proseslərində vətəndaş iştirakçılığı və şəffaflığın artırılması üçün hansı islahatlar vacibdir?*

- Ümid edirəm ki, WUF13 qərar qəbuletmə proseslərinin desentralizasiyasının vacibliyini ön plana çıxaracaq. Bələdiyyələrin gücləndirilməsi, fiskal desentralizasiya və yerli icmaların qərar qəbuletmə prosesində daha fəal iştirakının təmin edilməsi cəmiyyət üçün olduqca faydalı ola bilər. Bununla yanaşı, bu sahədə hüquqi islahatların həyata keçirilməsi və daha şəffaf, inklüziv idarəetmə mexanizmlərinin formalaşdırılması da vacib hesab edilir.

*- Bakı WUF13 vasitəsilə iqlimədavamlı şəhərsalmaya necə töhfə verə bilər?*

- Forumun postsovet məkanında yerləşən bir ölkədə keçirilməsi region üçün mühüm fürsətdir. Bu, region ölkələrinə öz inkişaf modellərini təqdim etməyə imkan verəcək. Eyni zamanda bu tədbir region ölkələrinin qlobal urbanizasiya və iqlim dəyişiklikləri trendlərini daha yaxşı anlamasına və bu bilikləri yerli problemlərin həllinə tətbiq etməsinə şərait yaradacaq.

# Türk dövlətləri ÜDM artımı və ticarət dövriyyəsi baxımından qlobal artımı üstələyib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi "Türk iqtisadi icmalı"nın 2025-ci ilin yekunlarına dair buraxılışı nəşr edilib.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, İİTKM-in Türk Dünyası Araşdırmalar Mərkəzinin ilkin statistika əsasında hazırladığı icmalda 2025-ci il üzrə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, həmçinin müşahidəçi üzvlər olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının (ŞKTR) iqtisadi göstəricilərinin təhlili təqdim edilir. İcmal son iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq, TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsirini qiymətləndirir.

2025-ci ildə türk dövlətləri 2,11 trilyon dollar ÜDM ilə qlobal iqtisadiyyatda 2 faizlik paya sahib olub, əhalisi isə 178,8 milyon nəfər ilə qlobal əhalinin 2,8 faizini təşkil edib. Bu göstəricilər türk dövlətlərinin həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğuna dəlalət edir.

Hesabat dövründə ilkin göstəricilərə əsasən, 3,2 faizlik qlobal artım tempi ilə müqayisədə türk dövlətləri 5,2 faiz ÜDM artımı ilə daha sürətli inkişaf nümayiş etdirib. Qırğızıstan, Özbəkistan və Qazaxıstan müvafiq olaraq 11,1 faiz, 7,7 faiz, 6,5 faiz artım tempini nümayiş etdirərək sənaye və kənd təsərrüfatı sektorunda davamlı inkişafı təmin ediblər. Türkmənistanda iqtisadi artım 6,3 faiz, ŞKTR-da 4,5 faiz təşkil edib. Türkiyə isə təşkilatın ən böyük iqtisadiyyatına sahib olmaqla 3,6 faiz iqtisadi böyüməyə nail olub. Azərbaycanda ÜDM-in artım tempi 1,4 faiz, Macarıstanda 0,4 faiz təşkil edib.

Ticarət dövriyyəsi həm qlobal inteqrasiya, həm də TDT ölkələri arasında iqtisadi inteqrasiya üçün əhəmiyyət daşıyır. 2025-ci ildə türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,12 trilyon dollar təşkil edib ki, bu da 34 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,6 faizinə bərabərdir.

Türkiyə 638,731 milyard dollar ilə ən yüksək ticarət dövriyyəsinə, Qazaxıstan və Özbəkistan isə müvafiq olaraq 143,888 milyard dollar və 81,16 milyard dollar həcmində ticarət dövriyyəsinə malik olublar.

İlkin rəqəmlərə əsasən, Qazaxıstanda və Özbəkistanda kənd təsərrüfatı və sənaye sektorlarında davamlı ixrac artımı müşahidə edilib. Bu göstəricilər bölgədəki ticarət dinamikalarının fərqliliyini və türk dövlətlərinin güclü ixrac performansından faydalandığını göstərir.




Sənaye sektorunda Qırğızıstan və Qazaxıstan müvafiq olaraq 10,6 faiz və 7,4 faiz artımla liderlik ediblər. Bununla yanaşı, Özbəkistan və Türkmənistanda sənaye sektoru 6,8 faiz inkişaf edib. Bu artıma genişmiqyaslı istehsal və infrastruktur layihələri təsir göstərib. Türkiyədə sənaye sektoru 4,5 faiz artıb.

Digər tərəfdən, kənd təsərrüfatı sektorunda Türkmənistan 7 faiz ilə ən güclü artım nümayiş etdirib. Qazaxıstan kənd təsərrüfatında 5,9 faiz, Özbəkistan, Macarıstan, ŞKTR müvafiq olaraq 4,4 faiz artım əldə edib.

İnvestisiyalar, xüsusilə sabit kapital sahəsindəki investisiyalar uzunmüddətli artım üçün çox vacibdir. 2025-ci ildə Qırğızıstan və Türkiyə sabit kapital investisiyalarında müvafiq olaraq 18,4 faiz və 15,1 faiz artım nümayiş etdiriblər ki, bu da infrastruktur, enerji və istehsal sahələrinə edilən böyük investisiyalarla dəstəklənib. Qazaxıstan və Özbəkistan da müvafiq olaraq 13 faiz və 10,5 faiz sabit kapital investisiyalarında sağlam artım göstərərək xarici birbaşa investisiyalarını artırıb və işgüzar mühitlərində müsbət inkişaf əldə ediblər.

Türk dövlətlərində bank sektoru da əhəmiyyətli artım nümayiş etdirib. Hesabat dövründə Qırğızıstanın bank sektorunun cəmi aktivlərində 44,9 faiz, Türkiyədə 41 faiz, Özbəkistanda 25,5 faiz, ŞKTR-da 11,06 faiz və Qazaxıstanda 11 faiz, Macarıstanda 11 faiz artım qeydə alınıb. Bu göstəricilər iqtisadi inkişafı və investisiyaları dəstəkləyən maliyyə xidmətlərinin güclənməsinə əsaslanır. Azərbaycanın bank sektoru isə daha mülayim (7,7 faiz) artım göstərib.

Dövlət büdcəsinin performansı iqtisadi sağlamlığın digər vacib göstəricisidir. ŞKTR dövlət büdcəsi gəlirlərində 51,8 faiz, dövlət büdcəsi xərclərində isə 52,4 faiz olmaqla ən yüksək artım qeydə alınıb. Qırğızıstanda dövlət büdcəsi gəlirlərində 44 faiz, dövlət büdcəsi xərclərində isə 41 faiz olmaqla yüksək artım qeydə alınıb. Azərbaycan, Türkiyə və Özbəkistan həm gəlirlər, həm də xərclər sahəsində sabit artım göstərərək effektiv maliyyə idarəetməsi nümayiş etdirib.

Türk dövlətləri ÜDM-in artımı və ticarət dövriyyəsi baxımından qlobal artımı üstələyib və əhəmiyyətli investisiyalar cəlb edib.

# AMEA-da "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının təqdimatı olub

**Aprelin 16-da Mərkəzi Elmi Kitabxanada (MEK) AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovun və professor Tofiq Mustafazadənin "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının təqdimatı keçirilib.**









Tədbir iştirakçıları əvvəlcə akademik Yaqub Mahmudovun əsərlərindən ibarət sərgi ilə tanış olublar. Həmçinin Mərkəzi Elmi Kitabxanada bu gün yaradılan "Akademik Yaqub Mahmudovun kitablarından ibarət fond" oxuculara təqdim edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tariximizin qaranlıq səhifələrinə işıq salan kitabın elmi əhəmiyyətindən danışlıb. O, ictimaiyyətə təqdim olunan bu əsərdə arxiv materiallarına və mühüm sənədlərə əsaslanaraq tariximizin vacib məqamlarına dair mühüm faktların oxuculara çatdırıldığını söyləyib.

AMEA rəhbəri bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci mərhələsində dövlətçilik tariximizə sistemli şəkildə qayıdış baş vermiş, tarixi şəxsiyyətlərimizin elmi əsaslarla yenidən qiymətləndirilməsi prosesi başlanılmışdır. Bu mərhələdə Azərbaycanın inkişafında müstəsna xidmətləri olmuş dahi şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması mühüm ənənəyə çevrilmişdir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, görkəmli dövlət xadimi Nəriman Nərimanovun 100 illik yubileyi Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə qeyd edilmişdir. Heydər Əliyev 28 iyul 1981-ci ildə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi haqqında" qərar imzalamışdır. Bu faktlar şəxsiyyətə qayıdış siyasətinin ardıcıl və məqsədyönlü xarakter daşıdığını açıq şəkildə göstərir.

"Müstəqillik illərində tarixi şəxsiyyətlərin irsinin sistemli şəkildə öyrənilməsi və cəmiyyətə təqdim olunması istiqamətində həyata keçirilən dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən ardıcıl və yüksək səviyyədə davam etdirilmişdir", - deyən AMEA rəhbəri son illərdə "İmadəddin Nəsimi ili", "Nizami Gəncəvi ili", "Heydər Əliyev ili"nin elan olunmasının müstəqil Azərbaycanın müasir inkişaf mərhələsində dövlət başçısının milli-mənəvi dəyərlərə və dahi şəxsiyyətlərin irsinə göstərdiyi xüsusi diqqət və qayğının aydın ifadəsi olduğunu diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, görkəmli tarixi şəxsiyyətlərimizin zəngin həyat və fəaliyyətinin elmi əsaslarla araşdırılması daha da genişləndirilməli, onların zəngin irsi gənc nəsillərin milli şüurunun formalaşmasında mühüm rol oynayan davamlı qürur və iftixar mənbəyinə çevrilməlidir.

O, dünya hərb sənətinin dahilərindən biri olan Nadir şah Əfşar haqqında indiyədək əsasən tərcümə mənbələrinə istinad etməklə məlumatların əldə olunduğunu söyləyib. Bildirib ki, akademik Yaqub Mahmudov və professor Tofiq Mustafazadənin həmmüəllif olduqları "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabında Şərq və Qərb mənbələri ilə yanaşı, Rusiya arxiv sənədləri və müxtəlif dillərdə nəşr edilmiş elmi tədqiqatlardakı faktik materiallar əsasında dahi Azərbaycan sərkərdəsinin həyat və fəaliyyətinə obyektiv elmi qiymət verilir.

Akademik İsa Həbibbəyli kitabın Azərbaycan dövlətçiliyinin öyrənilməsi baxımından mühüm elmi mənbə olduğunu vurğulayıb, müəlliflərə yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra AMEA-nın Tarix və Etnologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Güntəkin Nəcəfli çıxış edərək nəşrin məziyyətlərindən danışıb, kitabı mühüm elmi-tarixi hadisə kimi yüksək dəyərləndirib. O, indiyədək Qərb və Rusiya tarixşünaslığında Nadir şah şəxsiyyətinə qeyri-obyektiv yanaşıldığını və dahi sərkərdənin xidmətlərinin kiçildildiyini söyləyib. Qeyd edib ki, "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabı bu cür saxtalaşdırılmış yanaşmalara elmi faktlara söykənən tutarlı cavabdır. Əsər müəlliflərin ortaya qoyduğu mükəmməl sənət nümunəsidir.

Güntəkin Nəcəfli vurğulayıb ki, Nadir şah haqqında obyektiv araşdırmaların aparılması və bu kimi nəşrlərin yazılması öz torpaqlarını 30 illik düşmən işğalından azad etmiş bir ölkənin vətəndaşları, xüsusilə də gənc nəsil üçün böyük əhəmiyyət daşıyır. Bu kimi əsərlər gənclərə tarixi şəxsiyyətlərimizi elmi və obyektiv meyarlar əsasında dəyərləndirmək imkanı yaradır.

Onun sözlərinə görə, kitabda tarixi mənbələr əsasında bir çox qaranlıq məqamlara aydınlıq gətirilib, cəmi 59 il ömür sürmüş, 11 il hakimiyyətdə olmuş Nadir şah Əfşarın obyektiv obrazı yaradılıb. Müəlliflər bu əsəri əziz müəllimləri - görkəmli ziyalılarımız Ədhəm Şahmalıyev, Mehdi Erivanski, Səidə İmanzadə, Əli Sultanlı, Əbdülkərim Əlizadə, Bəxtiyar Vahabzadə və Mehbalı Qasımovun əziz xatirələrinə həsr ediblər.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Milli Məclisin deputatları Hikmət Babaoğlu, Vasif Qafarov və Cavanşir Feyziyev, Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini professor Eynulla Mədətli, AMEA-nın Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun Humanitar elmlər şöbəsinin professor-məsləhətçisi, tarix elmləri doktoru Mehman Süleymanov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev, Əlyazmalar İnstitutunun şöbə müdiri tarix elmləri doktoru Tahirə Həsənzadə və başqaları nəşrlə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda qeyd olunub ki, ictimaiyyətə təqdim olunan "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabında dahi Azərbaycan sərkərdəsi Nadir şahın hərbi və siyasi fəaliyyətindən, onun işğal olunmuş Səfəvi torpaqlarını, eləcə də ölkənin paytaxtını yadellilərdən azad etmək uğrunda mübarizəsindən, imperiyanın ərazisini daha da genişləndirməsindən bəhs edilir. Kitabda həmçinin Nadir şah Əfşarın Hindistanı fəth edərək Səfəvi dövlətindən daha geniş ərazili yeni Azərbaycan Əfşarlar imperiyası yaratması, böyük hökmdarın türk dünyasında məzhəb ayrılığına son qoymaq siyasəti də diqqətə çatdırılır.

Bildirilib ki, bu kimi fundamental elmi tədqiqatlar xalqımızın çoxəsrlik tarixinin və görkəmli şəxsiyyətlərinin mötəbər mənbələr və arxiv sənədləri əsasında, azərbaycançılıq mövqeyindən dərindən öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda bu əsər Azərbaycan tarixşünaslığında Nadir şah şəxsiyyətinə obyektiv və elmi əsaslandırılmış baxış bucağının formalaşmasına sanballı töhfələr verir.

Sonda nəşrin həmmüəllifi, akademik Yaqub Mahmudov çıxış edərək tədbirin təşkilinə görə AMEA rəhbərliyinə, MEK-ə və iştirakçılara təşəkkür edib, gənc nəsli tariximizi sevməyə, öyrənməyə və təbliğ etməyə səsləyib. O, əsərin ərsəyə gəlmə prosesi barədə məlumat verərək bildirib ki, kitabın əsas üstünlüyü məhz ilkin mənbələrə və arxiv sənədlərinə söykənməsidir. Akademik Yaqub Mahmudov MEK-də sərgilənən kitablarını yeni yaradılan "Akademik Yaqub Mahmudovun kitablarından ibarət fond"a hədiyyə edib.

Qeyd edək ki, 472 səhifəlik "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının elmi redaktoru tarix elmləri doktoru Mehman Süleymanov, elmi məsləhətçiləri Dünya Əfşarlar Dərnəyinin başqanı Şərəf Kocakaya və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayevdir.

***"Azərbaycan"***

**Dövlət mükafatına təqdim olunmuş mövzuların müzakirəsi**

# Ölkəmiz üçün müstəsna əhəmiyyəti olan sahə — yerli silah-sursat və hərbi texnika istehsalı

Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin bir qrup əməkdaşı - İ.Nəzərovun, N.Cavadovun, M.Əliyevin, S.Qasımovun və R.Hüseynovun müəllifləri olduqları "Müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsalat sahələrinin yaradılması" işi 2026-cı il üçün "Elm, Texnologiya" sahəsində Dövlət mükafatına təqdim edilmişdir.

Azərbaycanda hərbi sənaye kompleksinin əsası Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra qoyulmuşdur. Lakin ittifaq dağıldıqdan sonra keçmiş SSRİ-nin hərbi sənaye kompleksi üçün fəaliyyət göstərən, hazırda respublikamızın Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələr SSRİ-nin süqutundan sonra bir sıra ciddi problemlərə məruz qaldılar. Mövcud xammal, satış bazarının itirilməsi, ikitərəfli qarşılıqlı əməkdaşlıq əlaqələrinin tam kəsilməsi, regionda mövcud qeyri-sabitlik və digər problemlər həmin müəssisələrin tənəzzülə uğraması, sözün əsl mənasında, dağılaraq tamamilə sıradan çıxması ilə nəticələndi. Əsasən müdafiə təyinatlı məmulatların istehsalı üzrə ixtisaslaşmış bu müəssisələrin fəaliyyətlərini bərpa etmək və ölkədə müdafiə sənayesi kompleksinin inkişafına nail olmaq məqsədilə 1993-cü ildə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi yaradılsa da, qarşıya qoyulan əsas məqsədə çatmaq, demək olar ki, mümkün olmadı. Müstəqilliyimizin ilk illərində hökm sürən idarəsizlik, səriştəsizlik, heç bir iqtisadi, siyasi savadı, təcrübəsi olmayan təsadüfi adamların dövlət idarəçiliyinə gətirilməsi nəinki Azərbaycanın ərazi bütövlüyünün qorunmasına, həm də ordu quruculuğuna çox böyük zərbə vurdu.

Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan Ordusunun və digər Silahlı Qüvvələrin mütəşəkkil, güclü, müasir tələblərə cavab verən hərbi texnika, silah və sursatla təmin olunmuş bir orduya çevrilməsi, ordu rəhbərliyinə yüksəksəviyyəli, hərbi hazırlıqlı milli kadrların gətirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər gördü. Ulu Öndərin rəhbərliyi və bilavasitə yaxından iştirakı ilə orduda aparılan məqsədyönlü islahatlar çox qısa bir müddətdə öz müsbət bəhrəsini verdi. İndi Azərbaycan Silahlı Qüvvələri həm hərbi hazırlığına, həm də mütəşəkkilliyinə, müasir hərbi texnika ilə təchizatına görə regionda ən güclü ordudur.

Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır. Prezidentin apardığı məqsədyönlü, ardıcıl siyasət və uzaqgörənlik nəticəsində Azərbaycanın hərbi potensialı gücləndirilmiş, hərbi sahəyə ayrılan dövlət vəsaitinin həcmi xeyli artırılmış, nəticədə Azərbaycan Ordusu müasir silah-sursat və hərbi texnika ilə tam təchiz edilmişdir.

Nazirlik yarandığı gündən qarşıya qoyulmuş əsas məqsəd tabeçiliyində olan istehsal müəssisələrinin yenidən qurularaq istifadəyə verilməsi olmuşdur. 2005-2026-cı illər ərzində müdafiə təyinatlı məmulatların, hərbi sursatların yaradılması və istehsalının mənimsənilməsi məqsədilə nazirliyin tabeli birlik və müəssisələrində aparılan yenidənqurma işləri nəticəsində 70-dən artıq yeni istehsal sahələri yaradılmışdır. Həmin obyektlərin açılışında Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsən iştirak etmiş, özünün xeyir-duasını və dəyərli tövsiyələrini vermişdir.

Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrin maşın və avadanlıq parkının yeniləşdirilməsi üçün elmin və texniki tərəqqinin bütün imkanlarını özündə cəmləşdirən, dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl şirkət və firmalarından mürəkkəb əməliyyatları həyata keçirən çoxsaylı texnoloji avadanlıq, 2000-dən artıq müxtəlif növ dəzgah, cihaz, alət və tərtibatlar alınaraq quraşdırılmış və istehsala buraxılmışdır. Nazirliyin tabeli müəssisələrində yaradılan yeni istehsal sahələri təkcə Azərbaycan Silahlı Qüvvələrini deyil, həm də digər güc strukturlarını müasir tələblərə cavab verən müxtəlif təyinatlı hərbi məmulatlarla, texnika, silah və döyüş sursatları ilə, o cümlədən xalq təsərrüfatını, maşınqayırma, cihazqayırma, elektronika, rabitə sahələrində istifadə olunan müxtəlif təyinatlı avadanlıq və ehtiyat hissələri ilə təmin edir.

Bu göstərilənləri əsas götürərək belə bir qənaətə gəlmək olar ki, müstəqil Azərbaycanın ən ali mükafatlarından biri olan Dövlət mükafatına təqdim edilən digər işlər arasında Müdafiə Sənayesi Nazirliyinin bir qrup əməkdaşının təqdim etdiyi iş istər siyasi, istər elmi, istərsə də iqtisadi cəhətdən əsaslandırılmış fundamental bir işdir. Yüksək mükafata təqdim olunmuş elmi-tədqiqat, layihə-konstruktor və təcrübi-konstruktor işi müasir tələblərə cavab verən atıcı və döyüş silahlarının, bu silahlarda və artilleriya sistemlərində istifadə edilən müxtəlif növ döyüş sursatlarının yaradılmasına, istehsalının təşkil olunmasına və eləcə də istifadəyə yararsız, təhlükəli, saxlanması həm ekoloji, həm də iqtisadi cəhətdən səmərəsiz olan döyüş sursatlarının utilizasiyasına, nəinki respublikamızda, eləcə də MDB məkanında ilk dəfə yeni tökmə texnologiyası tətbiq etməklə müxtəlif çaplı döyüş minaatanları üçün müxtəlif kalibrli minaların və zirehli texnika (T72 tankı, BMP və MTLB tipli döyüş maşınları üçün) tırtıllarının gövdəsinin istehsalına yönəldilmişdir.

Azərbaycanda ilk dəfə müasir 12,7X108 mm-lik AH-12,7 iriçaplı pulemyotu və 7,62X54 mm-lik YST-24 yarımavtomat snayperi Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinin konstruktorları və elmi mütəxəssisləri tərəfindən layihələndirilmiş, təcrübi-sınaq nümunələri hazırlanaraq zavod və poliqon sınaqlarından keçirilmiş, seriyalı istehsalına başlanılmışdır. İlk dəfə ölkəmizin mütəxəssisləri tərəfindən yaradılan və nazirliyin tabeli müəssisələri tərəfindən seriyalı istehsalına başlanılan "AH-12,7" pulemyotu Müdafiə Sənayesi Nazirliyinin Bakıda keçirilən "ADEX 2022" IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilmiş və bu möhtəşəm sərginin açılışında iştirak edən dövlət başçısı, Ali Baş Komandan Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycanda ilk dəfə iriçaplı döyüş pulemyotunun yaradılması, "yanan modellər" üzrə mina gövdələrinin və zirehli döyüş maşınlarının çox mürəkkəb istismar şəraitində dağılaraq sıradan çıxan aparıcı hissələrinin - tırtıllarının müasir tökmə üsulunun mənimsənilməsi yüksəkqiymətli şixtə materiallarından istifadəsini 90 faiz yüksəltməyə, emal payının 10-15 faizədək, tökmə qüsurlarını 5-10 faizə qədər azaltmağa, qəlib materiallarından istifadəsini 95 faizə qədər çatdırmağa, milyonlarla manat dövlət vəsaitinə qənaət etməyə və Müdafiə Nazirliyinin göstərilən məmulatlara olan tələbatını tam təmin etməyə imkan vermişdir və bu ixtiraya patent alınmışdır. Bu patentin hərbi təyinatlı məmulatların istehsalında praktiki və iqtisadi əhəmiyyəti əsas götürülmüş və Patent Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən keçirilən ixtiraçılıq sahəsində respublika müsabiqəsinin qalibi olmuş, l dərəcəli diploma və mükafata layiq görülmüşdür.

Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal olunan atıcı döyüş silahların çox məsul hissələrinin "Həssas tökmə" üsulu ilə alınması zamanı hissələrin istehsalına sərf edilən əmək tutumunun azalması, material sərfiyyatına qənaət olunması, məhsuldarlığın dəfələrlə artmasına, hissələrin ölçülərinin dəqiq alınmasına nail olunmuşdur. Hazırda metallurgiya, maşınqayırma, aviasiya, kosmik, hərbi və digər xüsusi sənaye sahələrində metal töküklərin istehsalında müxtəlif tökmə üsullarından istifadə edilir.

Nazirliyin müəssisələrinin öz mütəxəssisləri tərəfindən qabaqcıl texnologiyaların, aparılmış məqsədyönlü elmi-tədqiqat, layihə-axtarış konstruktor işlərinin nəticələrinin tətbiqi nəticəsində Azərbaycanda ilk dəfə müxtəlif çeşidli atıcı silahlar üçün patronların seriyalı istehsalını təmin edən avtomat rotor xətləri tətbiq edilməklə müasir istehsal sahəsi yaradılmışdır. Bundan əlavə, nazirliyin mütəxəssisləri tərəfindən aparılmış məqsədyönlü elmi-tədqiqatlar nəticəsində çox mühüm bir problemin - artilleriya mərmilərinin partlayış zamanı qəlpələnməyə hesabı, alınmış nəticələrin çoxsaylı sınaqlarla təsdiqi, mərmilərinin partlayıcı qatışıqlarla doldurulması üçün optimal tərkibin və variantların seçilməsinə və praktiki tətbiqinə nail olunmuşdur.

Yüksək mükafata təqdim olunan işin ən vacib və mühüm əhəmiyyət kəsb edən sahələrindən biri də Azərbaycanda ilk dəfə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində ekoloji cəhətdən təmiz, partlayış təhlükəsizliyinə görə bütün norma və tələblərə cavab verən müasir texnologiyalara əsaslanan artıq istifadəyə yararsız, vaxtıötmüş döyüş sursatlarının müasir utilizasiya sahəsinin yaradılması və istifadəyə verilməsidir. Bu sahədə qabaqcıl texnologiyalara əsaslanmış üsulların tətbiqi istismar müddəti başa çatmış, sıradan çıxmış döyüş sursatları, həm də təkrar emal materialı kimi (mis, bürünc, partlayıcı maddələr, barıt, yüksəkkeyfiyyətli polad, çuqun və s.) mühüm dövlət ehtiyatıdır. Döyüş sursatlarının klassik üsulla, yəni partlatmaqla utilizasiyası həm ekoloji təhlükəsizlik, həm də iqtisadi səmərəlilik cəhətdən yolverilməzdir.

Döyüş sursatlarının utilizasiyası nəticəsində əsas və köməkçi materiallardan və elementlərdən mülki məmulatların istehsalının təşkili, müəssisələrə bəzi çətin tapılan materialların kənardan alınmasını aradan götürməklə yanaşı, milyon manatlarla dövlət vəsaitinə qənaət etməyə imkan yaratmışdır.

Nazirliyin müəssisələrində müxtəlif kalibrli döyüş patronlarının seriyalı istehsalı ilə yanaşı, avtomat patronları üçün müasir tələblərə cavab verən "şəffaf maqazinlərin" istehsalı mənimsənilmiş və hazırda həmin maqazinlərin kütləvi istehsalına başlanılmışdır. Çox yüksək konstruktiv möhkəmliyə malik bu cür patron maqazinləri müəssisədə xüsusi tərkibli plastik kütlədən və kompozisiya materialından hazırlanır. İriçaplı avtomat və əl pulemyotları üçün nəzərdə tutulmuş bu "şəffaf maqazinlər" müxtəlif, dəyişkən istismar şəraitində davamlılıqları ilə yanaşı, patronların silahın patron yuvasına etibarlı ötürülməsini tam təmin edir.

Şəffaf plastik kütlədən (polikarbonat PC) patron daraqlarının təzyiq altında "avtomatik tökmə" üsulu ilə xüsusi konstruksiyalı pres-qəliblərdə hazırlanması bütün texnoloji tsikl boyu əl əməyinin aradan qaldırılmasını təmin etməklə yanaşı, müəssisəyə yüz min manatlarla vəsaitə qənaət etməyə və Müdafiə Nazirliyinin bu tip patron daraqlara olan tələbatını tam təmin etməyə imkan vermişdir.

Müdafiə Sənayesi Nazirliyinin birlik və müəssisələrində istehsal olunan müdafiə və mülki təyinatlı məhsullar son illər bir sıra beynəlxalq sərgilərdə nümayiş etdirilmiş və bir sıra xarici ölkələrin hərbi mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmişdir. Yeri gəlmişkən qeyd edək ki, nazirliyin iştirak etdiyi beynəlxalq sərgilərdə nümayiş olunan məhsulların çeşidləri durmadan artır. 2009-cu ildə Türkiyədə təşkil olunan "İDEF-2009" sərgisində 27 adda müdafiə təyinatlı məmulatla təmsil olunan Müdafiə Sənayesi Nazirliyi 2011-ci ildə Küveytdə keçirilən "Körfəz Müdafiə və Aerospeys" sərgisində artıq 97 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilmişdir.

Bu sərgi Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məmulatlarla qatıldığı sayca yeddinci sərgi idi. Bundan öncə nazirlik "İDEF-2009", "SOFEX-2010", "MSPO", "AAD-2010", "İDEX-2011", "İDEF-2011","ADEX-2014", "ADEX-2016", "ADEX-2018" və "ADEX-2022", "ADEX-2024" sərgilərində təmsil olunmuşdur.

2024-cü ildə Azərbaycan regionda müdafiə sənayesinə həsr olunan ən nəhəng tədbirə Azərbaycan Beynəlxalq Müdafiə sərgisinə ("ADEX-24") evsahibliyi etmişdir. "ADEX-2024" sərgisində təyyarə və aviasiya sistemləri, hərbi dəniz gəmiləri və dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, hərbi laboratoriyalar, hərbi təhsil müəssisələri, logistika xidmətləri, radioelektron sistemlər, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursatlar, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), sistemləri, ixracın təşviqi ilə məşğul olan müəssisələr və digər sahələr təmsil olunmuşdur.

2025-ci ilin dekabrında Qahirədə keçirilən "EDEX-2025" beynəlxalq müdafiə sərgisində dövlət və hökumət rəsmiləri, müxtəlif ölkələrin 100-dən çox rəsmi nümayəndə heyəti və 25 ölkə milli pavilyonla iştirak etmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin də iştirak etdiyi bu mötəbər beynəlxalq "EDEX-2025" sərgisində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinə məxsus 104 adda, eləcə də Azərbaycanın "Synapline", "Q-STP", "USH Group", "GLSystems" və "RD Smart" şirkətlərinin 24 adda məhsulu sərgilənmişdir. Respublikamızın mütəxəssisləri tərəfindən yaradılımış və serialı istehsal edilmiş bu məhsullar xarici hərbi şirkətlər və 50 mindən çox ziyarətçi tərəfindən çox maraqla qarşılanmışdır.

2026-cı il Dövlət mükafatına təqdim edilən işdə həm də Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müxtəlif təyinatlı döyüş sursatlarının yaradılması, təkmilləşdirilməsi və ekoloji fəlakət mənbəyi olan vaxtı keçmiş döyüş sursatlarının utilizasiyası sahəsində aparılmış həm ekoloji, həm də iqtisadi cəhətdən çox mühüm dövlət əhəmiyyətli elmi-tədqiqat-axtarış işlərindən alınmış nəticələrin nazirliyin tabeli müəssisələrində istehsalatda praktiki tətbiqi barədə ətraflı, elmi-praktiki cəhətdən əsaslandırılmış materiallar da öz əksini tapmışdır.

Fəaliyyətə başladığı 20 il müddətində nazirliyin tabeli müəssisələrində müasir növ silahlar, döyüş sursatları, hərbi texnika, mühəndis-texniki vasitələr və digər müdafiə təyinatlı məmulatlar uğurla istehsal edilərək Silahlı Qüvvələrə təhvil verilmişdir. Hazırlanan hərbi təyinatlı məhsulların çeşidi xeyli artıb, Azərbaycan Ordusunun və digər güc strukturlarını ən müasir silah növləri və sursatları ilə təchiz edilməsi üçün zəruri addımlar atılmışdır.

Dünya hərb elminə "XXI əsrin müharibəsi" adı ilə daxil olan 44 günlük müharibədən sonra "ADEX" kimi mötəbər tədbirin məhz qalib ölkədə - Azərbaycanda keçirilməsi bütün dünyanın diqqətini ölkəmizə yönəltmiş və hər kəs Azərbaycanın müdafiə qüdrətinin canlı şahidi olmuşdur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin hərbi qüdrəti gündəngünə daha da artır və müdafiə sənayesi hər keçən gün daha da inkişaf edir.

Müdafiə Sənayesi Nazirliyininin Mühəndislik Akademiyası ilə uzun müddət birgə fəaliyyətini, eyni zamanda layihələrin icrasının səmərəliliyini nəzərə alaraq Müdafiə Sənayesi Nazirliyinin bir qrup əməkdaşları tərəfindən təqdim olunmuş "Müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsalat sahələrinin yaradılması" işini tam əminliklə vurğulamaq olar ki, 2026-cı il üçün "Elm, Texnologiya" sahəsində Dövlət mükafatına təqdim olunmuş işlər arasında müstəsna əhəmiyyət kəsb edir və ümidvarıq ki, o, yüksək mükafatı almağa əsas namizəddir.

***Əhəd CANƏHMƏDOV,***
***Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, akademik***

## Alimlərimiz

# Ömrünü torpağa həsr etmişdi

Bəzi insanlar torpaq kimidir - səssiz, təmkinli, lakin sonsuz bərəkət mənbəyi. Onlar mövcudluqları ilə ətraflarına həyat nəfəsi, mənəvi dayaq və işıq bəxş edirlər. Belə şəxsiyyətlərin ömrü illərin hesabı ilə deyil, qoyduqları iz, yetişdirdikləri nəsillər və toxunduqları qəlblərlə ölçülür. Akademik Məmmədtağı Cəfərov məhz bu mənəvi ucalığın, vətəndaş təmkininin, elmi və insani kamilliyin parlaq təcəssümü idi.



Onun ömrü bütöv bir elmi məktəbin salnaməsi, zəhmətin və məsuliyyətin təntənəsi kimi tarixə həkk olundu. Məmmədtağı Cəfərov həyatının hər addımında torpağı, elmi və insanı eyni dəyərin ayrılmaz halqaları kimi qəbul edirdi. Onun üçün elm yalnız bilik məcmusu deyil, xalqın sabahına işıq saçan müqəddəs missiya idi. Uzun illər ərzində torpaqşünaslıq, aqrar elmlər və ekologiya sahəsində yüzlərlə tələbəyə bilik verdi, onlarca elmi tədqiqatın istiqamətini müəyyənləşdirdi. Elmi müzakirələrində torpağın dilini insan əməyinin hikməti ilə vəhdətdə şərh edərdi. O, tez-tez deyərdi: "Torpaq da insan kimidir, qayğı və diqqət istəyir. Onu sevənə bərəkətini, etinasız olana isə küskünlüyünü göstərir." Bu fikir akademikin elmi fəlsəfəsinin, həyat baxışının və insan anlayışının əsasını təşkil edirdi.

Əslində, o, təkcə alim deyildi, həm də həyat müəllimi idi. Məmmədtağı müəllim tələbələrə, sadəcə, dərs deməz, onları formalaşdırardı. Hər sözü, hər baxışı, hər səmimi nəsihəti gənclərin yaddaşında ömürlük dərsə çevrilirdi. Onun üçün tələbə gələcəyin daşıyıcısı, xalqın ümid çırağı idi. Bu ümidi doğrultmaq isə müəllim üçün ən böyük məsuliyyət sayılırdı. Tələbələrinin hər uğuruna ürəkdən sevinər, yeni elmi nailiyyətləri şəxsi qələbəsi kimi qəbul edərdi. Çünki o, yaxşı bilirdi ki, əsl alim yalnız öz adını deyil, ardınca gələnlərin yolunu işıqlandıran şəxsdir.

Məmmədtağı müəllim torpağı, sadəcə, elmi obyekt kimi deyil, xalqın varlığı və milli yaddaşı kimi dərk edirdi. Onun üçün torpaq həm həyatın başlanğıcı, həm də gələcək nəsillər qarşısında məsuliyyət idi. O deyirdi ki, torpaq insanın xarakterinə bənzəyir, kim ona necə yanaşırsa, o da həmin münasibəti qaytarır. Elmi araşdırmalarında bu sevgi və bağlılıq duyğusu aydın şəkildə hiss olunurdu. Məmmədtağı müəllim üçün hər elmi nəticə statistik göstərici olmaqdan daha çox milli sərvətin qorunmasına xidmət edən dəyər idi.

Akademikin həyat yoluna nəzər saldıqca aydın olur ki, bu insanın ömrü yaşadığı illərlə deyil, yaşatdığı mənəvi dəyərlərlə ölçülür. Elə insanlar var ki, onların həyatı kitab kimidir, səhifələrini çevirdikcə elm, əxlaq, vətənpərvərlik, sadəlik və səmimiyyətlə dolu bir mənəvi xəzinə ilə qarşılaşırsan. Akademik Məmmədtağı İbrahim oğlu Cəfərov məhz belə şəxsiyyətlərdən idi. O, ömrünü xalqına, torpağına, elmə və dövlətinə həsr etmiş vətəndaş-alim və həyat müəllimi idi. Onun bütün həyatı yalnız görkəmli bir alimin deyil, bütövlükdə Azərbaycan ziyalısının mənəvi portretidir.

1936-cı ildə İrəvan mahalının Amasiya rayonunun Oxçuoğlu kəndində dünyaya gələn Məmmədtağı Cəfərov sözün əsl mənasında torpaqdan doğulmuş, torpaqla nəfəs almış bir insan idi. "Mən torpaq oğluyam" deyən bu müdrik alim torpağın sirrini, nəfəsini və hikmətini dərindən anlayırdı. Torpaqşünaslıq onun üçün yalnız elm sahəsi deyil, vətən sevgisinin mənəvi ifadəsi idi. Kökü torpaqdan gələn, ömrünü torpağa xidmətə həsr edən alim məhz buna görə insanların qəlbində xüsusi yer tuturdu.

1959-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu (indi Azərbaycan Dövlət Aqrar Universiteti) fərqlənmə diplomu ilə bitirən alim elmi fəaliyyətinin ilk günlərindən torpaq problemlərinin tədqiqinə başladı. 1964-cü ildə "Azərbaycanın əsas torpaq tiplərində fosfor birləşmələri", 1973-cü ildə isə "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" mövzularında dissertasiyalar müdafiə edərək əvvəlcə kənd təsərrüfatı elmləri namizədi, sonra doktoru alimlik dərəcəsi aldı. Elmi nailiyyətləri onu 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü zirvəsinə yüksəltdi. Onun elmi fəaliyyəti yalnız nəzəri tədqiqatlarla deyil, torpağın məhsuldarlığını artıran praktiki nəticələrlə də yadda qaldı. Zaqatala və Xızı rayonlarında torpaq islahatlarının ilkin modellərinin hazırlanması onun elmi uzaqgörənliyinin bariz nümunəsidir.

Məmmədtağı Cəfərov həm də böyük təşkilatçı və pedaqoq idi. İki dəfə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektoru təyin olunması onun elmi və təhsil sahəsində qazandığı nüfuzun göstəricisi idi. Milli aqrar təhsil modelinin formalaşmasına rəhbərlik etdi, onlarca gənc alim yetişdirdi. Yazdığı "Torpaqşünaslıq", "Torpaq fondu və ondan səmərəli istifadə" dərslikləri bu gün də aqrar elmin fundamental mənbələri hesab olunur. Tələbələrinə yalnız bilik deyil, dürüstlük, təvazökarlıq və əməyə hörmət kimi ali dəyərləri də aşılardı.

Məmmədtağı Cəfərov elm və ictimai-siyasi fəaliyyət sahələrində də yüksək nüfuz qazanmışdı. Müstəqil Azərbaycanın ilk illərində dövlətçiliyin qorunmasında fəal iştirak etmiş, 1993-cü ilin taleyüklü dövründə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını dəstəkləyən "91-lər" sırasında yer almışdı. Bu addımı onun dövlətə sədaqətinin və vətəndaş mövqeyinin parlaq ifadəsi idi. Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri, partiyanın Siyasi Şurasının üzvü və uzun illər Gəncə şəhər təşkilatının sədri kimi fəaliyyət göstərmişdi. Siyasətdə də, elmdə olduğu kimi, prinsipial, təmkinli və məsuliyyətli idi.

Məmmədtağı müəllim azərbaycançılıq ideologiyasının sadiq daşıyıcısı idi. Onun həyat fəlsəfəsində vətənə sevgi, torpağa bağlılıq, elmə inam və insana hörmət əsas yer tuturdu. Universitetdə hər bir əməkdaşa - vəzifəsindən asılı olmayaraq - eyni diqqət və qayğı ilə yanaşması onun yüksək mənəviyyatının göstəricisi idi. 1988-ci il deportasiyaları zamanı köçkün ailələrə göstərdiyi qayğı onun humanizminin ən parlaq nümunələrindən biri oldu. O, etdiyi yaxşılıqları heç vaxt dilə gətirməzdi, lakin hər kəs onu "həyat müəllimi" kimi xatırlayırdı.

Azərbaycanlı alimin elmi fəaliyyəti beynəlxalq miqyasda da yüksək qiymətləndirilmişdir. Bir neçə nüfuzlu beynəlxalq akademiyanın həqiqi üzvü seçilmiş, nüfuzlu mükafat və medallarla təltif olunmuşdur. Yüzlərlə elmi məqalə, dərslik və monoqrafiyanın müəllifi kimi aqrar elmin inkişafına əvəzsiz töhfələr vermişdir. Məmmədtağı Cəfərovun həyatı bir həqiqəti təsdiqlədi: alim olmaq üçün bilik, ziyalı olmaq üçün vicdan, vətəndaş olmaq üçün cəsarət lazımdır. Bu üç dəyər onun şəxsiyyətində vəhdət təşkil edirdi.

Akademik Məmmədtağı Cəfərov ömrünü şərəf və məsuliyyətlə yaşadı, geridə isə işıqlı və əbədi bir iz qoydu. Bu gün onun adı Azərbaycan elminin və ziyalılıq mühitinin mənəvi simvolu kimi çəkilir. Onun həyatı və fəaliyyəti vətənə, elmə və insanlığa sədaqətin canlı nümunəsidir. Məmmədtağı müəllim torpaq kimi bərəkətli, ağac kimi barlı, su kimi saf və şəffaf ömür yaşadı. Əziz xatirəsi minlərlə insanın qəlbində yaşayır və yaşayacaq. Dövlətinə sədaqətli siyasi xadim, zirvələri fəth etmiş alim və sadə, səmimi müəllim kimi torpağa qovuşaraq torpağın yaddaşına həkk olunub.

***Ramiz QULİYEV,***
***kənd təsərrüfatı elmləri doktoru, professor***

## Unutsaq, unudularıq!

# Yeri görünən insan

Bu yaxınlarda Lənkəran Dövlət Dram Teatrının səhnəsində "Gəlinlik paltarı" romanımın motivləri əsasında hazırlanan tamaşanın nümayişi keçirildi. Dəyərli dostlarım - dünyaşöhrətli Xalq yazıçısı Çingiz Abdullayev, professor Elman Quliyev, Rövşən Ağayev, Bəxtiyar Qaraca və digər sirdaşlarımla bərabər premyerada iştirak etmək üçün Bakıdan Lənkərana getmişdik. Dostlarımın əhatəsində oturmuşdum, amma ürəyimdə hüzn, yanımda bir boşluq vardı.



O boşluq sənə aid idi, unudulmaz dostum, əvəzsiz sirdaşım Hadı…. Gözlərim qeyri-ixtiyari yan tərəfə dikilirdi. Elə bilirdim indi əlini çiynimə qoyub, özünəməxsus enerjinlə qulağıma təbəssümlə nəsə pıçıldayacaqsan. İndi içimdə elə bir sükut var və mən o boşluqda sənin səsini, özünü axtarıram, əziz dostum.

Tamaşadan sonra Bakıdan gedən adını çəkdiyim dostlarım fikirlərini bölüşdülər, onların arasında sənin yerin necə də görünürdü, Hadı...

Səninlə keçən 70 illik dostluğumuz, sadəcə, təqvim yarpaqları deyil, hər sətri birgə yazdığımız bütöv bir kitab imiş, indi o kitabın son səhifəsi qəlbimə ağır bir daş kimi çöküb.

Bizə həmişə "qoşa qanad" deyərdilər. Sənin ağır dəfn günündə Milli Məclisdəki həmkarımız Fəzail İbrahimlinin göz yaşları içində dediyi o sözlər hələ də qulaqlarımda səslənir: "Siz qoşa qanad idiniz, indi o qanadın biri qırıldı. Sənə bundan sonra o tək qanadı qorumaq düşür..."

Ötən gecə qəribə, nurlu bir yuxu gördüm. Hər tərəf bəmbəyaz qara bürünmüşdü, sanki dünya bütün çirkinliklərdən arınıb paklanmışdı. Mən idim, sən idin, bir də üzünü dumanlı gördüyüm başqa bir dostumuz. Uşaq kimi şənlənərək bir-birimizə qartopu atır, gülüşür, zarafatlaşırdıq. O qədər real yuxu idi ki... Səhər oyananda "Allah xeyrə calasın" pıçıldadım. Düşündüm ki, anım günün ərəfəsində bu şəkildə yenidən özünü xatırladıb yaddaşımı təzələyirsən. Halbuki aramızdan cismən ayrıldığın 2 il ərzində sən bir gün də olsun mənim yadımdan çıxmayıbsan. O nurlu yuxu mənə pıçıldayır ki, sən artıq bütün dünya ağrılarından arınıb, bizim o ən məsum və qayğısız anlarımıza - əbədi uşaqlığımıza qayıtmısan.

Biz səninlə yalnız dost deyildik, Hadı, iki ayrı bədəndə döyünən bir ürək idik. Köklərimiz Lənkəranın o rütubətli, bərəkətli torpağına, 2 nömrəli orta məktəbin ibtidai sinif partasına qədər uzanır. Sən mənim uşaqlığımın, gəncliyimin və ən əziz xatirələrimin canlı şahidi idin.

Səninlə uşaqlıq xatirələrimiz "Spartak" kinoteatrının önündəki səs-küylü izdihamda, doğma Lənkəranın küçələrində yaşayır. Bir dəfə bərk dalaşmışdıq, bizimki uşaqlıq inadı idi. Amma sən də kin saxlamazdın, ürəyin tərtəmiz idi. Cəmi bir saat sonra iki dost qol-boyun olub yenə şəhəri gəzirdik.

Yadındadır, Hadı, sənin anan, nur üzlü pedaqoq Firuzə müəllim məni də özünə oğul bilərdi. Mənim anama zarafatla deyərdi: "Hüseynbalanı sən yox, mən doğmuşam". Biz halal ocaqların çörəyi ilə böyümüşük. Cəmi 12 yaşımız olanda kişi kimi işləyib məktəb ləvazimatlarımızı öz zəhmətimizlə alırdıq. Valideynlərimizdən gizlin loto oynayanda da, idman meydançalarında tər tökəndə də ruhumuz bir idi. Yadındadır, sənin 15 yaşın tamam olanda sizin evdə ilk dəfə "Tri semyorka" çaxırının dadına da baxmışdıq.

İllər keçdi, tale bizi yüksək zirvələrə apardı. Hər ikimiz müxtəlif sahələrdə məsuliyyət tələb edən rəhbər vəzifələrdə çalışdıq. Amma nə vəzifə, nə də məsafə bizim qəlbimizdəki sarsılmaz dostluq tellərini ayırmadı, Hadı. Ölkənin ayrı-ayrı bölgələrində olanda belə - sən Şəkidə birinci katib işləyəndə də, mən Bakıda məsul vəzifələrdə olanda da az qala hər gün bir-birimizdən xəbər tuturduq.

Sən təkcə dostum deyildin, həm də haqqın keşikçisi idin. Xatirimdədir, Dövlət Tərcümə Mərkəzi Ulu Öndər Heydər Əliyev haqqında kitabı ispan dilində çap edəndə texniki bir xəta ucbatından müəllif kimi mənim adım qeyd olunmamışdı, sadəcə, digər həmmüəllifin adı getmişdi. Sən bunu görən zaman sanki özünə qarşı haqsızlıq edilibmiş kimi ayağa qalxdın, dərhal zəng edib iradını bildirdin. İki həftə keçməmiş kitab mənim də adım qeyd olunmaqla yenidən nəşr olundu. Sən belə bir dost idin, özünə əziz bildiyinin haqsızlığa uğramasına, kölgədə qalmasına imkan verməzdin. Qəlbin çox böyük idi sənin, yaman dostcanlı idin. Səninlə söhbətlərimizi, xoş zarafatlarımızı, birgə keçirdiyimiz gözəl günləri minnətdarlıqla xatırlayıram.

Milli Məclisdə 15 il çiyin-çiyinə oturduq. Sən tribunaya çıxanda sanki zaman dayanırdı. O qədər enerjili, o qədər atəşin danışırdın ki, bəzən zamanın necə keçdiyini unudurdun. Sən Azərbaycan parlamentinin ən işgüzar, ən fəal simalarından biri kimi tarixə düşmüsən. Sənin üçün ən böyük orden Ulu Öndərin verdiyi nəsihət idi: "Düz ol, təmiz ol!" Sən bu kəlamı özünə həyat kredosu seçmişdin.

Vəfatından bir neçə gün əvvəl o qədər şən idin ki... "Şənbə günü hamını yığacam, hər şey mənim boynumadır" demişdin. Həmin şənbə, doğrudan da, yığışdıq. Amma onun süfrəsi arxasında deyil, onun xatirəsi ətrafında... İndi də sənin dəyərli ailənlə görüşürük, söhbətləşirik, səni sevgiylə, ehtiramla anırıq. Övladların mənə "sən atamızın yadigarısan" deyir.

2024-cü ilin 17 aprel günü ürəyin dözmədi. Bəlkə də qaçqınların, köçkünlərin illərlə çəkdiyi o ağır dərd-səri öz ürəyindən keçirdiyin üçün könlün yoruldu, sızladı və dayandı.

Amma bir böyük təsəllim var ki, sən 44 günlük Zəfərimizi gördün, qələbə müjdəmizi eşitdin. Ömrünü, enerjini həsr etdiyin məcburi köçkünlərin öz yurduna qayıdışını gördün. Bilirəm ki, bu, sənin üçün ən böyük mükafat idi.

Bu il sənin aramızdan ayrılmağından 2 il ötür. Məzarının üstünə ürəyidolu gəlirəm, Hadı. Elə bil məzar daşından baxan nurlu baxışlarınla soruşursan: "İşlərin necədir, Hüseyn?" Mən isə sənə hesabat verirəm: "Çox çətindir, Hadı. Sənsiz tək qalmışam. Dostlarım çoxdur, Allah canlarını sağ eləsin, amma sənin yerin tamam başqa idi..."

Sən işıqlı adam idin, Hadı. Və o işıq daim bizim qəlbimizi nurlandırır və isidir. Ölüm səni məndən fiziki olaraq ayırsa da, dostluğumuzun sarsılmaz, möhkəm körpüsü hələ də qəlbimdədir, mən hər gün o körpüdən keçib səninlə xəyallarımda görüşürəm. Unudulmaz şair Səməd Vurğunun dediyi kimi:

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Ruhun şad olsun, əvəzsiz dostum! Sən cismən indi bizimlə olmasan da, yazdığın-yaşadığın o şərəfli ömür kitabın hələ çox oxunacaq...

***Hüseynbala MİRƏLƏMOV,***
***yazıçı-dramaturq***

# Naxçıvanda rəhbər şəxslər kiberhücumlara qarşı maarifləndirilirlər

Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) nəzdində fəaliyyət göstərən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən dövlət qurumlarının rəhbər heyəti üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, ötən gün Ağbulaq İstirahət Mərkəzində təşkil olunan tədbirdə əvvəlcə sərgi və stendlərlə tanışlıq olub, kibertəhlükəsizlik sahəsində tətbiq olunan müasir texnologiyalar və innovativ həllərlə bağlı məlumat verilib.

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Azər Məmmədrəhimov bu cür təlimlərin müasir dövrdə xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq bildirib ki, rəqəmsallaşmanın sürətlə artdığı bir şəraitdə dövlət qurumlarının kibertəhlükəsizliyinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. O, informasiya təhlükəsizliyinin təmin olunmasının yalnız texniki məsələ deyil, həm də idarəetmə və məsuliyyət məsələsi olduğunu diqqətə çatdırıb. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev kibertəhlükəsizlik sahəsində maarifləndirmə tədbirlərinin davamlılığının vacibliyini vurğulayıb. Bildirib ki, müasir dövrdə informasiya təhlükəsizliyi yalnız İT mütəxəssislərinin deyil, bütün rəhbər şəxslərin gündəmində olmalı və bu sahədə biliklərin artırılması idarəetmənin effektivliyinə birbaşa təsir göstərir.

İRİA-nın İnformasiya Təhlükəsizliyi departamentinin müdiri Şahmar Hacıyəhyayev çıxışında vurğulayıb ki, qurumların rəqəmsallaşması ilə paralel olaraq, kibertəhlükəsizliyin də təmin edilməsi olduqca vacib faktordur. Bu sahədə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi olaraq böyük işlər görülür. Belə ki, son 2 ildə 200-dən çox rəhbər şəxsə və 50-dən çox qurumun 6000-ə yaxın əməkdaşına kibermaarifləndirmə təlimləri həyata keçirilib. Bu da həmin qurumların kiberdayanıqlılığının artırılması istiqamətində görülmüş ciddi addımlardır.





Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin xarici təlimçi heyəti və İRİA tərəfindən dəvət edilən xarici ekspertlər tərəfindən rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik sahələrinə dair müxtəlif aktual mövzularda təqdimatlar keçirilib. Kibertəhlükəsizlik sahəsinə dair əsas anlayışlar, müasir qlobal çağırışlar və dövlət sektorunda rast gəlinən əsas risklər geniş şəkildə izah edilib. Sonra rəhbər şəxslərə yönəlmiş hədəfli hücumlar, xüsusilə CEO və yüksək vəzifəli şəxslərin fişinq, sosial mühəndislik və digər kiberhücumlara məruzqalma halları real nümunələr əsasında təhlil olunub.

Eyni zamanda informasiya sızmalarının başvermə səbəbləri, o cümlədən insan faktoru, zəif təhlükəsizlik siyasətləri və texniki boşluqlar müzakirə edilib, bu risklərin minimuma endirilməsi üçün qabaqlayıcı tədbirlər və effektiv idarəetmə yanaşmaları iştirakçıların diqqətinə çatdırılıb. Həmçinin açıq mənbələrdən məlumat toplanması (OSINT) və təşkilatlar üçün yarada biləcəyi təhlükələr barədə ətraflı məlumat verilib.

Günün ikinci yarısında təşkil olunan masaüstü məşğələlər zamanı iştirakçılar real ssenarilər üzərində işləyərək kiberinsidentlərə reaksiya vermə, qərar qəbuletmə və böhran vəziyyətlərinin idarə olunması bacarıqlarını praktiki şəkildə tətbiq ediblər. Bu sessiyalar rəhbər şəxslərin kritik situasiyalarda operativ və düzgün qərarvermə qabiliyyətlərinin gücləndirilməsinə yönəlib.

Təlim çərçivəsində veb-fəaliyyətlər zamanı istifadəçi davranışının analizi, brauzer artefaktları vasitəsilə istifadəçi niyyətinin və potensial risklərin müəyyən edilməsi, eləcə də rəqəmsal izlərin təhlükəsizlik baxımından qiymətləndirilməsi kimi müasir və aktual məsələlər də geniş müzakirə olunub.

Tədbir sual-cavab sessiyası və yekun müzakirələrlə başa çatıb.

# Dövlət maliyyəsinin idarə olunması vahid platformada birləşdirilir

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi (RDMİS) dövlət maliyyəsinin idarə olunmasında şəffaflıq və operativliyi təmin edən əsas rəqəmsal alətlərdən biri kimi fəaliyyətə başlayıb. (www.rdmis.gov.az).




Maliyyə Nazirliyindən bildirilib ki, RDMİS vasitəsilə büdcə, xəzinədarlıq, dövlət borcu, mühasibat uçotu və digər maliyyə prosesləri inteqrasiya olunmuş şəkildə idarə olunacaq. Bu yanaşma müxtəlif istiqamətlər üzrə məlumatların vahid platformada birləşdirilməsinə və dövlət qurumları arasında koordinasiyanın daha səmərəli təşkilinə imkan yaradır.

Dövlət maliyyəsində şəffaflığın artırılmasına, nəzarət mexanizmlərinin gücləndirilməsinə və hesabatlılığın yüksəldilməsinə xidmət edən sistem Maliyyə Nazirliyinin bütün informasiya sistemlərinə vahid mərkəzdən daxilolma və idarəetmə imkanını təmin edir. Eyni zamanda məlumatların mərkəzləşdirilmiş bazada toplanması və real vaxt rejimində maliyyə göstəricilərinə çıxış imkanları qərarların daha dəqiq, operativ və analitik əsaslarla qəbul edilməsinə şərait yaradacaq.

RDMİS "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-mühasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsistemləri daxil olmaqla, ümumilikdə 13 altsistemdən ibarətdir.

Aprelin 10-dan etibarən RDMİS-in "e-müqavilə" altsistemi istifadəyə verilib. Dövlət satınalmalarının şəffaf, operativ və səmərəli təşkilini təmin edən sistem büdcə təşkilatları tərəfindən mal, iş və xidmətlərin satın alınması üzrə müqavilələrin bağlanılması və göndərilməsini həyata keçirir.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli fərmanı ilə təsdiq edilib.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***




## I Türkoloji qurultay – 100



**Milli yaddaşımızda elə şəxsiyyətlər var ki, onları xatırladıqca adamın qəlbini sövq-təbii kədər bürüyür, zamanın çarxını geri döndərmək, həmin şəxsiyyətlərin ömürlərində düzəlişlər aparmaq istəyirsən. Bu insanların taleyini qaraltmış zülməti işığa, doğmalarının həyatını puç etmiş faciələri xoşbəxtliklərə doğru yönləndirməyə can atırsan. Amma bunun iradən xaricində olduğunu dərhal anlayırsan. Yeganə təsəllin isə belə insanlara əbədiyyət ömrü qazandırmış düşüncələri, ölməz əsərləri, sözün qüdrəti üzərində ucalan mənəvi abidələri olur. Bu ucalıqdan düşən kölgədə ovunursan.**

# Dərin hikmət və fəlsəfi düşüncə şairi

## Hüseyn Cavid xeyrə nə qədər işıqlı xəyallar bəsləyirdisə, şərin məhvinə bir o qədər inanırdı

Hüseyn Cavid belə şəxsiyyətlərimizdəndir. Qırmızı terrorun 1936-1937-ci illərindən söz düşəndə ilk xatırladığımız məşhur isimlərdən biridir. Çünki bir mübarizə adamı idi. Günahsız idi, ona qarşı edilənlər, həbsi, repressiyaya məruz qalması böyük haqsızlıq, zülm idi. Amma Cavid əfəndi zavallı deyildi. Məğrur, əyilməz, öz prinsiplərindən geri çəkilməyən şəxsiyyət idi və elə bunun da fəlakətinə uğradı. O, sözü müqəddəs sayırdı, ona xəyanəti heç zaman özünə rəva görməmişdi. Toxunduğu problemlərlə, işlədiyi mövzularla, yaratdığı qəhrəmanlarla, dünyaya, insanlara münasibəti ilə hər cür ideologiyaların, quruluşların fövqünə ucalmışdı və bunu hamıdan yaxşı özü bilirdi. Ona görə də Hüseyn Cavid zamanın şərtlərinə, özündən qat-qat cılızların diktələrinə boyun əymirdi.

Barəsində müxtəlif tribunalardan səsləndirilən haqlı-haqsız tənqidlərə, mətbuat səhifələrində yazılan qərəzli yazılara rəğmən, yenə də yolundan çəkinmədi. O, sovet quruluşuna qədər bu ideallardan yazırdı, əzilən, əzab çəkən insanların problemlərinə diqqət yönəldirdi. Lakin insanı, ədəbiyyatın ideallarını kolxoz, sovxoz səviyyəsinə endirməyin əleyhinə idi. Ən əsası isə şəxsiyyətə pərəstişi qəbul etmirdi.

### I Türkoloji Qurultay və səma şairinin düşüncələri

Hüseyn Cavid 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda fəal iştirak edən görkəmli ziyalılardan biri idi. Onun bu tarixi hadisə ilə bağlılığı həm ideoloji, həm də iştirakçı müstəvisində mühüm əhəmiyyət kəsb edirdi. I Türkoloji Qurultaydan əvvəl 1922-ci ildə yaradılan xüsusi komissiyaya və Əlifba Komitəsinə Hüseyn Cavid də daxil edilmişdi. Bu komissiya latın qrafikalı əlifbaya keçid məsələləri ilə məşğul olurdu ki, bu da qurultayın əsas müzakirə mövzularından biri idi.

Arxiv materiallarını araşdıranlar qeyd edirlər ki, qurultaydan sonra dərc olunmuş stenoqramda Hüseyn Cavidin adı nümayəndələrin siyahısında yox idi. Lakin Əziz Şərif bu mötəbər tədbirin başladığı günü xatırlayıb yazırdı: "...Qurultay açıldı. Hüseyn Cavidlə yanaşı oturmuşdum. Mirzə Cəlil, Sultanməcid Qənizadə və başqaları ilə görüşdüm". Tədqiqatçı jurnalist Azər Turan isə məqalələrinin birində yazırdı: "Doğrudur, baxmayaraq ki, 1921-ci il dekabrın 30-da Darülmüəllimin salonunda şura ziyalılarının yeni türk əlifbası ilə əlaqədar keçirilən ümumi iclasına sədrlik etməyi Nəriman Nərimanov Hüseyn Cavidə tapşırmışdı, baxmayaraq ki, Azərbaycan hökumətinin Əlifba komissiyasının Krıma və Türküstana göndərdiyi nümayəndə heyətində Cəlil Məmmədquluzadə də var idi, bütün bunlara rəğmən, Hüseyn Cavidin də, Cəlil Məmmədquluzadənin də adları qurultaydan sonra dərc olunmuş stenoqramda nümayəndələrin siyahısında yoxdur. Amma



həm də qurultayda iştirak edirdilər. 2003-cü ildə Hüseyn Cavid haqqında "Səma şairi" sənədli filminin ssenarisi üzərində çalışarkən filmə Türkoloji Qurultayla bağlı epizodun daxil edilməsinə ehtiyac duydum. Kinoxronikaya kinostudiyada filmin məsləhətçisi Turan Cavidlə bir yerdə gedib baxdıq. Həmin iclasda ikinci sırada əyləşmiş adamın Hüseyn Cavid olduğunu Turan xanım birmənalı şəkildə və qətiyyətlə təsdiq etdi".

Xüsusi vurğulanmalıdır ki, Cavid yaradıcılığı bütövlükdə türk dünyasının mənəvi birliyinə, "Turan" idealına və milli ruhun oyanışına xidmət edirdi. Qurultayın qarşıya qoyduğu ortaq ədəbi dil və ortaq terminologiya kimi məqsədlər şairi bir mütəfəkkir olaraq bu prosesin mərkəzinə çəkirdi. Cavid qurultayda, sadəcə, müşahidəçi deyildi. O, türk xalqlarının ortaq latın əlifbasına keçməsini qızğın müdafiə edirdi. Onun "İblis", "Peyğəmbər" və "Səyavuş" əsərlərində istifadə etdiyi dil, əslində, qurultayın hədəflədiyi "ortaq türk dili" ideyasına çox yaxın idi. Cavid hesab edirdi ki, ədəbi dil İstanbul türkcəsi ilə Azərbaycan türkcəsinin sintezi əsasında formalaşmalı, süni fars və ərəb tərkiblərindən təmizlənməlidir.

Toplantıdan sonrakı illərdə Cavidin yazdığı əsərlərdə türk dünyasının ortaq tarixi keçmişinə maraq daha da artdı. O, türk xalqlarının mədəni və mənəvi birliyini bədii obrazlarla ifadə etməyə davam edirdi, bu da onu rejimin gözündə daha təhlükəli simaya çevirirdi. Hüseyn Cavidin I Türkoloji Qurultaydakı iştirakına və bu hadisənin onun taleyinə təsiri ilə bağlı daha dərin qatlara nəzər salsaq, bir neçə mühüm detalı qeyd edə bilərik. Əvvəla Cavid əfəndi qurultayda vahid ədəbi dil ideyasının ən böyük tərəfdarlarından idi. O, türk xalqlarının bir-birini tərcüməsiz anlaması üçün ortaq bir dilin formalaşmasını vacib sayırdı. İkincisi, Cavid dilimizdə ərəb və fars tərkiblərinə qarşı çıxsa da, onun həddindən artıq sadələşdirilməsinin də əleyhinə idi. O, yüksək mədəniyyət və fəlsəfə dili yaratmağa çalışırdı. Qurultayın əsas qərarı olan latın əlifbasına keçidi böyük şair hələ 1920-ci illərin əvvəllərindən dəstəkləyirdi və bu islahatın türk dünyasını qovuşduracağına inanırdı.

Qurultay günlərində Hüseyn Cavid Bakıya gələn türk alimləri və digər respublikaların nümayəndələri ilə sıx ünsiyyətdə idi. Bu ünsiyyət onun yaradıcılığındakı ümumtürk kontekstini daha da genişləndirirdi. O, bu hadisəni, sadəcə, toplantı deyil, "Turanın oyanışı" kimi qəbul edirdi.

Hüseyn Cavid rəsmi kürsüdən məruzəçi olmasa da, kuluarlarda və bölmə iclaslarında bu islahatların vacibliyini müdafiə edən ziyalılardan olmuşdur. Qurultayda çıxış edən bir çox alim və mütəfəkkir öz çıxışlarında Cavidin yaradıcılığına, onun dil və üslub islahatlarına istinad edirdilər. Bu mənada Hüseyn Cavid qurultayda danışan deyil, haqqında danışılan və ideyaları müzakirə edilən bir sima idi.

Bir çox tədqiqatçı qeyd edirdi ki, Cavid həmin dövrdə artıq formalaşmış və böyük nüfuza malik mütəfəkkir kimi qurultaya gələn qonaqlarla (Türkiyə və Orta Asiya nümayəndələri ilə) şəxsi görüşlər keçirmiş və öz fikirlərini onlarla bölüşmüşdür. Qısaca desək, böyük şair qurultayda hadisələrin gedişatına istiqamət verən mənəvi liderlərdən biri idi.

### Qurultay tələsi və 1937-ci il

Elmi araşdırmalara görə, 1926-cı il qurultayı sovet hakimiyyəti üçün əvvəlcə elmi bir toplantı kimi görünsə də, sonradan bu tədbir "pantürkistlərin yuvası" olaraq damğalandı. 1937-ci ildə Hüseyn Cavidə qarşı irəli sürülən ittihamda onun bu qurultayda iştirak edən türkçü şəxslərlə - Bəkir Çobanzadə, Xalid Səyid Qocayev və başqaları ilə əlaqəsi və həmin dövrdəki türkçülük ideyaları əsas sübut kimi istifadə olundu.

Sovet hakimiyyəti belə bir qurultaya icazə verməklə, əslində, bütün "türkçü" ziyalıları bir araya toplayıb siyahıya almışdı. Toplantının keçirildiyi ərəfədə "İblis" faciəsinin nümayişi tədbirin mədəni zirvəsi olmaqla yanaşı, Cavidin sonrakı repressiya işində "pantürkist fəaliyyət"in tərkib hissəsi kimi istintaq materiallarına daxil edilmişdir. Onun irəli sürdüyü "mədəni birlik" ideyaları sonradan Cavidə qarşı əks-inqilabi fəaliyyət və pantürkist təşkilat üzvü ittihamına çevrildi.

Cavid irsinin araşdırıcıları qeyd edirlər ki, mütəfəkkir şairin yaradıcılığı yaşadığı dövrdə daim nəzərdə olub, hər əsəri ədəbi ictimaiyyətdə böyük həssaslıqla, bəzən ciddi tənqidlərlə qarşılanıb. Ümumiyyətlə, şairin yaşadığı dövrdə ədəbiyyatın insan və cəmiyyət həyatında oynadığı rol müstəsna dərəcədə əhəmiyyətli idi. Oxuculara təqdim olunan yeni bədii əsərlər, səhnəyə qoyulan dramlar, ədəbi qəhrəmanlar insanların gündəlik həyatında da mühüm yer tuturdu, onların maraqlarını istiqamətləndirirdi. Ona görə də hər yeni bədii ədəbiyyat nümunəsinin, o cümlədən Cavidin əsərlərinin ciddi şəkildə təftiş olunması, bəzən müəllifin hansısa yanaşmasına görə sərt tənqidlə üzləşməsi təbii qarşılanmalı idi. Bütün bunlar ədəbi prosesin ümumi mahiyyətindən irəli gələn hal idi və müəyyən mənada hətta inkişafa, qüsurların aradan qaldırılmasına, prosesin qaynarlığına xidmət edirdi. Bundan başqa, ədəbiyyatda yeni nəsillər, cərəyanlar formalaşaraq paralel inkişaf edirdi və onların hər birinin dövrün ab-havasına, ədəbiyyatın vəzifələrinə münasibəti fərqli idi.

Reallıq budur ki, ara-sıra haqqında yazılan, səsləndirilən tənqidlərə rəğmən Cavid o dövrün ən çox pərəstiş edilən, şəxsiyyətinə hörmət bəslənən, əsərləri geniş çevrələrdə oxunan, səhnəyə qoyulan ədiblərindən idi və bunu onun hətta ən sərt tənqidçilərinin yazılarından da duymaq mümkündür.

### Xalqın "xalq düşməni" elan edilən şairi

1934-cü il iyunun 13-də Azərbaycan Yazıçılar İttifaqının ilk qurultayı keçirilir. İlk çıxışçı nitqində Azərbaycan ədəbiyyatının dövrün tələblərini ödəmədiyini vurğulayır, bunun günahını ayrı-ayrı şair və yazıçılarda axtarır, onları sərt tənqid etdikdən sonra əsas fikirlərini Hüseyn Cavid yaradıcılığında konkretləşdirir. Maraqlıdır ki, məruzəçinin şairdən nə istədiyi konkret anlaşılmır. Digər çıxışçı - Ağa Hüseyn Rəsulzadə (sonradan repressiya qurbanı olub) adlı biri isə yazdığı əsərlərlə neftdən, pambıqdan, planların yerinə yetirilməsi yollarından bəhs edilməsini şair və yazıçının əsas vəzifəsi kimi göstərir. Bu qurultaydan sonra Cavidə qarşı tənqidlər sistemli xarakter almağa başlayır və onun əsərlərində məqsədli şəkildə əks-inqilabi, millətçilik meyilləri axtarılır.

1937-ci ilin martında Yazıçılar İttifaqında keçirilmiş plenumda dörd məsələ müzakirəyə qoyulur. 1.H.Cavidin məsələsi. 2.M.Müşfiqin məsələsi. 3.Ə.Cavadın məsələsi. 4.Y.Vəzirin məsələsi. Plenum üç gün davam edir, bütün yazıçı və şairlər çıxışlarını özünütənqid ruhunda qururlar. Şübhəsiz, əsas tənqid hədəfləri H.Cavid, M.Müşfiq, Ə.Cavad və Y.Vəzir olur. H.Cavid haqqında tənqidi fikirlərdən biri belə idi: "Yazıçılar içərisində Azərbaycanın həyatı ilə daha az maraqlanan və Azərbaycan əməkçilərinin mübarizəsinə yad olan əsərlər yazmaqdan əl çəkməyən Hüseyn Caviddir. Biz bilirik ki, Hüseyn Cavid burjua romantizminin məktəbində yetişmişdir. Bununla bərabər, o, Azərbaycan sovet və partiya təşkilatlarının onun üçün yaratdığı imkanlara və hətta əsərinə verdiyi mükafatlara baxmayaraq, yenə Azərbaycan əməkçilərinin mübarizəsinə dair bir şey yazmamışdır".

Vaxt keçdikcə yaradıcılıq təşkilatlarında gərgin durum, çarpışma daha da artırdı. 1937-ci il iyunun 3-də M.F.Axundov adına Opera və Balet Teatrının binasında öz işinə başlayan qurultayda M.C.Bağırov S.M.Əfəndiyevi, H.Sultanovu və başqalarını "əks-inqilabçı", "xalq düşməni" elan edir. O, öz nitqində Yazıçılar İttifaqını da yaddan çıxarmır: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi: hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç və başqa əclaflar! Xalqın qəddar düşməni Ruhulla Axundov nüfuzundan istifadə edərək Yazıçılar İttifaqını bərbad vəziyyətə salmışdır".

Qurultayda adıçəkilən yazıçılar isə artıq "NKVD" əməkdaşları tərəfindən həbs edilərək ağır işgəncələrlə sorğu-sual edilirdilər. Hüseyn Cavid 2 il Bakıda DTK-nin zirzəmisində saxlanılır. 1939-cu il iyunun 9-da "əks-inqilabi fəaliyyət" ittihamı ilə 8 il islah əmək düşərgəsinə məhkum edilir. Onu Maqadana göndərirlər. 1941-ci ilədək orada qalır. Həmin ilin sentyabrında şairi İrkutsk vilayətinin Tayşet rayonuna gətirirlər. Hüseyn Cavid 1941-ci il dekabrın 5-də 59 yaşında orada vəfat edir.

Hüseyn Cavid şəxsiyyəti ilə mühit yaradırdı. Sosializm cəmiyyətinin eybəcərlikləri ilə bir araya sığmayan şəxsiyyət meyarları müəyyənləşdirirdi. Cavidə baxıb onun kimi yaşamaq istəyənlər, belələrini özünə ideal bilənlər yeni quruluşa böyük təhlükə doğura bilərdilər. Ona görə də Cavid gec-tez aradan götürülməli idi və götürüldü də...

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qəddarlığın həddi olmazmış

## Güllələnən Vəli Xuluflunun həyat yoldaşı da repressiyadan qurtula bilmədi

**Prezident İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli "I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamında 1926-cı ilin fevralında Bakıda keçirilmiş I Türkoloji Qurultay türk tarixində əhəmiyyətli dönüş nöqtəsi olaraq qiymətləndirilir. Bildirilir ki, bu mötəbər toplantı yalnız türkologiya elminin inkişafına xidmət etməmiş, həm də türk xalqları arasında ortaq mədəni kimlik və intellektual birliyin formalaşmasında önəmli rol oynamışdır. Qurultay ilk dəfə olaraq vahid ümumtürk əlifbası və ortaq orfoqrafiya məsələlərini sistemli şəkildə gündəmə gətirmiş, mövzunu elmi, tarixi və praktiki aspektlərdən əhatəli şəkildə müzakirəyə çıxarmışdır.**



100 il öncə bu mötəbər tədbirin keçirilməsinin təşkilatçılarından biri də görkəmli folklorşünas alim Vəli Xuluflu olmuşdur. Qurultaydan iki il öncə, daha dəqiq desək, 1924-cü il sentyabr ayının əvvəllərində Vəli Xuluflu dörd nəfərdən ibarət heyətin tərkibində Yeni Əlifba Komitəsinin sədri Səməd ağa Ağamalıoğlunun rəhbərliyi ilə "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadə və Bakı Pedaqoji Texnikumunun dil-ədəbiyyat müəllimi Xalid Səidlə birlikdə bütün türk cümhuriyyətlərinin mərkəzinə gedir və səlahiyyətli adamlarla görüşlər keçirirdilər. Bu görüşlər zamanı Vəli Xuluflu türk xalqlarının vahid etnik mədəniyyətə, adət-ənənələrə, eyni dilə malik olduqlarını, onların arasında yaxınlaşmanın vacibliyini vurğulayırdı.

Türk dünyasına möhkəm tellərlə bağlı olan Vəli Xuluflu ərəb, fars, rus, türk dilləri ilə yanaşı, alman, qazax, türkmən, tacik dillərini də bilirdi. O, türk xalqlarının Bakıda keçirilən I Türkoloji Qurultayında qaldırılan və həmkarları tərəfindən dəstəklənən bu məsələnin reallığa çevrilməsi üçün türk xalqlarının yığcam yaşadığı Krıma, Qazaxıstana, Özbəkistana, Başqırdıstana, Tatarıstana, Türkmənistana, Tacikistana, habelə Qırğızıstan və Qaraqalpaq Şuraları Cəmiyyətinə səfərlər etmiş, mütəxəssislər və elm adamları ilə görüşmüş, mühazirələr oxumuş, fikir mübadiləsi aparmışdı. Bundan əlavə, o, Yeni Türk Əlifbası Komitəsinin xətti ilə 1922-1925-ci illərdə respublikamızın müxtəlif bölgələrində əlifba islahatı üzrə geniş və səmərəli iş aparmışdı. Odur ki "NKVD"çilər Vəli Xuluflunu bir millətçi kimi özlərinin "qara siyahı"sına salmışlar.

Vəli Xuluflu Azərbaycanda latın əlifbasına keçidlə bağlı Türkoloji Qurultayın keçirilməsinin ideya müəllifləri və təşkilatçılarından biri olmuşdur. O vaxt I Türkoloji Qurultayın əvvəl Leninqradda (Sankt-Peterburqda), sonra Moskvada keçirilməsi barədə razılıq əldə edilməsinə baxmayaraq, Kreml maliyyə imkansızlığı bəhanəsi ilə buna imkan verməmişdir. Əvəzində professor Vəli Xuluflunun rəhbərlik etdiyi Azərbaycan Tədqiq və Təttəbö Cəmiyyəti və yeni Türk Əlifba Komitəsi həmin tarixi qurultayın Azərbaycanın paytaxtı Bakıda keçirilməsinə nail olmuşdur. Çünki latın əlifbasına keçid, yaxud ərəb əlifbasının islahatı ideyası ilk dəfə Azərbaycan maarifçiləri tərəfindən irəli sürülmüşdü. İkincisi, əlifba islahatı dövlət səviyyəsində ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaldırılmış, bu istiqamətdə bir sıra əməli addımlar atılmışdı. Üçüncüsü, əlifba islahatı üzrə Yeni Türk Əlifba Komitəsi Azərbaycanda təşkil edilmiş, habelə digər türkdilli xalqlar arasında, xüsusən respublikamızda latın əlifbasına keçidlə bağlı hazırlıq işləri aparmışdı. Dördüncüsü, Azərbaycanda bu prosesi idarə edəcək elmi potensial, görkəmli türkoloqlar cəmləşmişdi. Nəhayət, Azərbaycanda sonralar respublika Elmlər Akademiyasının formalaşmasında təməl rolunu oynamış Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti öz ətrafına güclü elmi qüvvələr toplamışdı. Beləliklə, professor Vəli Xuluflunun və digər dilçi islahatçıların marağında olduqları bu tarixi qurultay Yeni Türk Əlifbası Komitəsi ilə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin birgə qərarı ilə elə Bakıda, Vəli Xuluflunun rəhbərlik etdiyi Tədqiq və Tətəbbö Cəmiyyəti binasında (indiki AMEA Rəyasət Heyətinin binası) 2026-cı ildə keçirildi.

131 nəfər nümayəndə və xeyli qonağın iştirak etdiyi qurultayda xeyli sayda tarix, etnoqrafiya və mədəniyyətə dair görkəmli tarixçilərin məruzələri dinlənildi. Məruzələr ətrafında müzakirələrdə Vəli Xuluflunun cidd-cəhdi sayəsində qurultayın məram və məqsədinə uyğun olaraq əlifba, orfoqrafiya, terminologiya və metodika məsələlərinə həsr olunmuş məruzələrə üstünlük verildi, əsasən latın qrafikalı əlifbaya keçid məsələsinə dair qətnamələr qəbul edildi. Beləliklə, Vəli Xuluflu da daxil olmaqla Azərbaycan türkoloqlarının ən böyük tarixi uğuru qurultay iştirakçılarının türkdilli xalqların latın əlifbasına keçidinə dair qəti qərar qəbul etməsi oldu.

Latın əlifbasına keçidi ölkəmizin ziyalıları, şair və yazıçıları ürəkdən alqışladılar. Bu alqışlar içərisində istiqlal şairi Əhməd Cavadın "Yeni türk əlifbaçılarına" xitabən yazdığı:

*Mən bir aşiqəm ki, çaldığım bu saz*
*Dumanlı dağlara səs salacaqdır.*
*Dinlədiyim dildə inləyən avaz*
*Elin xatirində çox qalacaqdır.*

şeirinin səsi çox uzaqlardan eşidilirdi.

1929-cu il yanvarın 1-dən Azərbaycan əlifbası tam latın qrafikasına keçdi. I Türkoloji Qurultayın qərarına uyğun olaraq, digər türkdilli xalqlar və respublikalarla yanaşı, Türkiyə Cümhuriyyəti də həmin ildən latın əlifbasını qəbul etdi. Bu keçid xalqın kütləvi savadsızlığının aradan qaldırılmasında müstəsna rol oynadı, türkdilli xalqlar arasında mədəni əlaqələri gücləndirdi.

Amma "dumanlı dağlara səs salan" bu güclənmə 10 il əvvəl Azərbaycanı işğal etmiş rus imperiyası rəhbərliyinin, xüsusən də "ellər atası" Stalinin diqqətindən yayınmadı. Odur ki, 1930-cu illərin ortalarından başlayaraq SSRİ rəhbərliyi türk xalqları arasında mədəni birliyin mühüm vasitəsi olan latın əlifbası sahəsindəki siyasətində dəyişiklik etmək qərarına gəldi. I Türkoloji Qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasiyasına yönəldilmiş bu vacib iş siyasi məqsədlərə qurban verildi. Ümummilli ideyaların daşıyıcıları olan Azərbaycanın dilçi-tarixçi və ədəbiyyatçı türkoloqlarının böyük əksəriyyəti qırmızı terrorun toruna düşdü. Qurultay iştirakçılarının birbaşa Stalinə çatdırılan siyahısındakı şəxslər 1937-1938-ci illərdə "üçlüy"ün qərarı ilə "millətçi" və "xalq düşməni" elan edilərək güllələndilər. O cümlədən 1937-ci il oktyabrın 12-də Bakıda SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının gizlin keçirilən 20 dəqiqəlik qapalı "məhkəmə iclasında" müstəntiq erməni Qalustyanın təqdimatı, məhkəmənin sədri Matuleviç, üzvlər Zaryanov və Jiqurinin çıxardıqları hökmlə Vəli Xuluflu "əks-inqilabi fəaliyyətdə, pantürkist təşkilat yaratmaqda və Türkiyənin xeyrinə casusluqda" müqəssir hesab edilərək ən ağır cəzaya - əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edildi. Bundan sonra V.Xuluflunun həyat yoldaşı Fatma Xuluflu da 8 il azadlıqdan məhrum edilməklə Rusiyaya sürgünə göndərildi.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Bir ailədən iki şəhid - baba və nəvə

Şəhid ailəsi Vətən fədaisinin əmanətidir. Ölkəmizdə ona qayğı, böyük ehtiram tükənməzdir. Qusarda da şəhid ailəsinə xüsusi diqqət var.



Elə bu yaxınlarda rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri David İbramxəlilov və ictimaiyyət nümayəndələri Zindanmuruq kəndində şəhid ailəsini ziyarət ediblər. Görüş zamanı şəhid Xeyirbala Eyvazovun həyat yoldaşı Səhərnaz Eyvazova və ailənin digər üzvləri ilə səmimi söhbət aparılıb, ailənin qayğı və problemləri öyrənilib.

Şəhid Xeyirbala Eyvazov 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasına yardım etmək üçün göndərilən İL-76 təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olmuşdur. Onun nəvəsi Ruslan Cəfərov isə Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır.

Görüş zamanı rayonda şəhidlərimizin xatirəsinin böyük ehtiramla yad olunduğu bir daha vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələri, qazilər və müharibə iştirakçıları hərtərəfli qayğı ilə əhatə olunub. Ziyarətçilər Zindanmuruq kənd tam orta məktəbində də olublar. Təhsil müəssisəsində yaradılmış şərait, tədris prosesinin təşkili və məktəbin ümumi fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilib. RİH-in başçısı təhsil müəssisəsində tədrisin keyfiyyəti, şagirdlərin dərsə davamiyyəti, universitetlərə qəbul göstəriciləri, məktəbin maddi-texniki təminatı, istilik sisteminin vəziyyəti ilə maraqlanıb. Görüşdə şagirdlərin bilik və bacarıqlarının artırılması, onların vətənpərvərlik ruhunda tərbiyə olunması və keyfiyyətli təhsilin təmin edilməsinin vacibliyi qeyd edilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Sudan: iqtisadi tənəzzül, kütləvi köçkünlük, zorakılıq və humanitar böhran

Münaqişənin başlamasından 3 il sonra Sudan dərinləşməkdə davam edən iqtisadi və humanitar böhran yaşayır. BMT-nin hesablamalarına görə, ölkə təkcə 2023-cü ildə təxminən 6,4 milyard dollar ÜDM itirib və milyonlarla insan həddindən artıq yoxsulluq həddinə düşüb. Döyüşlər davam edərsə, 50 milyon insan yoxsulluqla üzləşəcək.



Hazırda ölkə əsas infrastruktura çıxışın kəskin pisləşməsi ilə müşayiət olunan tənəzzül yaşayır. Gəlirlər 1990-cı illərin əvvəllərində müşahidə olunan səviyyəyə düşüb, səhiyyə, təhsil və digər həyati əhəmiyyətli xidmətlərə çıxış son dərəcə məhdud olaraq qalır. Bu şəraitdə əhalinin humanitar ehtiyacları sürətlə artmaqda davam edir.

"Ehtiyaclar hazırda onları qarşılamaq imkanlarımızı üstələyir və bu boşluq həyatla ölçülür", - deyə Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) baş direktoru Emi Poup bildirib. Onun sözlərinə görə, yardımın çatdırılmasının gecikdirilməsi hər gün ailələrin qida, su və digər ərzaqsız qalması deməkdir. Daha çox insanın təhlükəyə düçar olmaması üçün təcili beynəlxalq dəstəyə ehtiyac var.

Sudanda ən böyük köçkünlük böhranı da davam edir. Milyonlarla insan evlərini tərk etmək məcburiyyətində qalıb. Onların çoxu qonşu ölkələrə gedir. Çad ən çox sayda sudanlı qaçqını - təxminən 1,3 milyon nəfəri qəbul edib. Bu, ölkənin onsuz da məhdud resurslarına təzyiqi xeyli artırıb. Sərhəd bölgələrindəki düşərgələr həddindən artıq sıxdır, qida və tibbi personal sarıdan ciddi çatışmazlıq var.

Vəziyyət Yaxın Şərqdəki gərginliyin nəticələri ilə daha da mürəkkəbləşir: regional təchizat zəncirlərindəki fasilələr və nəqliyyat marşrutlarındakı məhdudiyyətlər humanitar yardımın çatdırılmasında gecikmələrə və onun xərclərinin artmasına səbəb olur.

Münaqişənin nəticələri qadınların və uşaqların həyatına daha çox təsir edir. "BMT - Qadınlar" strukturunun 85 qadın təşkilatı arasında apardığı sorğuya cavab verənlərin üçdə ikisi 2025-ci ildə cinsi zorakılığın əhəmiyyətli dərəcədə artdığını bildirib. "Qadınlar və qızlar öz evlərində, eləcə də qaçıb xilas olmağa və ya qida, su və tibbi yardım almağa çalışarkən təcavüzə məruz qalır və öldürülürlər. Cinsi zorakılıq Sudanda müharibə strategiyasının ayrılmaz hissəsinə çevrilib", - deyə "BMT - Qadınlar" təşkilatının Şərqi və Cənubi Afrika üzrə regional direktoru Anna Mutavati bildirib. Buna baxmayaraq, qadın təşkilatları yardım göstərməkdə davam edirlər. Onlar ailələri qida ilə təmin edir, zorakılıqdan ziyan çəkənlərə tibbi və psixososial dəstək verir, yerli münaqişələrdə vasitəçi kimi çıxış edərək əvvəllər beynəlxalq təşkilatlar üçün əlçatmaz olan ərazilərə humanitar yardımın çatdırılmasını təşkil edirlər. Uşaqlar da münaqişənin ağır yükünü daşımağa davam edirlər. UNICEF-in məlumatına görə, 2026-cı ilin əvvəlindən bəri münaqişədə ən azı 160 uşaq həlak olub. Qida çatışmazlığı isə 2026-cı ildə təxminən 4,2 milyon uşağın kəskin qidalanma çatışmazlığından əziyyət çəkməsinə səbəb ola bilər. Aclıq artıq bir neçə ərazidə qeydə alınıb və onun yayılma riski yüksək olaraq qalır.

Eyni zamanda təhsil sistemi çökür: ölkə məktəblərinin üçdə birindən çoxu bağlanıb, bəziləri sığınacaq kimi istifadə olunur və ya münaqişə tərəfləri tərəfindən işğal edilib. Nəticədə ən azı 8 milyon uşaq məktəbə getmək imkanından məhrum olunub.

BMT vurğulayır ki, münaqişəyə son qoymaq vəziyyətin sabitləşdirilməsi üçün əsas amil olaraq qalır. Lakin sülh əldə olunsa belə ölkənin yenidən qurulması onilliklər və genişmiqyaslı beynəlxalq dəstək tələb edəcək. Buna görə də Sudan xalqına yardım göstərmək üçün əlaqələndirilən səylərə təcili ehtiyac var.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# 17 Aprel Ümumdünya Hemofiliya Günüdür

# İrsi sınaq

## Düzgün müalicə ilə hemofiliyadan sağalmaq mümkündür

Hemofiliya nadir rast gəlinən, lakin həyat üçün ciddi risk yaradan irsi qan xəstəliyidir. Bu xəstəlik zamanı qanın laxtalanma mexanizmi pozulduğundan ən kiçik travma belə uzunmüddətli qanaxma və ağır fəsadlarla nəticələnə bilər. Dünyada milyonlarla insan hemofiliya ilə yaşayır.

Ümumdünya Hemofiliya Federasiyasının məlumatına görə, dünyada hər 10 min nəfərdən biri hemofiliyadan əziyyət çəkir. Xəstəliyin qlobal yayılması 2014-2023-cü illər arasında hər 100 min nəfərə görə 2,75-dən 3,75-ə yüksəlib. Ən yüksək göstəricilər Avropada qeydə alınıb. Proqnozlara əsasən, bu artım 2030-cu ilə qədər davam edəcək.

Mütəxəssislər bildirirlər ki, xəstəliyin yayılma göstəricilərinin öyrənilməsi səhiyyə sistemlərinin planlaşdırılması, resursların düzgün bölüşdürülməsi və gələcək risklərin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Son illərdə diaqnostika, müalicə, profilaktika sahəsində əldə olunan nailiyyətlər xəstələrin həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

### Xəstəlik nəsildən-nəslə keçir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Hematologiya kafedrasının müdiri dosent Elmira Qədimovanın sözlərinə görə, genetik xəstəlik olan hemofiliya nəsildən-nəslə, daşıyıcı anadan oğula keçir. Bəzən isə ailə tarixçəsində belə hal olmasa da, hemofiliyalı uşaq doğula bilər. Xəstəlik cüzi travma nəticəsində həyati təhlükəli qansızma və qanaxmalarla təzahür edir. Ailə üzvlərinin ancaq kişi cinsinə ana vasitəsilə ötürülür. Ana özü isə praktik sağlam olur. Bu qadınları şərti olaraq ötürücü və ya gen daşıyıcı adlandırırlar.

"Hemofiliyalı insanlarda qanın laxtalanma sistemində iştirak edən faktorların səviyyəsi aşağı olur, ya da ümumiyyətlə olmur. Hemofiliya qanda laxtalanma faktorlarının çatışmazlığı səviyyəsinə görə 1 faizdən aşağı olarsa, ağır gedişli, 1-5 faiz arasında olarsa, orta ağır, 5 faizdən yuxarı isə yüngül gedişli olur. VIII faktorun çatışmazlığı hemofiliya A və ya klassik hemofiliya, IX faktorun çatışmazlığı isə hemofiliya B, yaxud Kristmas xəstəliyi, VIII faktorla birlikdə von Villebrand faktorunun çatışmazlığı isə Angiohemofiliya adlanır", - deyə dosent bildirib.

Kafedra müdiri qeyd edib ki, hazırda Azərbaycanda 1779 hemofiliyalı xəstə var. Onlardan 1187 nəfəri hemofiliya A, 168 nəfəri hemofiliya B, 245 nəfəri von Villebrand, 179 nəfəri isə digər koaqulopatiyalardan əziyyət çəkən şəxslərdir. 0-5 yaş arası xəstələrin sayı 49 nəfər, 5-18 yaş arası 393 nəfər, 18 yaşdan yuxarı xəstələr isə 1337 nəfərdir.

### Vətəndaşlarımızın sağlamlığı dövlətimizin prioritetidir

Azərbaycanda hemofiliya probleminin həlli dövlət səviyyəsində diqqətdə saxlanılır. Bunun bariz nümunəsi aparılan islahatlar və qəbul olunan dövlət proqramlarıdır. İlk proqramlardan biri olan "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə qayğı" Dövlət Proqramı 2005-ci ildə qəbul edilib. Proqram hemofiliyalı xəstələrə tibbi yardımın təkmilləşdirilməsi, onların laxtalanma faktorları ilə təminatı, qanaxmaların profilaktikası, həyat keyfiyyətinin yüksəldilməsi və vaxtsız ölümlərin qarşısının alınmasına xidmət edir.



Elmira Qədimova deyib ki, insanları narahat edən məsələlərdən biri xəstəliyin tam müalicə olunub-olunmamasıdır: "Cavab birmənalıdır: Bəli, müalicə olunur. Hemofiliyanın müalicəsində çatışmayan laxtalanma faktoru inyeksiya üsulu ilə vena daxilinə yeridilir. Bu da qanaxmaları dayandırır və erkən əlilliyin qarşısını alır. Bu gün dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda da hemofiliyalı xəstələr özlərini cəmiyyətin mükəmməl üzvləri kimi hiss edirlər: oxuyurlar, işləyirlər, idmanla məşğul olurlar. Hazırda dövlət proqramı çərçivəsində hemofiliyalı şəxslər laxtalanma faktor preparatları ilə təmənnasız təmin olunurlar. Ağır formalı xəstələrimiz, xüsusən uşaqlar I profilaktikaya götürülür. İnhibitorlu xəstələrimizdən 30 nəfəri müasir innovasion dərman Emisizumab (Hemlibra) ilə profilaktik müalicə alır. Deyə bilərəm ki, son illər bizim xəstələrin yaşayış keyfiyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşıb".

Mütəxəssis əlavə edib ki, Hemofiliya Mərkəzi Azərbaycanda 1973-cü ildə yaradılıb və Bakı şəhərində M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin nəzdində fəaliyyət göstərir. Mərkəzdə müasir standartlara uyğun müalicə aparılır, xəstələr ambulator və stasionar yardım alır, böyük və kiçik cərrahi əməliyyatlar icra olunur, endoprotezlər qoyulur. Tibbi personalın ixtisas səviyyəsi yüksəkdir. Mütəxəssislərin xarici ölkələrdə, beynəlxalq konfrans və simpoziumlarda iştirakı, bilik və təcrübə mübadiləsinin təşkili həyata keçirilir. Müxtəlif ölkələrin hemofiliya mərkəzləri dünyanın aparıcı mütəxəssisləri ilə qarşılıqlı əlaqə saxlanılır. Hematologiya kafedrasının əməkdaşları tərəfindən hemofiliya problemlərinə həsr olunmuş elmi-tədqiqat işləri aparılır, yerli və beynəlxalq jurnallarda bu tədqiqatların nəticələri nəşr olunur. Hemofiliyanın müalicəsinə aid milli protokollar dərc olunur.

Hemofiliya ilə mübarizədə əsas məqsəd yalnız xəstəliyin müalicəsi deyil, həm də erkən diaqnostika, davamlı profilaktika və xəstələrin cəmiyyətə tam inteqrasiyasının təmin edilməsidir. Azərbaycanda bu sahədə həyata keçirilən dövlət proqramları, müasir müalicə üsullarının tətbiqi və ixtisaslaşmış tibbi xidmətlərin genişləndirilməsi hemofiliyalı şəxslərin daha sağlam və keyfiyyətli həyat sürməsinə real imkan yaradır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# *NASA:* "Xaos Tanrısı" adlı asteroid 3 ildən sonra Yer kürəsinə yaxınlaşacaq

NASA bildirib ki, "Xaos Tanrısı" adını daşıyan Apofis asteroidi 2029-cu il aprelin 13-də Yer səthindən təxminən 20.000 mil yuxarıdan keçəcək. ABŞ-nin kosmik agentliyi onun dünyaya təhlükə yaratmayacağına zəmanət verir.



AZƏRTAC xəbər verir ki, NASA-nın çərşənbə günü yaydığı məlumata görə, alimlər üç il ərzində Yer kürəsinə yaxı məsafədən üç futbol meydançası böyüklüyündə asteroidin keçəcəyini gözləyirlər. Bu, astronomlara nəhəng kosmik qayanı yaxın məsafədən öyrənməyə imkan verəcək.

Adının mənşəyi qədim Misir tanrısından gələn Apofis tipli asteroid 2029-cu il aprelin 13-də planetimizə yaxın məsafədən sürətlə keçəcək. Agentlik əlavə edib ki, o, Yer səthindən təxminən 20.000 mil yuxarıda keçəcək ki, bu da asteroidi orbitdə olan bir çox peykdən daha yaxın edəcək. Ən yüksək peyklər ekvatordan təxminən 22.000 mil yüksəklikdə orbitə çıxır.

Alimlər Apofisi potensial təhlükəli asteroid hesab etsələr də, NASA onun 2029-cu il səyahəti zamanı Yer üçün təhlükə yaratmayacağına əmindir. Astronomlar bu qənaətə illərdir davam edən monitorinqlərdən sonra gəliblər. Onlar hesab edirlər ki, həmin kosmik obyekt növbəti 100 il ərzində Yer üçün heç bir təhlükə yaratmayacaq.

NASA bununla bağlı bəyan edib: "Yer kürəsi, onun üzərində yaşayan canlılar və ya hər hansı bir obyekt, yaxud kosmosdakı astronavtlar və ya peyklər üçün heç bir təhlükə yoxdur. Lakin bu tədbir Apofis və oxşar Yer kürəsinə yaxın asteroidlər haqqında daha çox məlumat əldə etmək üçün inanılmaz və tamamilə misli görünməmiş bir fürsətdir".

Agentliyin məlumatına görə, Şərq yarımkürəsində yaşayan insanlar hava şəraitindən asılı olaraq asteroidi adi gözlə görə biləcəklər.

# Bu günə olan hava proqnozu açıqlanıb

**Aprelin 17-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 9-12° isti, gündüz 17-21° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunu, nisbi rütubət isə 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 6-9° isti, gündüz 17-22° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 5-10° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3806
Sifariş 484

Qiyməti 60 qəpik